Azərbaycan Respublikasının
Qeyri -Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Agentliyi

"Zəka İşığında"
Milli Dəyərlərin Təbliğinə
Yardım İctimai Birliyi

Cəmilə ÇİÇƏK




# QARABAĞ:
## Qələbəmizin kreativ tarixi

**CƏMİLƏ ÇİÇƏK**

# QARABAĞ: QƏLƏBƏMİZİN KREATİV TARİXİ

**"HƏDƏFİM TƏHSİL" MMC**

**BAKI–2022**

Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə “Qarabağ zəfəri ilə başlayan intibah mərhələsi: qələbəmizin kreativ tarixi” adlı ikiaylıq layihə çərçivəsində hazırlanmışdır.

Kitabın məzmununda əks olunan fikir və mülahizələr müəllifə aiddir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəsmi mövqeyini əks etdirmir.

Kitabda dünyaya səpələnmiş 60 milyonluq soydaşımızı birləşdirən vətənpərvərliyin təbliğinə həsr olunmuş elmi-mədəni yazılar toplanıb. Kitab humanitar sahələrin mütəxəssisləri, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Tərtibçisi və müəllifi: **Cəmilə Çiçək**
*Araşdırmaçı-jurnalist*

Ön sözün müəllifi: **Bilal Alarlı,**
*Fəlsəfə üzrə fəlsəfə doktoru*

Rəyçi: **Etibar Əliyev**
*Fəlsəfə üzrə fəlsəfə doktoru*

Redaktoru: **Məhəmməd Nərimanoğlu**
*Yazıçı-publisist*

**Cəmilə Köçəri qızı İsbəndiyarova. “Qarabağ: qələbəmizin kreativ tarixi”. Bakı,“Hədəfim Təhsil” MMC, 2022, 112 səh.**

**© Cəmilə Çiçək, 2022**

**ISBN: 978-9952-445-20-03 (2)**

**E-mail:** c.cicek@mail.ru

**Bilal ALARLI (Hüseynov)**
*Filologiya üzrə fəlsəfə doktoru*

## ZƏFƏR TARİXİMİZİN ŞANLI SƏHİFƏLƏRİ:
Şəhidlərə qoyulan söz abidəsi

Silahı söz olan əsgərin döyüş meydanı onun şəhidlər haqqında araya-ərsəyə gətirdiyi yazılarıdır. Cəmilə xanım Qarabağ ağrısını köçkün kimi şəxsi həyatında yaşamışdır. Bu yolda itkiləri də ürəkağrıdandır. Tale onu ata-ana itkisindən sonra ailəsinin yükünü çəkməyə məcbur etmişdir, lakin o, bu yolda yorulmamış, doğma Kəlbəcər torpağının azad ediləcəyi günə inamını qırmamışdır. Kəlbəcər düşmən tapdağından azad edildi. 44 günlük Zəfər yürüşündən sonra bu cənnət diyar qoynunu sakinlərinin üzünə açdı. Amma xalq  Böyük Zəfərə doğru gedən yolda verilən şəhidləri silahı ilə şanlı tarix yazan xilaskarlar kimi unutmur, onların adlarını əbədiləşdirir, şəninə dastan bağlayır, adına küçə salır, əməllərini örnək simvoluna çevirir. Şəhidlərin ölümsüzlüyü də bu dəyərlərlə bağlıdır. Yolunda canlarını fəda etdikləri Vətən şəhidlərinin adları belə əbədiləşdirilir.

Cəmilə Çiçəyin haqqında söhbət açdığı Kəlbəcər şəhidləri təkcə Kəlbəcər torpağında deyil, Qarabağın hər bir guşəsində işğalçılara qarşı haqq savaşında canlarından keçmişlər. Onların hər birinin kimliyi sonrakı nəsillər üçün ibrət dərsidir, hünər salnaməsidir, qeyrət nümunəsidir. Bu oçerklər, kimliklər, tərcümeyi-hallar həm də xalqın şanlı tarixidir.

Rasim Abdullayev, Azər Mikayılov, Arif Əliyev, Daşqın Şəfiyev, Elnur Mustafayev, Nicat Atayev və Həsən Abdullayev haqqında olan kimlik oçerklərini həyəcansız oxumaq olmur. Cəmilə Çiçək yazır ki, Daşqının itkisinə dözməyən ana kədərini, xatirələrini şeirə köçürür, təsəllisini yazdığı lirik əsərlərdən alır. Bu xanımın özü də ailəsinə baş çəkdiyi şəhidlər haqqında şeirlər yazmışdır. Onlardan biri şəhid atasına verilən təsəllidən ibarətdir:

Başını uca tut, şəhid atası,
Sən qürur yerisən elin-obanın.
Cəsur böyütdüyün oğluna görə
Ruhu dinclik tapır ata-babanın.

Cəmilə Çiçək Kəlbəcər şəhidlərinin kimliyini qələmə almaqla kifayətlənməyib, onların haqqında sənədli film çəkilməsində də fəal iştirak edir. Qeyd etmək olar ki, o, sakinləri köçkün düşmüş Kəlbəcərin şəhidləri haqqında film çəkmək üçün bir rayonu deyil, bir neçə rayonu gəzməli, şəhid ailələrini axtarmalı olmuşdur. Şəhidlər haqqında filmə Gəncə, Göygöl, Daşkəsən, Samux, Goranboy, Yevlax, Bərdə, Tərtər və başqa rayonlarda məskunlaşan, burada köçkün həyatı yaşayan şəhid ailələri də çəkilmişdir.

Şəhid ailələri ilə görüşən, onların qayğıları ilə maraqlanan Cəmilə Çiçək şəhidlərin döyüş meydanında başladığı vətənpərvərlik missiyasını öz xeyirxah əməlləri ilə davam etdirir. Onun Kəlbəcər şəhidləri haqqında qələmə aldıqları əməli ilə tarix yazanlara qoyulan söz abidəsidir, küləyin döymədiyi, günün qaraltmadığı, yağışın islatmadığı əbədiyaşar qeyrət heykəlidir.

Kitab Qarabağ müharibəsi tarixini araşdıran tədqiqatçılar üçün mənbə rolunu oynayır. Buradakı materiallar orta məktəb şağırdlərinə də Vətən müharibəsi qəhrəmanlarının fədakarlığı haqqında əvəzsiz məlumatlar verə bilər.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN
İLHAM ƏLİYEV:



“İkinci Qarabağ müharibəsi, bir daha demək istəyirəm, tarixi Zəfərimizdir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır. Müharibə ilə bağlı artıq kifayət qədər məlumatlar var və təkrar etmək istəmirəm. Müharibənin gedişatı hər kəsə məlumdur.

Sadəcə olaraq, indi bizim dərsliklərimizdə, elmi əsərlərdə, məqalələrdə, kitablarda müharibə ilə bağlı və müharibədən əvvəlki dövrlə bağlı çox müfəssəl və geniş məlumat verilməlidir ki, biz bu tarixi olduğu kimi qeyd edək, bu tarixi olduğu kimi yazaq və gələcək nəsillər də daim bunu bilsinlər və unutmasınlar, o cümlədən erməni vəhşiliyini unutmasınlar”.



“İlham Əliyev. İnkişaf – məqsədimizdir” çoxcildliyinin çapdan çıxmış 113-cü kitabında yer alan bu fikirlər dövlət başçısının avqustun 16-da Kəlbəcər şəhərində dövlət bayrağını ucaltdıqdan sonra söylədiyi çıxışından götürülüb. Prezident dərin məzmunlu çıxışında İkinci Qarabağ müharibəsinin erməni mifologiyasını tamamilə məhv etdiyini vurğulayaraq deyib: “Çünki uzun illər ərzində, 30 il ərzində ermənilər dırnaqarası “hərbi qələbə” ilə öyünürdülər. Ermənilər bir neçə mif uydurmuşdular ki, onların ordusu “yenilməz ordu”dur və onların ordusu bu torpaqları əbədi işğal altında saxlaya bilər. Biz bu mifi dağıtdıq. Erməni ordusu yoxdur bu gün. Erməni ordusu tamamilə məhv edildi. Erməni ordusunun silah və sursatlarının mütləq əksəriyyəti məhv edildi, ya da ki, qənimət kimi götürüldü və indi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Biz erməni ordusunu “yenilməz ordu” kimi təqdim edən mifologiyaya son qoyduq”.

**Dərin hörmət və sevgilərlə,**
**Sizin Mehriban**

## MÜZƏFFƏR SƏRKƏRDƏNİN SADİQ SİLAHDAŞI



Vətən müharibəsindən əvvəl Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dövlət başçısı İlham Əliyevlə birlikdə şəhid ailələri, müharibə əlilləri və veteranları ilə mütəmadi olaraq görüşləri, onların qayğıları ilə maraqlanmaları, problemlərini həll etmələri Vətən uğrunda, xalq yolunda öz qanını və canını əsirgəməyən, bu yolda xidmətləri olan insanlara yüksək diqqətin təcəssümü olmaqla bərabər, həmçinin hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradaraq qələbə əzmini artırırdı. Aprel döyüşlərində yaralanan və yüksək texnologiyalı protezlərlə təmin edilmiş hərbi qulluqçularla 2019-cu il aprelin 3-də keçirilən görüşdə Mehriban xanım Əliyeva onlara "qardaşlarım" deyə müraciət edərək söyləmişdir: "...Belə xalqla, belə əsgərlərlə biz Qarabağı mütləq qaytaracağıq..."

Qeyd olunanlar qəti əminliklə deməyə əsas verirdi ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə tezliklə işğal altında olan torpaqlarımız düşmənlərdən təmizlənəcək və doğma Azərbaycanımızın ərazi bütövlüyü bərpa olunacaqdır. Çox keçmədi ki, bu, belə də oldu. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında bir damlası düşmənin vücudundan dəyərli olan qanları ilə şanlı tarix yazan hərbçilərimiz bu şərəfli missiyanı uğurla yerinə yetirdilər.

Nəcib əməllərinə, Azərbaycana xidmətlərinə görə vətən-

daşlarımızın, ümumən bütün dünya azərbaycanlılarının böyük sevgi və ehtiramını qazanan ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da çətin sınaq günlərində cəmiyyətimizdə milli həmrəyliyin əldə olunmasında xüsusi xidmətlər göstərdi. Müzəffər ordumuzun hər şanlı qələbəsindən sonra Mehriban xanımın müxtəlif sosial şəbəkələr üzərindən xalqımıza ünvanladığı təbrik sözləri, sevinc, qürur və ümid dolu kəlmələri insanlar arasında qələbə əzmini daha da gücləndirdi. Onları vahid amala, milli hədəflərə doğru səfərbər etdi. 10 noyabr tarixində sadiq silahdaş Mehriban xanım Əliyeva tarixi Qələbə münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım etdi. Paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Bu gün böyük gündür – Qələbə Günüdür! Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu! Tarixi ədalət bərpa olundu! Həqiqətən əlamətdar olan bu hadisə münasibətilə Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm!

Ermənistan özünün tam və qeyd-şərtsiz kapitulyasiyasını etiraf etdi! Biz öz nəcib xilaskar missiyamızı şərəflə yerinə yetirdik! Biz öz Vətənimizi qoruduq, əzəli Azərbaycan torpaqlarını işğaldan azad etdik, Azərbaycanın səbirlə gözlədiyi Qələbəni qazandıq! Biz uzun illər boyu həqiqətin və tarixi ədalətin təntənəsini gözləyirdik. Münaqişənin dinc yolla nizamlanmasına dair danışıqlar prosesində 30 ilə yaxın iştirak etməyimiz bizim sülh tərəfdarı olmağımızın əyani göstəricisidir. Ermənistan 27 il ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altında olan bütün ərazilərindən işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə etinasızlıq göstərib. Ermənistan tərəfindən törədilən hərbi təxribatlar bitib-tükənmirdi. Azərbaycan bütün dünyaya göstərdi və sübut etdi ki, o, özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi!

2020-ci il sentyabrın 27-dən davam edən hərbi əməliyyatlar dövründə Azərbaycan Ordusu təqribən 300 yaşayış məntəqəsini, o cümlədən 5 şəhəri və 4 qəsəbəni, çoxsaylı strateji yüksəklikləri

azad etdi. Azərbaycanın mədəniyyət incisi – Şuşa şəhəri azad ediləndən cəmi bir neçə saat sonra bizim döyüşçülərimiz 72 yaşayış məntəqəsini və 9 strateji yüksəkliyi öz nəzarəti altına almağa nail oldu. Bu, şübhəsiz, Ermənistanın hərbi və siyasi rəhbərlərini çıxılmaz vəziyyətə saldı. Bizim ordumuz öz müqəddəs dəyərləri – Vətənimiz, ortaq evimiz uğrunda döyüşürdü və bu müqəddəs mübarizədə dözüb dayandı və qalib gəldi!

Bu anlarda bütün dünya azərbaycanlıları sevinc və qürur hissləri keçirir. Bizim Prezidentimizə görə, igid əsgərlərimizə və zabitlərimizə görə, Azərbaycan xalqının vətənpərvərliyinə, sıx birliyinə və həmrəyliyinə görə qürur keçirir!

Hər birimiz bizim Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə hədsiz təşəkkür edirik! Onun rəhbərliyi ilə müasir, güclü Azərbaycan Ordusu yaradılıb! Məhz onun sarsılmaz iradəsi, cəsarəti, əzmkarlığı və qətiyyəti sayəsində Azərbaycan Ordusu düşməni sarsıtdı, müharibənin nəticəsini müəyyən etdi və qələbə nöqtəsini qoydu. Prezidentimizin güc mənbəyi olan Azərbaycan xalqının hörməti, sevgisi, etimadı, inamı və dəstəyi ona Avrasiya məkanında ən uzunmüddətli münaqişələrdən biri olan Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsini başa çatdırmaqda kömək etdi. Onun başçılığı ilə biz xalqımızın özünəinamını qaytaran Qələbəni qazandıq! Bu Qələbənin möhtəşəmliyi Azərbaycan dövlətinin tarixində əbədi qalacaq!

Əziz qardaşlar və bacılar!

Torpaqlarımızın xaincəsinə işğalı illərində olduğu kimi, budəfəki döyüşlər dövründə də faciələr və itkilər oldu. Hərbi əməliyyatlar zonasından uzaqda vəhşicəsinə hücumlar nəticəsində şəhərlərimizin və kəndlərimizin dinc sakinləri həlak oldu. Uşaqlar, qadınlar və ahıl insanlar həlak oldu. Amma bu, Azərbaycanın əzmini sındırmadı! Mən həlak olanların doğmalarına və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verirəm! Onların qanı yerdə qalmadı! Azərbaycan Ordusu, Azərbaycan dövləti bütün həmvətənlərimizin axıdılmış qanına görə qisas aldı!

Vətənimizi müdafiə edən, onu dirçəldən nəslin işıqlı xatirəsi, bu

nəslə hörmət və ona görə səmimi qürur hissi hər bir azərbaycanlının qəlbində həmişəlik qalacaq! Bizim əsgər və zabitlərimiz canlarını belə əsirgəmədən döyüşüblər. Onlar nəciblik və həqiqi vətənpərvərlik nümunəsi göstəriblər. Bu gün onların hamısını Vətən naminə, onun qüdrəti naminə göstərdikləri igidliklər birləşdirir! Biz onların rəşadəti, iradəsi və ruh yüksəkliyi qarşısında, öz mətanəti ilə işğalçını sarsıdan, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən hər kəsin qarşısında baş əyirik! Adları Azərbaycan dövlətinin tarixinə əbədi olaraq yazılan bu cür igid övladlar böyüdüb tərbiyə etmiş valideynlərin qarşısında baş əyirik! Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə Allah rəhmət eləsin!

Bu müharibə bizə əsrlərboyu bildiyimiz bir həqiqəti – dost dar gündə tanınar həqiqətini bir daha sübut etdi. Dünyadakı bütün dostlarımıza minnətdaram! Sağ olsunlar ki, bizim dərdimizə şərik oldular, Azərbaycan xalqını dəstəkləyən prinsipial və ədalətli mövqelərini açıq bildirdilər. Qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana xüsusi təşəkkürümü bildirirəm. Onların həmrəyliyi və dəstəyi hər bir azərbaycanlıda qürur hissi oyadır!

Kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkür edirəm. Onların yüksək peşəkarlığı, obyektivliyi, qərəzsizliyi, operativliyi və məsuliyyəti sayəsində bugünkü Azərbaycan reallıqlarını dünyaya çatdırmaq mümkün oldu. Öz Vətənlərinin hüdudlarından kənarda Azərbaycanın mövqeyini müdafiə edən və Ermənistanın işğalçı mahiyyətini beynəlxalq ictimaiyyətə göstərən soydaşlarımız sağ olsunlar! Arxa cəbhədə bir yumruq kimi birləşərək Azərbaycan dövlətinin qüdrətini və bizim həmrəyliyimizi bütün dünyaya nümayiş etdirmiş bütün Azərbaycan xalqına minnətdaram!

Əziz həmvətənlər!

Sizin hamınızı Böyük Qələbə Günü münasibətilə təbrik edirəm! Böyük Zəfər gününüz mübarək! Azərbaycanın şərəf və qüdrət günü mübarək! Qarabağın azad edilməsi günü mübarək! Biz Qələbə qazandıq! Qarabağ Azərbaycandır!”

**Cəmilə ÇİÇƏK**
*Prezident təqaüdçüs*ü

# QARABAĞ ZƏFƏRİNİN İNTİBAH MƏRHƏLƏSİ

**Azərbaycanın çağdaş tarixində Ermənistan tərəfindən işğal edilərək uzun müddət dağıdılmış, 44 günlük möhtəşəm müharibə zamanı Müzəffər Ordumuzun azad etdiyi, bərpa işləri aparılan Qarabağda tarixinin qızıl salnaməsini mədəni irsə çevirmək, qalibiyyət tarixinin tədqiqi, onun estetik söz sənəti formalarında – klassik və modern ədəbiyyat, poeziya və folklor məkanı kimi dünyada tanıdılmasına böyük ehtiyac duyulur. Sadalanan istiqamətlərdə peşəkar alimlərin tədqiqatlarına, elm və sənət adamlarının yaradıcılıq potensiallarının birləşdirilməsinə, ədəbiyyat və poeziya həvəskarlarının marağını cəmləməsinə, ölkəmizin və onun hüdudlarından kənarda yaşayan intellektual yaradıcı şəxslərin şəbəkələşməsinə real, həmçinin virtual kömək olacaq fəaliyyətlərin həyata keçirilməsi aktual məsələ olaraq ortaya çıxır. Bu amillər həm də Qarabağın kreativ turizm məkanı kimi dünyada tanınmasına xidmət edə bilər. Qarabağdakı Zəfərimizin çağdaş tariximizin yeni intibah dövrünə, fərqli mərhələsinə çevrilməsini kreativ-intellektual formalarda yeni nəslin nümayəndələrinə və dünyaya tanıtmalıyıq.**

Böyük turistik imkanlara, kreativ sənaye potensialına malik yeni Qarabağın Qalibiyyət tarixinin elmi-humanitar tədqiqatlara cəlb olunması, daha sonra müqayisəli öyrənilməsi istiqamətində araşdırmaların məntiqi nəticəsi kimi bu qədim bölgənin türk dünyasının çağdaş intellektual və humanitar düşüncə texnologiyasına – modern estetik və incəsənət, klassik və müasir üslubda yaradılması vacib ədəbiyyat, publisistika, poeziya nümunələrinə çevrilərək azərbaycançılıq ideologiyasına xidmət

etməli, eyni zamanda milli-vətənpərvərlik dəyərlərinin tərkib hissəsinə çevrilməlidir. Postmüharibə dövrü Qarabağın beynəlxalq incəsənət, kreativ məkan olaraq dünyada tanıdılmasına böyük ehtiyac duyulur. Bu istiqamətlərdə tədqiqatları və təcrübələri birləşdirməklə real və virtual təbliğat, tanıtım, şəbəkələşmə alətlərindən, İK texnologiyalarından, düşüncə modellərindən yararlanmaqla, Qarabağın Zəfər mərkəzi kimi təbliği həm də Azərbaycanımızın türk dünyasında, türksoylu ölkələrdə, eləcə də Avropa və dünyada nüfuzunu qaldırmağa xidmət edir.

Bu istiqamətdə yaradıcı insanları, tədqiqat*çıları, alim, jurnalist və bloqerləri, Azərbaycan və türk diaspor* fəallarını, kreativ gənclərin, internet istifadəçilərinin, əslən Qarabağdan olan tanınmış şəxslərin estetik imkanlarını, kulturoloji potensiallarını birləşdirmək mütləq vacibdir.

"Qarabağ Zəfəri" ədəbi mühitin formalaşdırılmasına təkan verəcək, Qələbəyə aid yeni ədəbiyyat nümunələrinin yazılmasına həvəsləndirəcək, bölgənin mədəniyyətinə həsr olunmuş elmi-kütləvi yazılardan ibarət kitabın çapı, yayımı, onların elektron variantının yayımı, İnternet TV verilişinin hazırlanması, internet vasitəsilə bu virtual-vizual məhsulların ardıcıl nümayişi, sosial şəbəkələrdə layihəyə həsr olunmuş səhifənin yaradılması, fəaliyyətinin təşkili və başqa fəaliyyət növləri ilə qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur.

İctimai Birliyin bu istiqamətdə həyata keçirdiyi ardıcıl fəaliyyəti, layihələri bir daha sübut edir ki, müasir dünyada olduğu kimi, ölkəmizdə də fərqli mədəni-kreativ potensiallardan bəhrələnmək üçün yerli və beynəlxalq turizm imkanlarından yararlanmaq mümkündür. Burada isə əsas məsələ peşəkarlar, təbliğatçılar, gənclər, diaspor fəalları, bir sözlə, layihəyə cəlb olunacaq şəxslər üçün innovativ alətlər, kreativ formatlar yaratmaqdır.

Sadalanan məsələnin həlli istiqamətində bəzi problemlərin

ictimailəşdirilməsini qarşısına məqsəd qoyduğundan bu sahənin mütəxəssislərinin təcrübələrini birləşdirməyi, ictimai müzakirələrin genişlənməsini, Azərbaycan – Qarabağ mədəniyyəti üzrə sahəvi ədəbiyyatın nəşrini, müxtəlif təcrübələrin paylaşılmasını dəstəkləmək vacibdir. Bu mənada Qarabağın Zəfərinə həsr olunmuş innovativ-kreativ baxışları əks etdirən vəsaitin çapa hazırlanması, rəqəmsal kitabın kağız və elektron nəşri, vizual-virtual məhsulların hazırlanmasına çalışmalıyıq. Sosial şəbəkələrdə layihəyə həsr olunmuş materialların yerləşdirilməsi, onun fəaliyyətinin genişləndirilməsi vacibdir. Qarabağın elmi-mədəni sərvətləri, turistik potensialı və iqtisadi-kreativ sənayesinə aid təbliğat istiqamətində sosial şəbəkələrdə, saytlarda virtual fəaliyyyətlərin təşkil edilməsi önəmli olardı.

Qarabağdakı Böyük Qələbəyə həsr olunan elmi-kreativ araşdırmaların, başqa materialların hazırlanmasına xüsusi əhəmiyyət verilməlidir. Onların internet resurslarında, elektron kitabxanalarda və sosial şəbəkələrdə elektron variantının yayımlanmasına çalışmaq lazımdır. İnternet resurslarında, elektron məkanlarda və sosial şəbəkələrdə Azərbaycanda – Qarabağda yeni mədəniyyət mühitinin formalaşdırılmasına, yerli kreativ modellərin genişləndirilməsinə yardım edə biləcək onlayn ictimai müzakirələrin təşkili önəmlidir. Qarabağın mədəni-kreativ inkişafına dair ictimai müzakirə, dəyirmi masa və aksiyalar, internetdə kampaniyaların təşkili, onların materiallarının vizual-virtual formada hazırlanması, yayımı əsas məsələlərdən biridir. Qarabağ Zəfərinə həsr olunmuş ədəbiyyatlara aid teledebat və ictimai müzakirənin təşkili, ayrıca bir buraxılış *İnternet TV verilişlərinin*inç*əkilişi, montajı, internet portalları vasitəsi*lə ardıcıl nümayişi gənclərimizin milli ruhda formalaşmasına kömək edəcək. Müxtəlif sosial şəbəkələrdə, o cümlədən Facebook-da ayrıca səhifədə görülən işlərin tanıtımı və təbliği, yeni resursun, silsilə materialların hazırlanması, internetdə yerləşdirilməsi,

sosial şəbəkələrdə innovativ formalarda yayımının və genişləndirilməsinin aparılmasına da xüsusi diqqət ayırmalıyıq. İnternetdə, saytlarda və müxtəlif sosial şəbəkələrdə, TV və radiolarda, KİV-də, mətbuatda, yeni mediada bu istiqamətdə innovativ-kreativ təbliğat işlərinin aparılması, Bakı və bölgələrdə real-virtual tanıtım tədbirlərinin keçirilməsi, PR-aksiyaların, KİV-də mediaaksiyaların təşkili öz aktuallığını itirməyib.

Qarabağsevər Azərbaycan vətəndaşları, məcburi köçkün icmalarının üzvləri, mədəniyyətşünaslar, mədəni turizm, cəmiyyətşünaslar, sosioloqlar, gənclər, tələbələr, jurnalistlər, yazılı və elektron KİV nümayəndələri, bloqer və internet – sosial media, qlobal şəbəkə istifadəçiləri, milli və türk diaspor fəalları bu istiqamətdə əvəzsiz qatqılar verə bilərlər. Real formalarda bu yöndə fəaliyyətlərə cəlb olunacaq şəxslərlə yanaşı, virtual olaraq internet vasitəsilə minlərlə şəxsə təsir edəcək. Azərbaycan cəmiyyətinin Qarabağ bölgəsinin əhalisini, eləcə də virtual alətlər vasitəsilə respublikamızda və dünyada yaşayan soydaşlarımızı əhatələməyi bacarmalıyıq. Bu istiqamətdə faydalananların yaş və cins fərqi müxtəlif olsa da, daha çox yeni nəsil nümayəndələrinə, gənclərə və qadınlara üstünlük vermək lazımdır. Əslən Qarabağdan – Şuşadan olan keçmiş məcburi köçkünlər, eləcə də Qələbəmizlə bağlı internetdəki resursları hazırlayanları həvəsləndirmək lazımdır. Son bir ayda ermənilərin həm sərhəddə, həm də müxtəlif ölkələrdə fəaliyyət göstərən səfirliklərimizdə və diaspor mərkəzlərinin ofisləri qarşısındakı radikal aksiyalarına intellektual cavabımız olmalıdır...

**Məhəmməd NƏRİMANOĞLU**
*Tədqiqatçı jurnalist*

# VƏTƏN MÜHARİBƏSİNİN ZƏFƏR SALNAMƏSİ
## Milli ruhun, milli ləyaqətin təntənəsi

**Birlik həm də dirilik deməkdir! Bunu xalqımız 2020-ci ilin payızında şanlı Qələbənin sevincini yaşayarkən yenidən dünyaya nümayiş etdirdi: təcavüzkar Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı, bütün təbii resurslarını, dini, mədəni abidələrini vəhşicəsinə talan və təhqir etdiyi tarixi Azərbaycan ərazilərini cəmi 44 günlük Vətən müharibəsi ilə azad etməklə.**

27 sentyabr 2020-ci il! – Ermənistanın növbəti genişmiqyaslı təcavüzünə qarşı Azərbaycan xalqının və ordumuzun monolit birlik göstərdiyi tarix! Cəmi 44 gündən sonra isə xalqımızın erməni faşizmi üzərindəki möhtəşəm Qələbəsi tarixə yazıldı.

27 sentyabr eyni zamanda Azərbaycan torpaqlarının işğaldan azad edilməsi zamanı qəhrəmanlıq göstərən şəhidlərimizin əziz xatirəsinin anım günü kimi də yaddaşlara həkk edildi. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bununla əlaqədar 27 sentyabr 2021-ci il tarixdə xalqımıza müraciət edərək bir daha Ermənistanın təcavüzkar siyasətinin ifşası ilə yanaşı, xalq-ordu birliyi və hərbi-diplomatik siyasətin nəticəsinin nəyə qadir olduğunu dünyaya bəyan etdi: "Əziz həmvətənlər! Düz bir il bundan əvvəl Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək bizim döyüş mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutmuşdu. Bu namərd atəş nəticəsində mülki şəxslər, hərbçilər ilk saatlarda həlak olmuşdur. Mənim əmrimlə Azərbaycan Ordusu bu qanlı cinayətə cavab olaraq genişmiqyaslı əks-hücum əməliyyatlarına başlamış və 44 gün davam edən İkinci Qarabağ müharibəsində tam qələbə qazanmışdır..."

Müzəffər Ali Baş Komandanın xüsusi vurğuladığı kimi, bu Qələbə tarixdə əbədi qalacaq! Ona görə ki, 44 gün ərzində Azərbaycan Silahlı Qüvvələri düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa

etdi: “Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq. Və belə də oldu: biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq: güc topladıq. Bütün gücləri səfərbər etdik. Ordumuzu gücləndirdik. Ölkə iqtisadiyyatını gücləndirdik. Ölkəmizin nüfuzunu qaldırdıq. Və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Və bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır! Və bundan sonra biz müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq...”

Bu, həmin düşmən idi ki, 30 il ərzində xalqımıza meydan oxuyurdu, onun şərəf və ləyaqətini tapdalamağa çalışırdı. Lakin haqq və ədalət qalib gəldi: azğınlaşmış, harınlamış, quduzlaşmış düşmən xalqımızla ordumuzun birliyindən yaranmış “Dəmir yumruq” qarşısında diz çökdü, ağ bayraq qaldırdı – təslim oldu! Məcbur oldu ki, 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın! Məhz bunun nəticəsində  Ağdam, Kəlbəcər və Laçın rayonlarının yüzlərlə yaşayış məntəqəsi bir güllə atmadan, şəhid vermədən geri qaytarıldı və beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda gedən müharibədə şərəflə döyüşüb, qəhrəmancasına şəhid olanların ailələri də Ali Baş Komandanın bu səfərlərini sevincdən axan göz yaşları ilə qarşıladı. Çünki o torpaqlarda Vətən oğullarının yerdə qalmayan qanı axıb! Bu yolda qazi kimi geri dönənlərin Zəfər paradına qatılması da ayrı bir qürurverici hisslər yaşatdı onlarda...

Tarixi Azərbaycan əraziləri olan Qarabağın Ermənistan, onun havadarlarının hərbi dəstəyi ilə işğala məriz qaldığı 30 ilə yaxın müddət xalqımızın qəlbində yaraya çevrilsə də, qaysaq bağlamadı. Gec-tez o torpaqların işğaldan azad ediləcəyinə inam xalq və hakimiyyətin, eləcə də şanlı ordumuzun, onun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin hərbi-diplomatik siyasəti “Dəmir yumruq”a çevrilərək 44 günlük Vətən müharibəsində Zəfər tarixi yazdı. 27 sentyabr 2020-ci il

tarixindən başlayan Vətən müharibəsinin, demək olar ki, hər gününü zəfərlə başa vuran müzəffər ordumuz xalqımıza şərəfli, xoş günlər yaşatdı. O müjdələri xalqa çatdıran isə rəşadətli ordumuzun Ali Baş Komandanı İlham Əliyev idi.

Azərbaycan dünyada qalib dövlət kimi söz sahibidir. Döyüşlər Azərbaycana inam, birlik, qalibiyyət gətirdi. Ali Baş Komandanın özü demiş: "…Bəs hanı güclü Ermənistan ordusu? Bəs hanı sənin dostların, sənin güclü lobbin? Bəs hanı sənin informasiya gücün?! Ədalətli mübarizədə, döyüşdə Allahımız bizə yar oldu, xalqımızın birliyi bizə kömək etdi, ordumuzun gücü, şəhidlərimizin qanı bizə qüvvət verdi…"

Azərbaycan xalqı 200 ildən sonra qələbənin dadını duydu. 30 ilin utancından qurtardıq. Bu sürətli, göz qırpımında baş verən Qələbə uzunmüddətli hazırlıq, ağıllı və cəsarətli qərar nəticəsində baş verdi və bütün dünyanın üzünü Azərbaycana çevirdi. Bütün dünya Türkün böyüklüyünə, azərbaycanlıların mərdliyinə və rəşadətinə şahid oldu. Azərbaycan XXI əsrin müharibə kitabını yazdı. Bu kitabın müəllifi isə böyük insan, cəsarətli Sərkərdə İlham Heydər oğlu Əliyevdir!

Müharibənin başlanğıcı hesab edilən aprel və iyul döyüşləri zamanı dövlətimizin başçısı tam əminliklə bildirirdi ki, istənilən yolla Azərbaycanın suverenliyi, ərazi bütövlüyü bərpa ediləcək. Dedi və etdi! Budur, Zəfərimiz xüsusi təmtəraqla, həm də Qarabağda, Şuşada, illərlə erməni vandalizminin qurbanına çevrilmiş, 8 noyabrdan isə azad edilmiş tarixi Azərbaycan ərazilərində qeyd edilməkdədir. Şuşa nəinki azad edildi, həm də Qarabağda düşmən üzərində tarixi Zəfərimizin bayrağı qaldırılan Qala mədəniyyət paytaxtı, musiqi festivalları şəhəri kimi yeni növrağına qovuşdu...

Bütün bunlar Zəfər tariximizin ayrı-ayrı səhifələrinə qızıl hərflərlə yazıldı. Yuxarda qeyd etdiyimiz kimi, müharibə və postmüharibə dövründə bütövlükdə xalqımız, ordumuz, eləcə də vətəndaş cəmiyyəti birliyinin şahidinə çevrildik. Həmin qanlı-qadalı, lakin qələbə müjdəli günlərdə müxtəlif QHT-lər də öz missiyalarını Zəfərə yönəltmişdilər. Bu kitabın müəllifi də öz üzərinə düşən nəinki jurnalistlik, peşəkarlıq, eyni zamanda vətəndaş cəmiyyətinin təmsilçilərindən biri kimi şərəfli missiyanın daşıyıcısına çevrildi. Bu, ön cəbhəyə mənəvi dəstəklə

yanaşı, şəhid və qazi ailələrinin ziyarəti  ilə də özünü göstərdi.

Qarşımdakı əlyazmalardan da görünür ki, filologiya üzrə fəlsəfə doktoru Cəmilə İsbəndiyarova (Cəmilə Çiçək) döyüşlərdə iştirak edərək Vətən torpaqlarını təcavüzkarlardan qəhrəmancasına azad edərkən şəhidlik zirvəsinə ucalan igidlərin ailələrini ziyarət etməklə öz işini bitmiş hesab etməyib. O, şəhid atasına, qardaş və bacılarına təsəlli verməklə yanaşı, gözüyaşlı anaların dərdinə şərik çıxıb. Onlara qoşulub göz yaşları axıtmaqla bərabər, acılı-şirinli xatirələrin toplanıb gələcək nəsillərə çatdırılmasını da unutmayıb. Mən kitabda qısa, lakin şərəfli ömür yolu keçərək Vətənin ərazi bütövlüyü, tarixi Azərbaycan torpaqlarını erməni vandallarından azad edərkən şəhidlik zirvəsini fəth edən igidlərimizin vətənpərvərlikləri, milli-mənəvi dəyərlərimizə sevgisinin şahidinə çevrildim. Bu, həm də müəllifin Vətən, torpaq, doğma Azərbaycan sevdası deməkdir.

Şəhid və qazilərimizin ailələri dövlət və hökumətimiz tərəfindən, xüsusən də Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğıları ilə əhatə olunublar. Təbii ki, şəhid ailələrinin sosial müdafiəsinin təşkili dövlət siyasətinin tərkib hissəsidir. Bununla yanaşı, xalqımızla vətəndaş cəmiyyəti də bu istiqamətdə özünün müəyyən missiya daşıdığını unutmur. Bu mənada Cəmilə Çiçəyin “Qarabağ: Qələbəmizin kreativ tarixi” kitabını ərsəyə gətirməsi də şəhid ailələrinə mənəvi dəstəyin bir forması kimi təqdirəlayiqdir. Kitabda şəhidlərimizin Vətənə sevgisi, cəmiyyətə örnək olması, ailədə, məktəbdə, ictimaiyyətdə tutduğu möve bir-birindən zəngin faktlarla öz əksini tapıb.

Əlbəttə, şəhidlərimiz haqqında yazmaq şərəfli borcdur. Qələmin gücü, fitri istedad və zəhmətə qatlaşmaqla bu ağır və məsuliyyətli işin öhdəsindən gəlmək olar. Hər şəhid ailəsinin ünvanına yollanmaq, onların qaysaq bağlamayan yaralarını sızıldatmaq və göz yaşları ilə söylənilənləri qələmə alamaq heç də asan deyil. Bu baxımdan müəllifin nələr yaşadığını hiss etməmək günah olardı.

Bu kitab ilk növbədə şəhid ailələrinə mənəvi dəstəkdirsə, həm də gənc nəslin vətənpərvərlik və milli hisslərlə tərbiyəsində mühüm vasitə kimi də olduqca dəyərlidir.

**Əziz ƏLƏKBƏRLİ**
*Milli Məclisin deputatı, AMEA Folklor İnstitutunun*
*Dədə Qorqud şöbəsinin aparıcı elmi işçisi,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# FOLKLORDAN KEÇƏN ZƏFƏR YOLU

**Açar sözlər:** kommunikasiya, kodlaşdırma mexanizmi, informasiya, Vətən müharibəsi, "Məlik Məmmədin nağılı".

## SUMMARY
## THE WAY OF VICTORY THROUGH FOLKLORE

Research approves that folklore is not only the art of verbal but also it is a single system of mythological, religious, moral and other ideas and norms. Folklore is also a way of communication between man and the world, a system of connections, a coding mechanism. In other words, folklore is not only a unique historical memory of this or that ethnos but also a transmitter of information about future events. And this system, this mechanism is controlled by a whole set of codes, passwords and symbols.

The information hidden in our centuries-old tales about the Patriotic War waged by Azerbaijan for 44 days in September-November 2020 proves it once again. The article identifies sixteen such pieces of information about the 44-day Patriotic War in Azerbaijani fairy tales, especially in "Malik Mammad's Tale".

It has been shown that the number of these pieces of information is sixteen, which is itself another coded information.

**Key words:** communication, a coding mechanism, information, Patriotic War, "Malik Mammad's Tale".

## РЕЗЮМЕ
## ПУТЬ ПОБЕДЫ ЧЕРЕЗ ФОЛЬКЛОР

Исследования доказывают, что фольклор представляет собой не только искусство речи, но и единую систему мифологических, религиозных, нравственных и других представлений и норм. Фольклор также является средством коммуникации человека с миром, системой связей, механизмом кодирования. Иными словами, фольклор является не только уникальной исторической памятью о том или ином этносе, но и передатчиком информации о грядущих событиях. И эта система, этот механизм управляется целым набором кодов, паролей, символов.

Скрытая в наших многовековых сказках информация об Отечественной войне, которую Азербайджан вел в течение 44 дней в сентябре-ноябре 2020 года, лишний раз доказывает это. В статье выявлено шестнадцать таких сведений о 44-дневной Отечественной войне в азербайджанских сказках, особенно в "Сказке Малика Мамеда".

Тот факт, что количество этих фрагментов информации равно шестнадцати, сам по себе закодирован.

Ключевые слова: коммуникация, механизм кодировании, информация, Отечественная война, "Сказка Малика Мамеда".

Beş yüz ilə yaxındır ki, dünya Mişel Nostradamusun, başqa öncəgörücülərin öncəgörmələrinin sirri üzərində baş sındırır.

Dini kitablardakı bəzi tezislərin dünya elmini yüzillər, minillər qabaqlaması da alimlərin heyrətinə səbəb olmaqdadır.

Eyni fikri dünya ədəbiyyatının bir sıra dahilərinin yaradıcılığına da şamil edə bilərik.

Bir çox fantastik yazıçıların əsərlərində gələcək elmi ixtira və kəşflərin əlli il, yüz il öncədən "tətbiqini" də az görməmişik.

Belə misalların sayını istənilən qədər artırmaq olar. Bütün bunlar nədir? Bəşəriyyətin və dünyanın gələcəyi haqqında müəyyən

fövqəlqüvvələr (kosmos) tərəfindən insanlara bu və ya digər məqsədlə ötürülən informasiyalar, yoxsa insan şüurunun fövqəlgücü?! Bəlkə heç tarixi inkişaf birxətli yox, dairəvi gedir, biz tarixin dərinliklərinə endikcə bu gün getməkdə olduğumuz yolun qarşısına çıxmış oluruq?! Tarixin dərinliklərinə daha çox enib, getməkdə olduğumuz gələcəyin sərhədini qarşı tərəfdən keçəndə isə bizim üçün gələcək olan informasiyalara çatırıq?! Bəlkə buradan qaynaqlanır öncəgörmələr?!

Bütün bunlar dünyanın insanlara bəlli olmayan və ya bəlli olmasına icazə verilməyən sirləri sırasındadır.

Lakin nədənsə bugünədək belə "öncəgörmələri" folklor dünyasında axtarmaq heç kəsin ağlına gəlməyib. Halbuki insanın bütün tarixi-mədəni təcrübəsinin "yükləndiyi" folklorbu məsələdə daha çox informasiya yükünə malik olmalıdır və malikdir. Bəlkə "ağıllarına gəlməyib" deməyək, bu sirrə "ağıllarının qapısı kilidlənib" deyək?! Bəlkə bu özü də bir "sirri-Xudadır", nağıllarımızda adi insanlar üçün açılmasına həmişə qadağa qoyulmuş "qırxıncı otaq"dır?! Lakin bu gün şüurum mənə bu barədə danışmağı və bu barədə yazmağı diktə edirsə, belə hesab edirəm ki, həmin "qırxıncı otağın" açılması icazəsi artıq mənə verilmişdir.

Əvvəl oradan başlayaq ki, folklor nədir və niyə dünyanın gələcəyi və gələcək hadisələri barədə onda daha çox informasiya gizlənə bilər.

Biz alimlər, folklorşünaslar, fikir adamları bu günə qədər daha çox bütövlükdə folklorun, yaxud müxtəlif folklor mətnlərinin, onlardakı hadisə, obraz və ayrı-ayrı elementlərin estetik funksiyalarından bəhs etmişik və edirik, lakin unutmaq lazım deyil ki, folklor ən qədim zamanlardan bu günə qədər insan cəmiyyətinin yaratmış olduğu mənəvi dəyərlər sistemidir, ümumi şəkildə desək, qeyri-maddi irsdir, deməli, insanın gördüyü, eşitdiyi, etdiyi hər bir şeydir və ilk növbədə tarixi təcrübənin toplumudur. Başqa sözlə, insan gördüyü, eşitdiyi, etdiyi hər şeyi yaddaşına köçürür, orada "emal" edir və bu və ya digər formada, bu və ya digər üsullarla gələcək nəsillərə ötürür.

Bu o deməkdir ki, folklor təkcə şifahi söz sənəti deyil, şifahi nitqlə

ifadə olunmaqdan və söz sənəti olmaqdan əlavə, həm də məşhur bolqar folklorşünas-etnoqrafı, professor T.İ.Jivkov demişkən, "folklor mifoloji, dini, əxlaqi və digər təsəvvür və normaların vahid sistemini, bütövlükdə götürdükdə, etnosun özünəməxsus tarixi yaddaşını, onun təbiətə və cəmiyyətə münasibətini, əxlaqi prinsiplərini, dünyaya baxışını ehtiva edir..." [1, 56].

Bundan əlavə, nəzərə almaq lazımdır ki, folklor həm də insanla dünya arasında kommunikasiya vasitəsi, əlaqələr sistemi, kodlaşdırma mexanizmidir. Və bu sistem, bu mexanizm bütöv bir kodlar, şifrələr, işarələrlə idarə olunur. Başqa bir görkəmli alim, akademik V.N.Toporov bu sistemin strukturundan danışarkən qeyd edir ki, arxaik şüurda dünyanın təsvir olunması üçün vahidləri kosmosun əsas elementləri olan müəyyən əlifba mövcuddur [2, 60-61].

Dünya folklorşünaslığının korifeylərindən olan V.Y.Propp isə folklorun bir çox sirlərini açmaq üçün mövcud tədqiqat metodlarının yetərli olmadığını dərk edərək folklor mətnlərinin araşdırılmasında yeni tədqiqat üsulları axtarırdı. V.Y.Proppun bu axtarışlarını diqqətlə təhlil edən digər görkəmli folklorşünas B.N.Putilov belə qərara gəlir ki, bu və ya digər folklor süjetinin və ya motivinin (bəzən də janrının) sirrini açmaq üçün, birincisi, onun özəyində yerləşən etnoqrafik substratı tapmaq, ikincisi, onunla bağlı təsəvvürlər sistemini aydınlaşdırmaq, üçüncüsü isə bu substratın folklor faktına çevrilməsinin qanunauyğun və ardıcıl yolunu izləmək lazımdır [3, 10]. V.Y.Propp da elə bu yolla getmiş, dünya xalqları folklorundakı saysız-hesabsız müəmmaları açmağa nail olmuşdu.

Bir folklor tədqiqatçısı kimi güclü tarixilik hissinə malik olan V.Y.Propp folklorun gerçəkliyə münasibətini təhlil edərkən belə qərara gəlir ki, "folklor gerçəklikdən törəyir. Hətta folklorun ən fantastik obrazlarının da real gerçəklikdə kökü var" [4, 115].

Bütün bu deyilənlər hamısı folklorda təkcə keçmişin yox, bütün zamanların kifayət qədər şifrələnmiş informasiyaları olduğunu söyləməyə əsas verir. Bu, başqa düşüncə sahələrinə nisbətdə folklorun

gələcəkdən xəbər vermək şansının daha çox olması fikrini də təsdiq edir.

Onda sual ortaya çıxır, folklorun belə bir informasiya gücü varsa, necə ola bilər ki, tariximizin və taleyimizin son 270 ildə ən möhtəşəm hadisəsi olan 44 günlük Vətən müharibəsi barədə onda bu və ya digər şəkildə informasiya olmamış olsun?! Üstəlik, nəzərə alsaq ki, Azərbaycan xalqı dünya xalqları işərisində ən zəngin folklor irsinə malik xalqlardan biridir, onda xalqımızın tərcümeyi-halındakı 44 günlük Vətən müharibəsi kimi önəmli bir tarixi hadisənin folklorumuzun "informasiya səbəti"ndə yer alması qaçılmazdır.

Beləliklə, keçək mətləbə.

**Birinci işarə**

Folklorumuzda nağıl obrazlarının geniş yayılmış titullarından biri "məlik" tituludur. Tarixən "məlik" Azərbaycanda vilayətlərə tabe olan mahalların başçılarına verilən ünvan olub. Həmin mahallar isə "məliyin idarə etdiyi inzibati ərazi" anlamında "məliklik" adlandırılıb və "xanlıq", "xaqanlıq-kağanlıq", "şahlıq", "sultanlıq", "bəylik" kimi titullarla sinonim təşkil edib. O cümlədən Azərbaycan tarixindəki alban-türk şahzadələri də belə adlanıb və bu ənənə Azərbaycanda Elxanlıların İslamı qəbul etməsinə (Qazan xana) qədər davam edib. Albanlar isə xristian olduqları üçün sonralar bu ənənəyə uyğun olaraq Qarabağdakı qeyri-müsəlman bəylər "məlik" titulunu, onların idarəçiliyindəki ərazi isə "məliklik" adını saxlayıb. Həmin xristian alban-türk əhali müəyyən tarixi səbəblərdən XVIII-XIX yüzillərdə erməniləşdirildiyindən "məlik titulu erməni knyazlarına verilən addır" kimi yanlış fikir formalaşıb. Buna nəzərən Qarabağ ərazisindəki xəmsə – beş məliklik də səhvən tarixən erməni məlikləri hesab olunub. Təsadüfi deyil ki, nağıllarımızdakı Məlik Məmməd, Məlik Əhməd, Məlik Əjdər və bu kimi obraz-qəhrəmanların ermənilərlə heç bir əlaqəsi yoxdur, ola da bilməz, zatən XIX yüzilə qədər Qarabağda erməni yaşamayıb.

Amma burada bir vacib məqam nəzərdən qaçırılmamalıdır: alban

xristianlığı (alban xristian kilsəsi) və "məlikliklər" 1836-cı ilə qədər öz mövcudluğunu məhz Qarabağ ərazisində saxladığından biz bu titul sahibi olan folklor obrazlarının fəaliyyət dairəsinin məhz Qarabağ coğrafiyası ilə bağlı olduğunu iddia edə bilərik. Məsələn, cəsarətlə deyə bilərik ki, "Məlik Məmmədin nağılı"nda qəhrəmanın "məlik" titulu daşıması ilə bu və bu kimi mətnlərdə hadisələrin Qarabağ ərazisində cərəyan etməsinə işarə olunur.

**İkinci işarə**

Nağıllarımızda (o cümlədən qismən də "Məlik Məmmədin nağılı"nda) əsas motiv (hədəf) "qızıl alma"nın əldə edilməsidir. Dünya folklorunda geniş yayılmış "qızıl alma" motivi, məsələn, yunan mifologiyasındakı "nifaq alması" deyil, Türkün inanc sistemində "qızıl alma" "cahan hakimiyyətinin simvolu" kimi başa düşülür ki, mövcud turançılıq fəlsəfəsini həmin inanc sisteminin ekvivalenti hesab etmək olar. Deməli, bu gün üçün Türk dünyasının birliyinə açılan yol "qızıl alma"nın əldə edilməsindən keçir. Qarabağ problemi Türk dünyası birliyinə açılan yolu əngəlləyən maneə idi və "qızıl alma"ya gedən yolun açılması bu maneənin aradan qaldırılmasını tələb edirdi. Elə də oldu, 44 günlük müharibədə qazanılmış Zəfərdən sonra yüz il əvvəl Türk dünyasını ayıran yolların birləşməsi imkanı yarandı və Zəngəzur dəhlizinin açılması məsələsi 10 noyabr Bəyannaməsinə möhür kimi vuruldu.

**Üçüncü işarə**

Bəs bu "alma"nın arxasınca kim getməlidir? Yəni Qarabağ probleminin həllini kim bacara bilərdi? Folklor təfəkkürü bu insanın sıradan biri olmasını qəbul etmir, o, mütləq şahzadə (şah/hökmdar oğlu) olmalı idi və Məlik Məmməd şahzadə idi. Son 30 ildə Azərbaycanda hakimiyyətdə bir neçə dövlət başçısı olub, lakin Prezident İlham Əliyevə qədər heç biri şahzadə olmayıb. Deməli, Prezident İlham Əliyevə qədər heç bir dövlət başçısı Qarabağ problemini həll edə bilməzdi. Folklor

informasiyası İlham Əliyevi nişan verir.

**Dördüncü işarə**

Folklorda Şahzadə həm almanın, həm də Divin arxasınca gedəndə Şah atasının icazəsini alaraq gedir. Prezident İlham Əliyevin 44 günlük müharibənin taleyini həll edən Şuşa qələbəsindən sonra "Ata vəsiyyətini yerinə yetirməsi" barədəki açıqlaması müvafiq folklor informasiyasını təsdiq edir.

**Beşinci işarə**

Məlik Məmmədin "qızıl alma"nı əldə etmək (Qarabağ problemini həll etmək) cəhdi ilk cəhd deyil, ona qədər iki dəfə belə cəhd edilir, lakin bu, baş tutmur. Məlik Məmmədin cəhdi üçüncü cəhddir. Doğrudan da, 1992-1994-cü illərdə Qarabağı düşməndən azad etmək üçün iki dəfə cəhd edilir – birinci dəfə 1992-1993-cü illərdə Elçibəy hakimiyyəti dövründə, ikinci dəfə Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra, 1993-1994-cü illərdə. Lakin hər iki dəfədə mövcud vəziyyətdə torpaqları işğaldan azad etmək mümkün olmur. Üçüncü cəhdi 2020-ci ildə Prezident İlham Əliyev edir və prosesi Zəfərlə başa çatdırır.

**Altıncı işarə**

Nağıllarımızda qəhrəmanı "qızıl alma"ya aparan yolda mütləq "qardaş xəyanəti" motivi yer alır. Bu, "Məlik Məmmədin nağılı"nda qardaşlarının Məlik Məmmədin kəndirini kəsməsi şəklində təsvir olunub. Həm Birinci, həm də İkinci Qarabağ müharibələrində torpaqlarımızın işğaldan azad edilməsi yolunda öz millətimizdən olan bəzi xəyanətkarların "xəyanəti"ni az görmədik. Lakin bunların heç biri qəhrəmanı dayandıra və prosesin Zəfərlə başa çatmasının qarşısını ala bilmədi.

**Yeddinci işarə**

Folklorumuzda Qarabağ problemi şərin, qara qüvvələrin təmsilçisi

kimi Div, Əjdaha obrazları ilə simvollaşıb. Div qırxıncı otaqda əyləşib və başını bir dünya gözəlinin dizi üstə qoyub yatıb. Biz onun nə qədər yatdığını bilmirik, amma, yəqin, 30 il beləcə yatıb. Dünya gözəlinin simvolizə etdiyi Qarabağ isə bu Divin əsiridir, oturub öz xilaskarını gözləyir.

**Səkkizinci işarə**

Divin yatdığı quyuya düşmək istəyən qardaşlar yolun yarısındaca "yandım, yandım" deyib iddialarından geri dururlar, quyuya enməyə cəsarət etmirlər. Yalnız folklor qəhrəmanı yanmaqdan qorxmayaraq quyuya enir. Doğrudan da, Qarabağ problemi son dərəcə çətin bir problem idi, onun həllinə girişmək böyük risk tələb edirdi və bu işin arxasında sözün hər mənasında "yanmaq" var idi. Əsas bu "yanmaq"dan qorxmamaq idi ki, bunun üçün də İlham Əliyev cəsarəti lazım idi.

**Doqquzuncu işarə**

Nağıllarımızda, adətən, qəhrəman otuz doqquz otaqdan keçib, qırxıncı otağa daxil olur və Divi qırxıncı otaqda yaxalayır. Qırxıncı otağa aparan bu yol birxətli yoldur, çünki otaqdan-otağa keçir, çətin yoldur, çünki maneələrlə müşayiət olunur, şərəfli yoldur, çünki hədəfə aparan yoldur. Bu, Zəfər yoludur!

**Onuncu işarə**

Qəhrəman qırxıncı otağa daxil olandan sonra onun üçün ən çətin döyüş başlayır – Divlə əlbəyaxa döyüş! Azərbaycan Ordusunun qəhrəman əsgərləri qırxıncı otağı – Şuşa şəhərini məhz əlbəyaxa döyüşlə aldılar.

**On birinci işarə**

Qəhrəman üçün burada aydın olur ki, Divin (Qarabağ probleminin) canı şüşədədir (Şuşanın da əsl adı Şüşədir!). Demək, Divin canını almaq üçün otuz doqquz otağı keçib, qırxıncı otağa – Şuşaya daxil olmaq lazım

imiş. Və qəhrəman şüşəni sındırıb (Şuşa qalasını fəth edib!) şüşənin içindəki quşun başını üzür. Bununla da Div şaqqıltı, gurultu ilə yıxılıb ölür (Qarabağ problemi həll olunur).

**On ikinci işarə**

Folklor mətnində şüşənin içindən çıxan quş erməniləri simvolizə edir. Əlbəttə, şüşənin içindən quş yox, başqa canlı da çıxa bilərdi, lakin folklor düşüncəsində təsadüfi heç nə yoxdur, burada quş – gerbində təkbaşlı quş həkk olunan erməniləri, dünya erməniliyini və bu müharibədə onlara havadarlıq edən, gerbində ikibaşlı quş həkk olunmuş Rusiyanı simvolizə edir.

**On üçüncü işarə**

Qəhrəman qırxıncı otağa qədər uzun bir yol keçir, qırx otaq qırx gün deməkdir, demək, Zəfər yolu qırx günə keçilməli, Azərbaycan əsgəri qırxıncı gün Şuşanı (qırxıncı otağı) fəth etməliydi. Onda bəs niyə müharibə qırx gün yox, qırx dörd gün çəkdi? Lakin burada nəzərə alınmalıdır ki, Şuşa şəhəri noyabrın 10-da yox, 8-də azad olundu, amma bu, yenə də 42 gün edir. Halbuki folklor informasiyasına görə, bu, qırx gün olmalı idi. Əlbəttə, folklor informasiyası yanıla bilməz və biz iddia etməyə məcburuq ki, qəhrəman Azərbaycan əsgəri Şuşa qalasına (qırxıncı otağa) noyabrın 8-də yox, məhz noyabrın 6-da daxil olub, görünür, şəhərdə bir gün düşmənlə əlbəyaxa döyüş gedib və noyabrın 8-də Şuşa şəhərinin azad olunması başa çatıb. Mən bilmirəm, bu, belə olub, yəni Azərbaycan əsgəri Şuşaya ayın 6-da girib, ya yox, amma folklor informasiyası belə olduğunu iddia edir və biz bununla razılaşmağa məcburuq.

**On dördüncü işarə**

Lakin məsələ Divin öldürülməsi ilə bitmir, qəhrəman geri dönəndə yolda çayın qabağını kəsib insanları susuz qoyan Əjdahanı da öldürməli olur. Həm də o Əjdahanı ki, su əvəzində insanlardan hər gün şəhərin

bir gözəl qızını alıb yeyir. Burada da işğal altında olan ərazilərdəki çayların, su anbarlarının qarşısının illər boyu düşmən tərəfindən kəsilməsi, Qarabağın gözəl təbiətinin ermənilər tərəfindən məhv edilməsi simvolizə olunur. Folklor qəhrəmanı bu Əjdahanı qılıncı ilə iki parça edərək insanları və Qarabağın gözəl təbiətini bu bəladan qurtarır.

**On beşinci işarə**

Daha sonra Vətənə dönən qəhrəman bu çətin yolda (44 günlük Vətən müharibəsində) Vətənə xəyanət edən "qardaşlarını" cəzalandırır ki, bu da "Birinci və İkinci Qarabağ müharibələrində Vətənə xəyanət edənlərə aman olmamalıdır" anlamına gəlir.

**On altıncı işarə**

Nağılın sonunda mətnin qəhrəmanı Divin əsarətindən xilas etdiyi gözəlinə (gözəl Qarabağa!) qovuşur və xalq bayram edir...

**P.S.** Folklor düşüncəmizdə Vətən müharibəsi ilə bağlı 16 işarənin mövcudluğunun özü də bir işarədir. Çünki Zəfərə aparan yolumuz məhz 2016-cı ilin Aprel döyüşlərindən başladı.

## ƏDƏBİYYAT:


1. Живков Т.И. Фолклористика литературознание - БФ. 1980. Кн.3, 175 с.
2. Топоров В.Н. О структуре некоторых архаических текстов, соотносимых с концепцией "мирового дерева" // Труды по знаковым системам (сб. ст.). Вып. 5. Тарту: 1971, с. 9-62
3. Путилов Б.Н. Предисловие // **В.Я.Пропп. Фольклор и действительность (Изб. ст.). Москва: Наука, 1976**, с. 7-15
4. **Пропп В.Я. Фольклор и действительность (Изб. ст.). Москва: Наука, 1976**, 327 с.

# VƏTƏN DAŞI OLAN VƏTƏNDAŞ
## Yaxud susan poeziyanın "danışan dili"

*Əsir düşmüş Kəlbəcərin şeirlə xəritəsini çəkən şair-həkim Rasim Abdullayev həm də cəsur komandir kimi xatırlanır*



**Müstəqillik hər kəsin və xalqın haqqıdır. Bu, eyni zamanda insan azadlığı da deməkdir. Bunun dadını insanların əlindən alıb, kölə, qul kimi işlədib əməyini mənimsəyən imperiya cəlladları son anda öz çirkin sifətlərini 20 Yanvar 1990-cı il tarixində xalqımıza göstərdilər.**

**Tarixi torpaqlarımızı əlimizdən zorla, silah gücünə alıb özünün vassalına verərək haylara ərazilərimizdə ikinci bir Ermənistan da qurmağa çalışdı kökündən laxlayan imperiya. 30 ilə yaxın müddətdə xalqımız təhqir olunmuş halda yaşamağa məcbur oldu, nəhayət, müstəqilliyini qanı-canı bahasına bərpa edən xalqımızın cəngavər oğulları bu təhqirə dözməyib, ötən il başda Ali Baş Komandan İlham Əliyev olmaqla, tarixi ərazilərimizi erməni silahlı quldurlarından, işğalçı Ermənistandan azad etmək üçün 44 günlük Vətən müharibəsində özünü oda atdı.**

**Əlbəttə, bu yolda şəhidlik də var idi, qazilik də, qəhrəmanlıq da… Vətənpərvər oğullarımız bu döyüşlərdən kənarda qalmadı. Belə oğullardan biri də haqqında söz açmaq istədiyimiz Rasim həkim idi. Belə oğullar könüllü olaraq cəbhəyə getdilər. Onların məqsədi adam öldürmək deyil, tarixi torpaqlarımızı azad edib, dövlətimizin sərhədlərini bərpa etmək olduğu üçün Tanrı**




**onlara yar oldu. Tariximizin şərəfli səhifəsini yazan Müzəffər Azərbaycan Ordusu cəmi 44 günlük Vətən müharibəsində nəinki qarşısında duruş gətirə bilməyib qaçan satqın, qorxaq erməni dığalarını gəldikləri yerə kimi qovdu, hətta bu döyüşlərdə imperiyaxislətlilərə də öz yerlərini göstərdi.**

Belə oğullardan biri polkovnik-leytenant **Rasim Yaqub oğlu Abdullayevidi** ki, 1975-ci il fevralın 21-də Kəlbəcər rayonunun Milli kəndində dünyaya göz açmışdı. 1982-1992-ci illərdə Kəlbəcər şəhərindəki 1 nömrəli orta məktəbdə, 1992-1998-ci illərdə isə Azərbaycan Tibb Universitetində (ATU) təhsil alıb. 2000-ci ildə könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrinin tibb xidmətində hərbi tibb qulluqçusu vəzifəsinə başlayıb. İlk xidməti 2000-ci ildə Əhmədbəyli hospitalında olub. 2010-cu ildə müdafiə nazirinin müvafiq əmrinə əsasən “Qüsursuz xidmətə görə 3-cü dərəcəli”, 2015-ci ildə isə “Qüsursuz xidmətə görə 2-ci dərəcəli” medalı ilə təltif edilib. 2015-ci ildən 2016-cı ilin sonunadək Gəncədə yerləşən hərbi poliklinikada rəis

vəzifəsində çalışmış Rasim Abdullayev 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan silahlı qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər və Cəbrayıl–Füzuli istiqamətlərində şiddətli döyüşlər zamanı qızğın nöqtələrdə yaralılara yerindəcə tibbi yardım göstərib.

Bu xidmətlərdən sonra 2016-cı ilin sonları, 2017-ci ilin əvvəlləri onun iş yeri dəyişdirilmiş və Rasim Abdullayev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tibb xidməti rəisi vəzifəsinə təyin olunmuşdu. 2020-ci ilin əvvəllərinədək bu vəzifəni yerinə yetirən Rasim Abdullayev Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində tibb bölüyünün komandiri vəzifəsinə təyin olunmuş və Vətən müharibəsi başlayana qədər bu vəzifəni yerinə yetirmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən genişmiqyaslı təxribat törədiləndə cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələri iriçaplı silahlar, minaatanlar və müxtəlif artilleriya qurğularından intensiv atəşə tutulmuşdu. Ermənistan silahlı qüvvələrinin döyüş fəaliyyətinin qarşısını almaq məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin Komandanlığı tərəfindən cəbhəboyu zonada hücum əməliyyatlarının başlaması barədə qərar verilmişdi. Qarabağ münaqişəsinə son qoyan, tarixə Vətən müharibəsi kimi yazılan bu hərbi əməliyyatlar zamanı polkovnik-leytenant Rasim Abdullayev də "N" saylı hərbi hissənin tibb bölüyünün komandiri kimi Hadrut istiqamətində gedən döyüşlərin ən qızğın nöqtələrində qalmış, yaralılara yerindəcə tibbi yardım göstərmiş və şəhid olduğu günə, yəni Vətən müharibəsinin son gününə qədər 100-dən çox yaralıya döyüş meydanındaca tibbi yardım göstərmişdi.

...Rasim Abdullayevə 10 noyabr 2020-ci il tarixində – müharibənin son dəqiqələri, üçtərəfli bəyanat imzalanandan bir az əvvəl Şuşa istiqamətində qalmış yaralıların çıxarılması ilə bağlı

komandanlıq tərəfindən tapşırıq gəlir. Rasim Abdullayev öz istəyi və bu tapşırığa əsasən hərbi tibb maşını ilə Hadrut–Şuşa yoluna çıxır. Xocalı rayonunun Çanaqçı kəndi istiqamətindən Şuşaya doğru irəliləyən sanitar-tibb maşını pusquya düşür. Bu zaman açılan atəşlərdən yaralanan Rasim Abdullayev şəhid olur. İgid komandir Bakıdakı İkinci Şəhidlər xiyabanında torpağa tapşırılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmiş Rasim çox həssas, təvazökar və savadlı hərbçi, istedadlı qələm adamı, təcrübəli, peşəkar həkim, yolda gördüyü qarışqanı belə tapdalamayan kimi tanınmışdı.

**Xatırlama:** Bir gün işdən evə gələndə gördüm ki, xalam Sifai də bizdədir. Hal-əhvaldan sonra dedim:

– Xala, bu gün bir kəlbəcərli həkim görmüşəm,bir gözəl insan! Kəlbəcərin Milli kəndindəndir, ana tərəfimdən bizim-sizin qohumlardan imiş. Adı da Rasimdir. Bizi Ədalət həkim tanış eləyib. Aman, Allahım, belə insan indiyə kimi görməmişdim elə bil. Siması da, qəlbi də, xasiyyəti də elə gözəl... Onunla 5-10 dəqiqə tanış olmuşduq. Amma adama elə gəlirdi ki, illərdir onu tanıyırmışam. Belə istiqanlı gəldi mənə.

Mən Rasim həkimi belə tərifləyəndə xalam əllərini göyə qaldırıb dua elədi:

– Qızım, sənin ki, ürəyin belədir, səni görüm, səni görüm, elə Rasim kimi oğlana qismət olasan. Amin! Bəs elə o, Yeganənin qardaşıdır da. Srağagün Yeganəgilə getmişdim. Axı biz qohum-övladıq, ay bala...

Xalam Rasim kimi insanlara nümunə olan çoxlu müsbət keyfiyyətləri sadaladı. Onu da bildirdi ki, darda olan dostlarını köməksiz qoymazdı.

Daha sonra öyrəndim ki, o, dənizi, dağları, çayları sevən,

ümumilikdə təbiətə bağlı bir insan imiş. Hər zaman döyüş yoldaşlarına təbiət mənzərələrinin gözəlliyindən, bacısı Aybənizin tələbəlik illərindən üzübəri bir ana kimi qayğı bəslədiyindənonun da həyat yoldaşı Adilin ona necə dəstək olduğundan danışarmış.

Rasim ruh insanı idi:incə qəlbli, incəruhlu. Başına gələn hadisələri qəlbindəki duyğulu hisslərlə öz şeirlərində əks etdirirdi. Şeirləri heca vəznində yazırdı...

Belə təsəvvür edilir ki, Rasim həyatda ən sevgi dolu insan olub. Özü deyirmiş ki, qazandığım uğurlara görə qəlbimdəki tükənməz sevgimə borcluyam. Məhz ona bu stimulu verən, ruhlandıran amillərdən biri bu olub. Bacısı deyir ki, özünü daim inkişaf etdirir və elmi kitablar oxuyurdu: "Təkcə öz ixtisası üzrə deyil, başqa-başqa sahələrdə də bacarıqlı idi. Hər zaman dinlə maraqlanan, ümumiyyətlə, Allaha bağlı biri idi. "Qurani-Kərim"in ayələrini və surələrini əzbər bilirdi".

Rasim Abdullayev şeir yazmağı çox sevərdi. Onun müxtəlif mövzuda 200-dən artıq şeiri var. Nümunə üçün bir qoşmasına nəzər salaq:

Bu da yol ayrıcı, bu da son vida…
İndi günəş soyuyacaq, tələsmə!
Ayrılıq gələcək əlində qılınc
Bizi qana boyayacaq, tələsmə!

Bir yer boş qalacaq burada bizsiz,
Arzular, ümidlər itəcək izsiz,
Eşqimiz susacaq səssiz, səmirsiz,
Körpə kimi uyuyacaq, tələsmə!

Həyat məni məngənədə əzdirib,
Ağrıları ürəyimdə gəzdirib,
Çox deyirdin: Fikir məni bezdirib,
İndi gözün quruyacaq, tələsmə!..

Rasim gözlərinə görünməyəcək,
Bu həsrət heç kimlə bölünməyəcək,
Xatirəm beynindən silinməyəcək,
Bir gün səni qınıyacaq, tələsmə!..

**Şəhidin bacısı Aybəniz** dərindən ah çəkib ötənləri xatırlamağa çalışır: "...27 may 1995-ci ildə böyük bacımızın oğlu rəhmətə getdi. O vaxtlar Rasim imtahanlara hazırlaşırdı. Başı biz bacılara qarışdı, mən də unutdum ki, axı Rasimin imtahanları yaxınlaşır. Bir müddət keçdi, gördüm ki, Rasim universitetə getmir. Bir gün dedi ki, bacı, mən iki-üç günlük rayona gedib qayıdacam. Atamgil Samux rayonunda məskunlaşmışdılar. Rasim getdi. Gedib-qayıtmağıon gün çəkdi. Bir gün axşam qapımız döyüldü. Rasimin qrup yoldaşı gəlib çox böyük təşvişlə dedi ki, imtahan başlayıb, Rasim universitetə gəlməsə, müəllimlər onu cəzalandıra bilər. Mütləq deyin ki, sabah universitetdə olsun.

O vaxtlar məcburi köçkünlük həyatı idi: telefon yox, bilmədim nə edim. Yeznəmizi taksi ilə Samuxa göndərib dedim ki, Rasimi təcili Bakıya gətir. Rasim gəldi, gördüm gülür, yaxasından tutub dedim ki, sən hardasan, niyə belə diqqətsizsən?!Bu cür savadlı oğlan, niyə belə edirsən?! Dedi ki, bacı, sakitləş, burda nə var kı? İmtahanlar bir gecənin işidi, öhdəsindən gələcəm, sən narahat olma, əsəbiləşmə...

Həqiqətən də belə oldu. Rasimin belə bir dərsə çalışmaq qaydası vardı: heç vaxt stol arxasında, divanda, kresloda yox, evin bir küncündə oturub dizlərini sinəsinə yığar, bu cür hazırlayardı dərslərini. Həm də uca səslə oxuyardı. O, ucadan oxuduqca sanki mən də onunla bərabər öyrənirdim. O qədər məlahətli səslə, qiraətlə oxuyurdu ki, dərslərini. Soruşurdum:Rasim, dərslərin hazırdımı?!

Cavabı məni sevindirirdi:

– Bəli, bacı, arxayın ola bilərsən. Mən dəsrləri əlli dəfə

oxumuram ki... Bir dəfə baxdım, kifayət edir...

– Yaxşı, gedib rahat yatarsan, – deyirdim. Səhəri gün bu imtahana girəndə müəllimi onu əsəblə qarşılayar, təəssüfünu bildirər.

Rasim bildirər ki, "bacımın oğlu rəhmətə getmişdi, başım çox qarışdı, həm də bu üzdən bir az stresə düşüb özümü toparlaya bilmədim, üzrlü sayın". Müəllim deyir ki, "...yaxşı, səni cəzalandırmıram, ancaq səndən bir xahiş edəcəm. Eşitdiyiməgörə, sənin vətənpərvərliklə bağlı çox gözəl şeirlərin var, istərdim ki, öz rayonunuz Kəlbəcərlə bağlı bir şeir deyəsən".

Evə gəlib dedi:

– Bacı, boynuma belə ağır bir yük qoyublar. Kaş ki məni elə imtahanla cəzalandıraydılar, amma şeirlə yox, çünki mən belə bir vəziyyətdə özümü toplayıb öhdəsindən gələ bilməyəcəm. Dedim:

– Bu, mümkünsüzdü, çalış ki, şeiri yazasan.

İndi Rasim evin içərisində o baş-bu başa gəzir, mən də bunun yanında... Birdən dedi ki, mənə dəftər-qələm. Soruşdum ki, "ağlına gəldi bir şey?" Dedi ki, "hə". O, haradasa yeddi-səkkiz bəndlik "Kəlbəcər" adlı şeir yazdı. Şeir çox gözəl alınmışdı. O şeirdə doğma Kəlbəcərimizdən necə qaçqın düşüb, köçkünlük həyatı yaşadıqsa, işğal ərəfəsində yaşlı insanlarımız, körpə fidanlarımız necə əsir düşmüşdüsə, hamısını orada olduğu kimi yaşayaraq canlandırmışdı.

Rasimin bütün şeirləri məndə vardı. Nədənsə həmin şeirini sonralar tapa bilmədim, yoxa çıxdı. Rasim səhəri gün aparıb şeiri həmin müəllimin stolunun üstünə qoyar. Müəllim şeiri oxuyub həyəcanlanar. Deyər ki, "Əhsən sənə, şeirdə əsir düşmüş Kəlbəcərin lap xəritəsini çəkmisən".

Öz işini çox sevirdi, arzusu Kəlbəcərimizə dönüb fəaliyyətini orada davam etdirmək idi. Təəssüflər olsun ki, arzuları yarımçıq qaldı. Mən bir şəhid bacısı kimi dövlət başçımızdan xahiş edərdim ki, Kəlbəcər rayonunda şəhid qardaşım Rasimə öncə onun layiq

olduğu Milli Qəhrəman adını versinlər. Adının əbədiləşdirilməsi üçün ya bir məktəb, hospital, ya bir şəfaxana adı verələr. Onsuz da o öz əməli ilə sağlığında iz qoyub, sonra da şəhidlik zirvəsinə ucaldı. Rasimin daxilində rəngbərəng – gözəl bir aləm vardı: o, zahirən ciddi biri olsa da, ruhən çox şən idi. Uşaqlauşaq, böyükləböyük idi. Hətta o, uşaqların məsləhətini oturub dinləyər, ondan bir nəticə çıxarardı. Bu o demək deyil ki, o, mənim doğma qardaşım olduğu üçün onu belə qiymətləndirirəm, əsla. Mən Rasimi bir kəlbəcərli qeyrətli, savadlı vətən övladı, həkim, şair və gözəl insan kimi görürdüm.

2015-ci ildə Moskvadan Bakıya yığışmışdıq, qonaqlarımız vardı. Qonaqlarımızdan biri Mamedov Çingiz Mustafa oğlu idi. Mənim həyat yoldaşım Adil Rasimi ona təqdim edib dedi ki, məhz sizin hərbi həkiminizdi. Çingiz müəllim Rasimin ad-soyadını eşidən kimi onunla ikiəlli görüşdü və ona təriflər yağdıraraq dedi ki, mənim Abdullayev Rasim haqqında məlumatım var və bilirəm ki, o, çox istedadlı, savadlı, öz işinin öhdəsindən gələn bir həkimdi. Hətta bunu da qeyd edib dedi ki, mən şadam ki, Azərbaycan bu cür oğullar yetişdirib. Öz ayağının üstündə dayanaraq bilik və bacarığı ilə universitetə daxil olub və bu cür gözəl ziyalılıq mərhələsinə gəlib çatıb.

...Rayonumuz işğal edilərkən kəndlər boşaldılırdı. Kənddən Qəhrəman kişinin avtomobilinə bizim də ailə yığışar, atama yer olmaz. Sonra soraqlaşarkən mənə dedilər ki, Gəncədə “Gülüstan” deyilən bir qərargah var (əvvəllər Azərbaycan Texnologiya Universitetinin yataqxanası olub), Kəlbəcər əhalisinin əksəriyyətini ora gətiriblər, orada məskunlaşdırıblar. Gördüm ki, qarşısında xeyli qadın toplaşıb. Çox gəzib sorub-soruşdurdum. Millinin obiri üz obasından Əminə xalanı tanıdım, dedim ki, mən Yaqubun qızıyam, bilmədiniz, atam gəldimi? Dedilər ki, yox, girov qaldı. Bu sözü eşidən başqa bir qadın dedi:

– Yox, qızım, sənin atanı Murovdağda gördük, bizimlə bərabər

Gəncəyə gəlib, çiynində də belə bir kisə vardı. Elə həmin kisənin üstündə otura-otura, yata-yata gəlib çıxıb Gəncəyə.

Çevrilib atamı bizdən bir az aralıda axtaran Rasimi sevincimdən ucadan çağırdım:

– Rasim, ay Rasim, ay Rasim, atamız sağdı, gəlib çıxıb.

Gəncədə o birisi bacımla ikimiz də sevincimizdən ağlayırdıq, az qalırdıq şad xəbəri verən bu qadının əllərindən öpək. Soruşduq ki, bəs atamız Gəncədə hara getdi, bilmədiniz? Bildirdilər ki, kəndimizdə (qonşuluğumuzda) Qəhrəman adlı bir kişi vardı. Atamgil də onlarla birlikdə Samux rayonunun Qırmızı Samux kəndi var, ora gediblər. Sonra qardaşımla məsləhətləşdik ki, nə edək, neynəyək? İndi də Samuxa getsək, vaxt itəcək, çünki mən iki körpə uşağımı evdə qoyub çıxmışam, Rasim də günlərdi universitetdən, dərsdən qalır. Çünki Rasim universitetdən icazə almamış çıxıb, mənim də körpə uşaqlarım qalıb sahibsiz. Belə qərara gəldik ki, qayıdaq Bakıya.

Dedim:

– Rasim, bir neçə gün sən universitetə get. Sonra bir neçə günlük icazə alıb get Samuxa, atadan xəbər bil.

Belə də oldu. Rasim Gəncəyə, Samuxa, oradan da soraqlaşa-soraqlaşa Qırmızı Samux avtobusunu tapıb minir. Təsadüfən həmin avtobusda mənim kiçik qardaşım Əvəz də olar. İsti ocağından, ev-eşiyindən didərgin düşən, od-alovun içərisindən çıxıb gələrkən sarsıntılar keçirmiş Rasimlə Əvəz bir-birlərini tanımırlar. Əvəz Rasimin qolundakı saata zilləyər gözünü ki, görüm nə vaxta çatar avtobus Qırmızı Samuxa. Qırmızı Samuxa çatanda hər ikisi də dayanacaqda düşər, o an öpüşüb-görüşərlər.

...19 iyul 2019-cu il tarixində Tovuzun Əlibəyli kəndinə qohumumuzgilə yay istirahətinə, dincəlməyə getmişdik. Getdiyimiz evlə sərhədin arası beş yüz metr idi. Hətta əsgərlərin təlimləri eşidilirdi. Süfrəyə yenicə toplaşmışdıq ki, nahar edək, birdən davamlı atəş səsləri eşidildi. Qonşuluqdan möhkəm səs-

küy gəldi, dedilər, bir əsgərimizi sərhəddə vurublar. Qanımız dondu, yemək də yemədik. Rasim getdi təciliyardım maşını gələnə kimi ona yardım elədi...

Mənim qardaşım Rasim bu cür insani keyfiyyətlərə malik bir insan idi..."

**Rasim həkimin bacısı Yeganə** qardaş itkisindən yansa da, onun vətənpərvərliyindən danışmaqdan yorulmur: "...Universitetəyeni qəbul olunmuşdu, yay tətilində Samuxda idi. Ağ rəngi xoşlayardı. Ona görə dəağ rəngli cəmi bir şalvarı, bir ağ köynəyi vardı, ağ ayaqqabı, ağ corab – dəst geyinirdi. Kasıbçılıq həyatı idi, yuyub ütüləmişəm ki, səhəri gün geyinib Bakıya gələcəkdi. Kirvəsi gecə bizi qonaq çağırmışdı, onlarda maraqlı keçdi qonaqlığımız. Gecəyarısı saat ikidə evə qayıdırıq, qaranlıqda göz-gözü görmür.

Rasim dedi:

– Ay Yegiş, burdan bir arx keçir, birdən ayağımız batar, şalvarım pis günə qalar, sabah nə geyinib gedərəm?

Biz də məcburi köçkün kimi klubda müvəqqəti məskunlaşmışdıq. Klubun ətrafı bağdı. Bağın da ağaclarının dibi dərin arxdı. Arxda su o qədər axıb ki, tamam çirkli bataqlığa dönüb. Küləksiz havadı, Rasim kibriti çəkib işıq salıb dedi:

– Yegiş, əvvəl sən keç.

Keçdim. Kibriti təkrar çəkdi ki, özü keçsin.

Dedi:

– Gör ayağımı düz atırammı?

Dedim, hə. Birdən bunun ayağı düşdü çirkli bataqlığa, məni gülmək tutdu. Özü acığından yerindən tərpənmir. Özünü qınayır ki, axı mən niyə ayağımı bataqlığa saldım. Mən də hey gülməkdən uğunub gedirəm. Evə çatan kimi paltarlarını yuyub, şalvar-köynəyini xlorla ağardıb, təmizləyib, ütüləyib səhərə hazırladım, geyinib çıxdı Bakıya..."

Gənclik illərində, daha doğrusu, 21 yaşında olan vaxtlar sevdiyi qıza Rasimin yazdığı sevgi şeirindən yadında qalan bir bəndi söylədi bacısı Yeganə:

Aman, Allah, nə cəzadı: günahsız
Rasim elə yar çağırır yaz-payız.
Sözüm çoxdur, bulaq üstə gəl, ay qız,
Mən gəlməyə anangilə qorxuram.

**Asəf Məmmədov** (***Müdafiə Nazirliyi Mərkəzi Hərbi Poliklinikanın rəisi, tibb xidməti polkovniki***)**:** Rəhmətlik Rasim həkimlə 2015-2018-ci illərdə Gəncə Hərbi Hospitalında birgə xidmət etmişik. Rasim savadlı, işini bilən həkim olmaqla yanaşı, həm də xidmətinə məsuliyyətli, vətənpərvər zabit, eyni zamanda çox gözəl şeirlərində müəllifi idi. Həmişə şair Sücaətdən, Bəhmən Vətənoğludan, Dəmirçi Abbasdan, xüsusən də qoynunda doğulduğu Kəlbəcərə aid şeirləri deməyi çox sevərdi. Bir yerdə olanda söhbətlərimiz ancaq Laçından, Kəlbəcərdən, yurd həsrətindən gedərdi. Onunla həmsöhbət olmaq insana zövq verərdi. Çünki ziyalı şəxsiyyət, böyük insan idi.

Sonuncu dəfə Rasimlə 2020-ci ilin oktyabr ayında Cəbrayılda görüşmüşdük. Ordumuz sürətlə irəliləyir, torpaqlarımız azad olunurdu. Belə günlərin birində Rasimlə görüşməyimizə hər ikimiz həddindən artıq sevindik. Rəhmətliyin üzü yenicə gülürdü. Tezliklə Laçında, Şuşada, Kəlbəcərdə görüşmək arzusu ilə sağollaşdıq. Şəhid olduğunu Qubadlıda olanda eşitdim. Eşidənlər, onu yaxından tanıyanlar çox sarsıldı. İtiriləsi oğul deyildi. Çox heyif. Amma ən yüksək məqama yüksəlib. Ruhu şaddır indi. Çünki, əziz dostum Rasim, canından çox sevdiyin Vətənin, Qarabağımız, o cümlədən doğma yurdun Kəlbəcər, doğulduğun Milli kəndi azaddır!

**Ədalət Yusifov** ***(ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı, həkim-cərrah):*** Mənim üçün Rasim Abdullayev haqqında danışmaq, yazmaq çox ağırdır. Çünki onun yoxluğunu əzizləri qədər mən də qəbul etmirəm. O, hər an, hər vaxt bizimlədir,

sanki söhbətləşirik, fikir mübadiləsi edirik. Mənə yenə hörmət mənasında "xocam" deyə nəyisə soruşur.

2002-ci ildə Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasında tibbi hissə üzrə müavin vəzifəsində xidmət edərkən poliklinikanın terapiya bölməsinin ordinatoru vəzifəsinə cəbhə bölgəsinə on zabit təyin olunmuşdu. "Beşdəqiqəlik"də Rasim həkim özünü şəxsi heyətə təqdim etdi, qısaca özü barədə məlumat verdi. Çox əzəmətli, bir az qaşqabaqlı, qaşları çatılmş, lakin şirin danışıqlı idi, aram-aram danışır, fikrinin dinlənilməsini gözləyirdi...

Kəlbəcərin Milli kəndindən olduğunu söylədi. Sonralar uzun müddət birgə xidmət etdik. Terapiya bölməsinin rəisi vəzifəsinə təyin olundu, rütbəsi polkovnik-leytenanta kimi yüksəldi. Xatirəmdə çox savadlı, vətənini sevən, Kəlbəcər üçün qəlbi yanan bir şəxs kimi qaldı. Mən Rasimi ucaboylu gördüyüm üçün onu sanki Kəlbəcər hesab edirdim: yurdu kimi əzəmətli. Bütün kəlbəcərlilərin də onun kimi vüqarlı olduğunu düşünürdüm. Şəhərdə hündürmərtəbəli bina görəndə deyirdi ki, bu bina Kəlbəcərin özüdür.

Rasim həkim Xırdalanda ev tikdirmişdi. Mən də Xırdalanda yaşayırdım. Mənimlə həmişə işdən çıxıb Xırdalana bir avtomobillə getməyimizi xatırlayıram. Maraqlı söhbətləri var idi. Atası Yaqub kişinin çox sərt və sözübütöv, köhnə kişilərdən olduğunu deyirdi. Öz savadı ilə Tibb Universitetinə qəbul olunduğunu, maddi çətinlik çəkdiyini söyləyirdi. Kəlbəcərin işğalından sonra ailə üzvləri ilə bir müddət əlaqəsinin olmamasından danışır, onları Gəncədə axtardığını xatırlayanda gözləri yaşarırdı. İş yerində Rasim qayğıkeş, çox savadlı bir həkim kimi tanınırdı. Bölmədə tabeliyində olanın əksəriyyəti qadın idi. Onu çox sevirdilər. Hamının qayğısına qalırdı. Xəstə hərbçiləri öz şəxsi avtomobilində, hətta taksi ilə təcili hospitala apardığını dəfələrlə görmüşəm. Sonradan onların taleyi ilə maraqlanır, hətta zəng

edib soruşurdu.

Rasim həm də məclis adamı idi: çox şirin şöhbətlər edirdi, axı o həm də şair idi. İncə sevgi şeirlərini xahiş edəndə söyləyir, məclisi rövnəqləndirirdi. Kəlbəcər aşıqlarından danışır, şair Bəhmənlə Sücaətdən çoxlu şeirlər bilirdi. Kəlbəcərli söz aşiqlərini çox sevirdi. Anası və qardaşı Əvəzlə bir evdə yaşayanda dəfələrlə qonaqları olmuşdum. Çox sadə və səmimi ailə idilər. Oğlanlarının kiçik toyunda da iştirak etmişdim. Balalarını çox sevirdi. Onlarla fəxr edirdi. Aybəniz adlı bacısından çox razı idi. Onu özünə arxa-dayaq bilirdi.

Sonralar Rasim həkim 230 nömrəli hərbi hospitalın poliklinika şöbəsinin rəisi, Müdafiə Nazirliyi Mərkəzi Hərbi Poliklinikanın rəis müavini, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin tibb xidməti rəisi və sonda 679 nömrəli briqadanın tibb xidməti rəisi vəzifəsində xidmət edib. Son dəfə 28 sentyabr 2020-ci il tarixdə onunla telefon əlaqəsinə girdim, mən Sarıcalı hospitalındayam,dedim.

O da məxfilyi qorumaq üçün qısaca dedi ki, “biz yoldayıq, o tərəflərə gedirik...”

Bu, bizim son telefon əlaqəmiz idi. Eşitdim ki, şəhid olub. Zəng etdim ki, bəlkə yalandı, ancaq telefon cavab vermədi. Heyif ki, düşmən belə igid, cəsur vətənpərvərlərimizi ilk hədəfə alırdı. Lakin onun kimi oğullar heç vaxt ölmürlər. Ölməzlikləri digərlərinə örnək olan bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik. Biz onlara həyatımızı borcluyuq.

**Hüseynov Hamlet** ***(tibb xidməti mayoru):*** Rasim Abdullayevi 2010-cu ildə Mərkəzi Hərbi Poliklinikada xidmət etdiyi vaxtdan tanımışam. 2015-ci ildən isə birlikdə çalışmışıq. Onunla nə qohum, nə də həmyaşıd deyildik. Çox az bir müddət idi ki, bir-birimizi tanıyırdıq. Bütün bunlara baxmayaraq mənə böyük qardaş, yaxın dost kimi dəyərli məsləhətlər verirdi. Hətta olmadığım yerlərdə belə mənim haqlı olduğumu deməkdən çəkinmirdi. Sonra onunla

daha yaxın olmağa başladıq. 2018-ci ildə Hərbi Poliklinikada rəis müavini vəzifəsində çalışmağa başladı. Rəhbərlik etdiyi müddətdə işçilərlə münasibətdə çox sadə və səmimi idi.

2020-ci il oktyabrın 10-u ərəfəsi idi, ağır yaralanmışdım. Məni Füzuli hospitalına gətirmişdilər. Rasim Abdullayev gəldi, mənə baş çəkdi və bəzi iradlarını da bildirməyi unutmadı. Bu, əsl qardaşlıq-dostluq sədaqəti demək idi. İndi düşünürəm ki, kaş Rasim həkim sağ olaydı, mənə hospitalda verdiyi sualı onun özünə verib soruşaydım: "Ay həkim, bəs sizin nə işiniz vardı orada?!" Ancaq düşünürəm ki, şəhidlik mərtəbəsində olmaq onun qismətində var imiş, ona görə də belə oldu. Ətrafında özünü tanıyan kimsə heç vaxt ondan narazı qala bilməzdi.

**Füzuli Sarıyev** ***(leytenant,*** həkim**):** Rasim Abdullayev sonsuz dərəcədə vətənpərvər, xalqına, torpağına bağlı, vicdanlı bir həkim idi. Onunla döyüş vaxtı rəhbərliklə birlikdə Füzuli, Cəbrayıl və Xocavənd ərazilərində gedən döyüşlərdə yaralıların çıxarılmasında, təxliyyəsində, ilkin yardım edilməsində birgə iştirak etmişik. Füzulidə (Horadizdə) gedən döyüşlərdə çox böyük əməyi olub. Yaralı əsgərləri götürmək çətin idi. Sürünərək irəli gedib yaralıları çiyinlərində daşıyırdı. Belə ki, taktiki cəhətdən orada olan yaralı əsgərlərin hansı mövqedən götürülməsi, hansı preparatların təyin olunması, onların vaxtlı-vaxtında hospitala çatdırılması kimi tədbirlərin görülməsində əvəzsiz xidmətlər göstərirdi.

O, əsgərlərin qayğısını çəkən bir insan idi. Müharibə illərində qələbə üçün var gücünü səfərbər etdi. Döyüş meydanında yaralılara ilk yardımı, onların təxliyyə olunmasında, dərman təchizatında həmişə öndə olub. Yaralıların sağalmasında, döyüşə hazırlaşan əsgər və zabitlərin mənəvi cəhətdən dəstəklənməsində əvəzi yox idi. Hətta öz axırıncı tikəsini belə əsgərə verib, özü ac qalardı. Belə komandirlə birlikdə döyüşmək şərəfli idi. O, yalnız

həkim deyildi, əsl döyüşçü kimi ön sıralarda olurdu...

Məqamı ucalıq olan şəhid-şair Rasim həkimə Allahdan rəhmət diləməkdən savayı əlimizdən nə gəlir ki?

**Yalçın Hüseynov** ***(ehtiyatda olan mayor):*** Mən Rasim Abdullayev haqqında nə qədər danışsam da, azdır. Çünki Rasim dərya kimi geniş qəlbə malik bir insan, savadlı və təcrübəli həkim idi. Mən "N" saylı hərbi hissə komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini vəzifəsində xidmət edirdim. Hal-hazırda ehtiyatda olan zabitəm. Rasim həkim savadlı, bacarıqlı, işgüzar və ən əsası da həkimlik peşəsinin məsuliyyətini dərk edən bir mütəxəssis idi. Hərbi hissə müharibədən qabaq Pirəküşküldə, müharibə dövründə isə Füzuli, Xocavənd və Cəbrayılda yerləşirdi. Bilirdik ki, Rasim Kəlbəcər rayonunun Milli kəndində doğulub. Əlbəttə, ona görə də Rasim daha çox tələsirdi o yerlərə qayıtmağa.

Düzdür, Kəlbəcəri yenidən görmək ona qismət olmadı, şəhidlik zirvəsinə ucaldı. Lakin, şükürlər olsun ki, Qələbəni gördü. O öz uşaqlarının gələcəyi ilə bağlı danışardı. Həmişə təsəlli verib deyərdim ki, həkim, yaxşı olacaq, narahat olma. Vəzifəcə ondan böyük olmağıma baxmayaraq, aramızda böyük səmimiyyət vardı.

Rasim həkim Şuşa şəhərinin girişində sürücüsü ilə yaralıları çıxararkən erməni quldurlarının pusqusuna düşmüşdü. Sürücü ilə birlikdə şəhidlik zirvəsinə qovuşdular. Həmin gün Rasim həkimin başçılığı altında tibb bölüyümüz çoxlu sayda qruplara bölünmüşdü hospitalda. Füzuli Rayon Mərkəzi Xəstəxanasında, cəbhənin digər yerlərində səyyar tibb məntəqələri açılmışdı. Ona görə Qələbə Günü də döyüş meydanında yaralılar, şəhidlərimiz hələ var idi. 28 ildən sonra bu insanın öz doğma Kəlbəcərinə qayıdacağını biləndə sevincini təsəvvür etmək asan deyil. Dildə demək mümkün deyil. Döyüşün ilk günündən sonuna qədər yaralı təxliyyə etdi.

Rasim həkimlə çox şəkil çəkdirmişdik. Həmin telefon o,

şəhid olanda üzərindən düşmüşdü. Amma müharibədən sonra şəkillərdən birini qardaşı Əvəz mənə göndərmişdi.

Rasimin ən böyük arzularından biri də Kəlbəcərə girəndə qurbanlıq kəsmək və atası Yaqub kişinin nəşini Kəlbəcərə, doğma kəndi Milliyə köçürmək idi. Danışardı ki, mən atamı dəfn edəndə demişəm ki, səni müvəqqəti dəfn edirəm. Mən qardaşı Əvəzə hələ Füzulidə olanda onun bu fikrini demişəm.

Şeirlərinin hamısı dərin mənalıdır. Şeirlərinin bəzisindən məlum olur ki, sanki o, şəhadətə yüksələcəyini öncədən görürmüş. Onun şeirlərinin hamısı xoşuma gəlir. “Yeridi” adlı şeirini Rasimin öz dilindən eşitmək daha maraqlı idi.

Baxsan ürəyimə, nələr taparsan, –
Ora sevdamızın ocaq yeridi!
Bizi istəməyən gözlərdən uzaq,
Əhdini qoyduğum bucaq yeridi!

Dedin eşqimizin yaman günüdü,
Can verir, gözünün yaman günüdü!
Toxunma köksümə, aman günüdü,
Ayrılıq vurduğu bıçaq yeridi.

Rasiməm, qoynumda ilan sürünüb,
Belə zülmət qəbristanda görünüb!
Yorğan əvəzinə kəfən bürünüb,
Yatağım həsrətin qucaq yeridi!

# ELİN İGİDLİK SİMVOLLARINDAN BİRİ

***Şəhid Azər Mikayılov haqqında xatirələr də bunu təsdiqləyir***



**Vətən müharibəsinin zəfərlə bitən Qələbəsindən sonra tariximizin bu əlamətdar hadisəsi haqqında çox yazılıb, müzakirələr gedib, tədqiqatlar aparılıb, öyrənilib. Fəqət biz o möhtəşəm hadisədən zaman baxımından uzaqlaşdıqca tariximizin bu qızıl səhifələrinin yeni-yeni uğurlu tərəfləri üzə çıxır. Qəhrəmanlarımızın göstərdiyi igidlik, şücaət, mərdlik, hərb sənətində yenilik kimi qəbul olunan unikal metodlar haqqında hələ çox araşdırmalara, tədqiqat əsərlərinə ehtiyac duyulur...**

**Bu dünyaya çox insan gəlib-gedir, amma az şəxs var ki, qısa ömür yolunu vətəninin, elinin tarixinə çevirə bilir. Deyirlər, torpağa su tökülərsə, palçıq olar, amma qan tökülərsə, Vətənə dönər!**

**İllərdir şəhidlərimiz müqəddəs qanlarını bu torpağa tökərək Vətənin bütövlüyünü təmin etdilər, üçrəngli bayrağımızı birdəfəlik ucaltdılar. Torpaq, millət, bayraq uğrunda ölən varsa, Vətəndir! Qəhrəmanlarımız Vətənimiz, bütöv Azərbaycanımız uğrunda haqq savaşına qalxaraq şəhid oldular. Onların ruhları başımızın üzərindədir: Vətən göylərində. Azad Qarabağımızın aydın səmasındadırlar: ən böyuk zirvələrdə qərar tutublar.**

Taleyi ilə tariximizi bəzəyən qəhrəmanlarımızdan biri də igid **Azər Əmrah oğlu Mikayılov**dur. O, 1980-ci ildə Kəlbəcər rayonunun Quzeyçiskin kəndində, ziyalı ailəsində anadan olub.



1997-ci ildə orta məktəbi bitirəndən sonra 1998-2002-ci illərdə Heydər Əliyev adına Ali Hərbi Komandirlər Məktəbində peşəkar hərbçi kimi təhsil alıb. 2002-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində təhsilini davam etdirib, leytenant hərbi rütbəsinə layiq görülüb. Azər vətənimizin müdafiəsi üçün Azərbaycan Silahlı Qüvvələri Naxçıvan Muxtar Respublikası Əlahiddə Ümumqoşun Ordusunun sıralarına qəbul edilib. Günü-gündən hərbi sirlərə yiyələnib, əsl kəşfiyyatçı kimi formalaşaraq "N" saylı hərbi hissədə kəşfiyyat bölüyünün komandiri, hərbi hissənin kəşfiyyat rəisi, Əlahiddə Ümumqoşun Ordusunun tərkibində Xüsusi təyinatlı taborun qərargah rəisinin əməliyyat üzrə baş köməkçisi, tabor komandirinin müavini və tabor komandiri vəzifələrini icra etmişdir. Bu dövrdə Azər Mikayılovun Naxçıvan Muxtar Respublikasının müdafiəsində böyük xidmətləri olub. Naxçıvan Muxtar Respublikasında "Günnüt əməliyyatı" kimi hərbi əməliyyatlara başçılıq edən vəzifəli şəxslərdən biri olub və uğurlar əldə edib.

Azər Mikayılov 2016-cı ildə Aprel döyüşlərinə qatılaraq Lələtəpə yüksəkliyinin azad olunmasında fəal iştirak edib. O, Vətən müharibəsindən bir neçə ay əvvəl Naxçıvan Muxtar Respublikasından Beyləqan–Füzuli bölgəsində yerləşən "N" saylı Xüsusi təyinatlı kəşfiyyat taboruna təyinat alıb. Azər Mikayılovun son hərbi fəaliyyəti həmin taborun qərargah rəisi və tabor komandiri vəzifələrinin icrası ilə bağlıdır...

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi zamanı Azər Mikayılov da torpaqlarımızın müdafiəsinə qalxdı. O, tabeliyində olan şəxsi heyətlə birgə Füzuli, Cəbrayıl–Hadrut istiqamətində ən ağır əməliyyatlara qatılmış, gedən döyüşlərə rəhbərlik etmiş, böyük qəhrəmanlıq nümunəsi göstərmişdir. Məhz onun rəhbərlik etdiyi hərbi qüvvələr böyük ərazilərin–çoxlu sayda yaşayış məntəqəsinin azad olunmasında, yüzlərlə erməni faşistinin qətlə yetirilməsində iştirak etmişdir. İgidliyi ilə ad çıxarmış zabitimiz 8 oktyabr 2020-ci il tarixində Füzuli–Cəbrayıl istiqamətində gedən döyüşlərdə düşmənə ağır zərbələr vursa da, təəssüflər olsun ki, özü hərbi əməliyyatlar zamanı, Füzulidə müxtəlif növ partlayışlar nəticəsində qəhrəmancasına şəhid olmuşdur.

Azər Mikayılov xidməti dövründə xüsusi hərbi keyfiyyətlərinə, müxtəlif dövrlərdə iştirak etdiyi əməliyyatlarda göstərdiyi şücaətə və nümunəvi xidməti vəzifəsini layiqincə yerinə yetirdiyinə görə müxtəlif orden və medallarla təltif olunmuşdur:

-III dərəcəli "Qüsursuz xidmətə görə" medalı;
- II dərəcəli "Qüsursuz xidmətə görə" medalı;
- II dərəcəli "Qüsursuz xidmətə görə" medalı;
-"Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı;
-"Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı;
-"Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi" yubiley medalı;
- Azərbaycan Respublikasının "Şücaətə görə" medalı;
- "Qarabağ" ordeni (ölümündən sonra);

- "Vətən uğrunda" medalı (ölümündən sonra);
- "Füzulinin azad olunmasına görə" medalı (ölümündən sonra)...

Qəhrəman zabitimizin qısa, lakin mənalı, peşəkar hərbçi ömrünün bəzi məqamlarını, onun işıqlı obrazını gənclərə çatdırmaq istərdik.

Maraqlıdır: bəs onun döyüşçü yoldaşları Azər Mikayılov haqqında hansı xatirələri bölüşürlər?!

**Müdafiə Nazirliyinin zabiti, polkovnik-leytenant Vüsal Axundov:**

– Azər haqqında danışmaq mənim üçün həm çətin, həm də şərəflidir. Mən Azəri yüksək əxlaqikeyfiyyətləri özündə cəmləşdirən, elinə, obasına canla-qanla bağlı olan, hər sözündə Kəlbəcərin gözəl, səfalı təbiəti haqqında dostlarına ürəkdolusu danışan, böyük-kiçik yeri bilən, doğma torpaqlarını canı qədər sevən bir şəxsiyyət kimi tanıdım. Onu mənə bu qədər bağlayan, sevdirən hər ikimizin çətin dövrdə, ağır şəraitdə yaşamağımız, məcburi köçkünlük həyatı sürməyimiz, hər ikimizin kəşfiyyatçı zabit kimi eyni çətin yolu getməyimiz, uzun müddət, təqribən, on il Naxçıvanda, bir il isə Beyləqanda birlikdə xidmət etməyimiz idi. Həmkarım barədə söz demək mənə nə qədər çətin olsa da, qorxuram ki, onun haqqında deyəcəyim sözlər Azərin şərəflə sürdüyü ömür yolunun yanında zəif görünsün. Hərbçi qardaşım elə bir zirvəyə qalxdı ki, o ad hər şeydən üstündur.

Azərlə mənim bir yerdə xidmətimiz çox olub. Biz həm Naxçıvanda, həm də İkinci Qarabağ müharibəsində birlikdə xidmət etmişik. Çox qorxmaz, heç nədən çəkinməz və işini yaxşı bilən, sözün əsl mənasında, düşmənin üstünə şimşək kimi çaxan bir peşəkar zabit idi. Ən çətin əməliyyatlarımızda, istər əvvəl, istərsə də İkinci Qarabağ müharibəsi zamanında Azər daha çox öhdəlikləri öz üzərinə götürüb irəli atılardı: bütün tapşırıqları yüksək səviyyədə yerinə yetirərdi.

İkinci Qarabağ müharibəsində Azər xidmət etdiyi Xüsusi təyinatlı kəşfiyyat taborunun qərargah rəisi olaraq bütün döyüş əməliyyatlarına birbaşa rəhbərlik edirdi. Məhz Azərin apardığı bu yüksəksəviyyəli döyüş əməliyyatları sayəsində çox böyük ərazilərimiz düşməndən azad olunurdu.

Onun şəhadətə ucaldığı gün heç yadımdan çıxmaz. Azərin komandiri, Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Orxan Əkbərov şəhid olduqdan sonra hərbi hissənin bütün ağırlığı, məsuliyyəti onun üzərində qaldı. O zaman hərbi hissənin şəxsi heyəti arasında çoxsaylı şəhid və ağır yaralılar var idi. Bölmələr ayrı-ayrı istiqamətlərdə tapşırıqları yerinə yetirirdi. Belə bir vəziyyətdə hərbi hissəni idarə etmək çox çətin idi. Amma Azər bütün bunların öhdəsindən çox yüksək səviyyədə gəlir və bütün əməliyyatlarda bir qrupla öndə gedirdi...

Onunla son görüşü indi də yaxşı xatırlayıram: "Cəbrayıl dairəsi" deyilən yerdə növbəti tapşırıqların icrası üçün toplanmışdıq. Tapşırıqlar çox, davam edən döyüşün yorğunluğu ondan da ağır idi. Amma bütün bunlara baxmayaraq, Azər yüksək ruhda, çox enerjili görünürdü və onda zərrə qədər də yorğunluq hiss olunmurdu. Həmin vaxt hər birimiz müxtəlif istiqamətlərdə tapşırıqları icra etməyə yollandıq. Azərdə öz qrupu ilə digər istiqamətə getdi. Mən qayıdanda dostum Azərin qəhrəmancasına şəhid olduğu xəbərini eşitdim. Azər Azərbaycan Ordusunun əsl vətənpərvər, qeyrətli, peşəkar zabitlərindən biri idi. Yeri görünən komandir, ruhun şad olsun ki, Qarabağ Azərbaycandır!

**Eltac Hacıyev** ***(tabor komandiri, mayor):***

– Azər Mikayılov haqqında günlərlə danışsaq, yenə də az olar. O, çox gözəl insandı, əla yoldaşlığı vardı, əsl vətənpərvər zabit idi. Azər həm mükəmməl hərbçi, həm də yüksək mənəvi keyfiyyətlərə malik insan kimi tanınırdı. Onun ən böyük arzusu Kəlbəcərin – Qarabağın erməni işğalından azad olunması idi. Bunu, demək olar ki, hər gün ondan eşidirdik. Birgə xidmət etdiyimiz Naxçıvan

Muxtar Respublikasının müdafiə olunmasında onun xidmətləri çox böyük olmuşdur. Culfa–Ordubad, Sədərək–Şərur istiqamətində qarşı tərəflə olan bütün əməliyyatlarda Azərin xidməti böyük idi. 2018-ci ildəki "Günnüt əməliyyatı"nda onun əvəzedilməz xidməti vardı, həmçinin Ordubad istiqamətində bir neçə hakim yüksəkliyin ordumuz tərəfindən geri qaytarılmasında Azərin kəşfiyyatçı komandir kimi peşəkar xidmətləri gənc hərbçilərimiz üçün bir təcrübə məktəbi idi. Azər Mikayılov Naxçıvan Muxtar Respublikasının Ermənistanla olan sərhədini qarış-qarış gəzər, hansı istiqamətdə təhlükə gözlənilə bilərdisə, ona qarşı tədbirlər planı hazırlayar, daha sonra uğurla icrasını təmin edərdi. Azəri əksər kəşfiyyatçı zabitlər yaxşı tanıyırdı. O öz işini peşəkarcasına bilən zabit kimi tanınırdı.

Azər Mikayılov, sözün əsl mənasında, Azərbaycanın peşəkar kəşfiyyatçı zabiti idi. Çox heyif ki, biz onu İkinci Qarabağ müharibəsində itirdik.

**İqbal Mustafayev** ***(baş cavuş, "N" saylı hərbi hissənin kargüzarlıq şöbəsinin rəsmisi):***

– Mən şəhid Azər Mikayılovla 2010-cu ildən 2019-cu ilədək uzun bir xidməti yol keçmişəm. Xidmət etdiyim dövrdə, sözün həqiqi mənasında, onu bir kəşfiyyatçı, vətənini, millətini qəlbən sevən, milli-mənəvi dəyərlərə önəm verən, Azərbaycan Ordusunun igid zabiti kimi tanımışam. Xidmət etdiyi hərbi hissələrdə bir sıra mühüm vəzifələrdə çalışmış, kollektiv arasında dərin nüfuza və hörmətə sahib olmuşdur. O, bir peşəkar kəşfiyyatçı kimi bilik və bacarıqlarını şəxsi heyətə hər zaman öyrətməkdən çəkinmirdi.

O, əslən Azərbaycanın dilbər guşələrindən olan Qarabağdan–Kəlbəcərdən idi. Azər uşaqlıq illərini tez-tez xatırlayardı, Kəlbəcərin–Qarabağın düşmən tapdağında olması ilə barışmazdı, torpaqlarımızın azad olunacağı günü səbirsizliklə gözləyirdi.

O, Naxçıvanda xidmət etdiyi zaman – 2015-ci ildə çətin hava

şəraitində ermənilər tərəfə keçmiş, donma təhlükəsi ilə qarşılaşsa da, ağır hava şəraitinə baxmayaraq, düşmən postunun yaxınlığında qalan əsgərləri bir neçə gün ərzində sağ-salamat geri qaytararaq hərbi hissəyə təhvil vermişdi.

2018-ci ildə “Günnüt əməliyyatı” zamanı 11 min hektar ərazinin düşmən tapdağından təmizlənməsində Azərin də böyük əməyi olmuşdur. 44 günlük Vətən müharibəsində Azər Mikayılovun xidməti daha böyük idi. Azərin Vətənə əmanət qoyub getdiyi oğlu Musaya isə atası kimi vətənini, xalqını sevməsini, milli-mənəvi dəyərlərə üstünlük verməsini arzu edirəm.

Əziz qardaşım Azər, ruhun şad olsun, artıq arzusunda olduğun Kəlbəcər – Qarabağ düşmənlərdən azaddır. Sənin və digər şəhidlərimizin ruhu Vətənin göylərində, ən böyük zirvəsindədir...

Şəhid komandirin qardaşı Anar Mikayılov:

– Azərlə mənim aramda iki il yaş fərqimiz olub və uşaqlığımız ağır keçib. Qardaşım kiçik yaşlarından məktəbdə, ailədə, həm də yaşadığımız ərazidə yaxşı mənada hər kəsdən fərqlənirdi. Qardaşımı yaşıdlarından fərqləndirən onun cəldliyi, qorxmazlığı, savadı, mehribanlığı, ən əsası isə yüksək vətənpərvərliyə malik olması idi.

Məktəbə Azərlə birlikdə gedib-gələrdik, dərslərimizi birgə hazırlayardıq. Uşaqlığımızın lap çılğın vaxtlarında qonşu məhlənin uşaqları ilə tez-tez davamız düşərdi. Həmin “münaqişə”lərdə Azər bizim aramızda olurdusa, hər kəs və xüsusən də mən heç kimdən qorxmaz, ürəklənib “rəqiblərimizə” hücum edərdik.

Xatirimdədir, qarşı tərəfdən uşaqların sayı çox olanda qaçıb aradan çıxardıq, geri dönüb baxanda görərdik ki, Azər onlarla təkbaşına savaşır. Böyüdükcə Azərdə bu qorxmazlıq vətənpərvərliyə tərəf yönəldi. Azər 8-ci sinifdən sonra müstəqil şəxs kimi tanınmağa başladı. Atam Azərin hər hansı bir hərəkətinə görə söz deməzdi. Çünki hər şeyi əvvəlcədən düşünər, valideynlərimizin istədiyi kimi hərəkət edərdi. Atam oxuduğumuz məktəbdə müəllim işləyirdi.O, hər gün evə dönəndə Azəri qucaqlayıb öpər və deyərdi: “Oğlum

məktəbdə məhz mənim istədiyim kimi yüksək nəticələr görsədir!”

Bütün müəllimləri Azərdən razı idi. Atamın arzusu idi ki, Azər onun yolunu davam etdirsin. Qardaşım isə atamın bir sözünü iki etməzdi. Lakin Azər orta məktəbi bitirən ili atama dedi ki, sənin kimi şərəfli müəllim peşəsini seçmək istərdim, ancaq məni bağışlayın, hərbçi olmaq arzusundayam. Atam bəlkə də o anda məyus oldu. Fəqət seçdiyi yoldan Azəri çəkindirə bilməzdi. Azər orta məktəbi bitirəndən sonra Ali Hərbi Akademiyaya qəbul olundu. Qardaşımın bu yolu seçməyi təsadüfi deyildi. O, hər zaman ermənilərin bizim xalqımızın başına gətirdikləri vəhşilikdən ürək ağrısı ilə danışardı. Bunun tək səbəbi onun erməni vəhşiliyindən əziyyət çəkən bir ailədə böyüməsi deyildi. Bir çox faciələrimizi o, yaxşı bilirdi. Qarabağda faciələr törədən daşnaklara layiq olduqları cavabın verilməsi onun ənbirinci arzusu idi. Buna da çatdı...

Elə oldu ki, Azər akademiyada oxuduğu illərdə də biz tez-tez görüşərdik və onun sevdiyi Vətənə bağlı olmasını danışığından hiss edərdim. Azərin xətrini hər kəs istəyirdi. Ailəmizdə onun yeri tam başqa idi. O qədər mehriban idi ki, ondan heç kim zərrə qədər də inciməzdi. Azər bu mehribanlığını özü ilə hərbi akademiyaya, sonra isə xidmətə yollandığı hərbi hissələrə daşıyıb apardı. Azərin yanında xidmət edən əsgərlər hər zaman onu özlərinə dəyərli qardaş, böyük bilirdilər. Hərbi hissədə xidmətə başladıqdan sonra da Azərlə hər gün telefonla danışardıq. Tez-tez görüşmək imkanımız yox idi, çünki hərbi işi çox çətin idi, boş vaxtı az olardı. Görüşəndə və ya telefonla danışdıqca da Azərin Vətənə ürəkdən bağlılığını, nə qədər çətin olsa da, bu şərəfli işin peşəkarlığını, mükəmməl bir zabit kimi onda formalaşdığını aydın görürdük. Bütün bu xüsusiyyətlər Azəri sonda böyük bir ucalığa – şəhidlik zirvəsinə apardı.

Azərlə müharibə başlayandan hərdənbir danışırdıq, ancaq anama tez-tez zəng edərdi. Onun sonuncu zəngi oktyabrın 7-si axşamüstü, təxminən saat 18:00 radələrində olub. Ata və anamın əhvalını soruşub. Anamın narahat olduğunu hiss edib, ona təskinlik

verərək deyib: “Düzdür, müharibə davam edir, amma hər şey yaxşı olacaq. Mənim işlərim çoxdur, tez-tez danışa bilmirəm. Bu üzdən bağışlayın, imkan düşən kimi vaxt tapıb zəng edəcəm...”

Sağollaşmamış həmin an əlaqə kəsildi, Azərin sözü yarımçıq qaldı. Atam hətta səhərə kimi nə qədər ona zəng edibsə, telefon çağırıb, ancaq qardaşım cavab verməyib. Həmin gün gecəyə kimi zəng çatırdı ona, növbəti gün isə telefonuna zəng çatmadı, birdəfəlik əlaqə kəsildi. Boğazımızdan nə su keçirdi, nə çörək: telefondan asılı qalmışdıq, Azərə isə zəng çatmırdı. Heç kəslə əlaqə yarada bilmirdik. Axır ki, birtəhər bir komandirin vasitəsilə əlaqə saxladıq, onlar dedilər ki, Azər xüsusi təyinatlılarla irəlidədir, biz də onlarla əlaqə qura bilmirik. Sonra bizi sakitləşdirmək üçün dedlər: “Narahat olmayın, Azər sağ-salamatdır”.

Sonralar bildik ki, belə deyilmiş: Azəri artıq itirmişdik. Goranboyda da vəziyyət qarışıq idi, düşmənlər durmadan atırdılar. Ayın 8-i Goranboyda qalan valideynlərimi məcbur qalıb Yevlaxa, bacımgilə gətirmişdim. Əslində anamgil Goranboydan çıxmaq istəmirdilər, deyirdilər, nə üçün çıxaq burdan?! Axı Azər od-alovun içindədir. Digər tərəfdən də Azərə zəng çatmaması bizi çox narahat etmişdi. Ayın 10-u bir nəfər hərbçi vasitəsilə Azərin yanından bir zabitlə əlaqə yarada bildik. O da bizə bildirdi ki, narahat olmayın, Azər salamatdı. Ancaq o sözləri təskinlik üçün deyirmişlər, çünki Azəri tapmayıblar, yəqin, şəhid olduğunu hiss ediblər. Elə oldu ki, 11-i axşamı Füzulidən Bakıda olan böyük qardaşıma zəng vurub deyiblər ki, “başınız sağ olsun, əziziniz Azər şəhid olub”. Qardaşım da mənə zəng vurdu, o an çox çətin oldu mənə. Atamla anam yanımda oturmuşdular. Bilmədim ki, onlara necə deyim bu sözü. İnanmaq istəmirdim, həmin gecəni səhərə kimi Allaha yalvarırdım ki, kaş Azər yaralı olaydı, bir qılçı, ya bir qolu olmasın, amma qardaşım sağ olaydı...

Ancaq qardaşım mənə zəng edəndə valideynlərim şübhələndilər, çünki ayaqlarım yerimədi, qayıdıb onların yanında süst vəziyyətdə

stulda oturdum. Yalandan pıçıldadım, deyəsən, Azəri yaralayıblar. Qardaşımın mənə telefonda dediklərini eşitməsələr də, nə qədər gizlətmək istəsəm də, axırda özümü ələ ala bilmədim. Ancaq onlar üz ifadəmdən vəziyyətin nə yerdə olduğunu anladılar. Atam və anam dayanmadı, hönkürərək dilləndilər: “Deməli, Azər şəhid oldu!”...

Baş verənlərə rəğmən, ata-anama ürək-dirəklə dedim ki, Azər yaralıdı. Mənə xəbər verdilər ki, sabah imkan olsa, dalınca gəlin. Mən isə gecəni səhərə kimi Allaha yalvardım: kaş bu xəbər yalan olsun, kaş sabah desinlər ki, verdiyimiz məlumat yanlışdır. Gecəni səhərə qədər ayaqüstə oyaq qaldıq. Oktyabrın 12-si günü Füzuliyə yollandıq. Şəhidləri gətirdilər, cəsədləri göstərdilər. Azəri gətirdilər, dedilər, özünüz də baxın. Görən kimi tanıdıq, ekspertizaya ehtiyac olmadı. Qardaşımızı götürüb gəldik Goranboya.Yarım saat sonra Yevlaxda Şəhidlər xiyabanında dəfn elədik...

Azərsiz mənə indi çox ağırdı. Onunla keçirdiyim vaxtlar mənim üçün xoş xatirələrə çevrilib. Əziz qardaşımın timsalında bütün şəhidlərimizin ruhu qarşısında baş əyirik.

**Komandirin sadiq əsgəri Hikmət Bağırov:**

– O zaman mən “N” saylı hərbi hissənin snayper əsgəri kimi Naxçıvan–Ermənistan dövlət sərhədində yerləşən döyüş postunda xidmət edirdim. Kiçik Qafqazın ən yüksək zirvəsi sayılan Qapıcıqda yerləşən döyüş postumuzda iqlim və relyef baxımından xidmət aparmaq çox ağır idi. Buludlar belə bizdən aşağıda dururdu. Qarın, tarın qalınlığı on metrlərlə idi. Ancaq bu çətinliklərə baxmayaraq, bununla fəxr edirdik. Vətənimiz və xalqımız, müqəddəs torpaqlarımız üçün sevə-sevə sərhədlərimizin keşiyində dururduq.

2015-ci ilin yay ayları idi. Postlara çıxmaq çətin idi, yolları tar bağlamış, çaylar buzla örtülmüş, hərəkət, demək olar ki, tamamilə kəsilmiş haldaydı. Bölməmizin zabit heyəti döyüş postlarına çıxır, yoxlama aparır, şəxsi heyətin problemləri ilə maraqlanırdı. Bir gün sübh tezdən “Qalxın!” komandası ilə yuxudan oyandıq. Postdan çıxanda gördük ki, bölük komandirimiz kapitan Əhmədov və

tanımadığımız mayor rütbəli iki zabit çöldə dayanıb.

Əsgər yoldaşlarımla sıraya düzüləndə bölük komandirim mənə səsləndi:

– Bağırov, sıradan çıx, tam təchizatla hazırlaş, bizimlə gedirsən!

İçimdə qəribə narahatlıq yarandı ki, bölük komandiri, tanımadığım mayor rütbəli iki zabitlə mən hara gedirəm? Hazırlaşıb komandirin yanına gəldik, sonra bir xeyli postdan uzaqlaşdıq. Bölük komandirim mənə dedi:

– Bilirsən bu kimdir?

Bildirdim ki, ilk dəfədir görürəm.

Arxaya dönüb:

– Komandir sənin yerlindir, kəlbəcərlidir, qorxmaz döyüşçüdür...”– əlavə etdi.

Bir xeyli gedib dayandıq. Azər Mikayılov mənə yaxınlaşıb bildirdi ki, mən də kəlbəcərliyəm. “N” saylı hərbi hissənin kəşfiyyat-qərargah rəisi, mayor Azər Mikayılovla ilk tanışlığımız bu cür başladı. Biz mayor Mikayılovun rəhbərliyi ilə düşmən tərəfə keçəndə astaca dilləndi:

– Eloğlu, qorxmursan ki?! Birdən qorxub məni biabır edərsən ha!?

Dedim:

– Xeyr! Komandir, hara lazımdırsa, axıra kimi sizinlə gedəcəyəm!

Biz qarşı tərəfdə verilən tapşırığı icra etdikdən sonra döyüş postlarımıza qayıtdıq. O gün onu elə də yaxından tanımaq imkanım olmamışdı. O, mayor rütbəli, kəşfiyyat kimi çətin bir bölüyün komandiri idi.Təhlükəli ərazidə döyüş əməliyyatı aparıldığından doyunca söhbət etmək imkanımız olmamışdı. Amma o zamandan müşahidə etmişdim ki, Azər Mikayılov qorxmaz, cəsur və səmimi zabitlərimizdəndir.

Bir gün səhər çağı həyəcan komandası ilə mən və əsgər yoldaşım Mirzağa Məmmədov bölük komandirimizlə “57” adlanan

yüksəkliyə qalxdıq. Məlumat daxil olmuşdu ki, düşmən “57” yüksəkliyini götürmək istəyir. Lakin bizim onlardan tez həmin yüksəkliyə çatmağımız vəziyyəti tamamilə dəyişmişdi. Müşahidə vaxtı düşmənin bir məxfi qrupunu aşkar etdik. O dəqiqə komandirimə məruzə etdim ki, düşmənin canlı qüvvəsi yüksəkliyə doğru irəliləyir. Komandirimiz kapitan Əhmədov bizə “Atəş!” əmri verdi. Atəş açan zaman düşmən şoka düşdü, çünki onlar gözləmirdilər ki, biz qısa müddət ərzində bu yüksəklikdə otura bilərik. Bir müddət davam edən qarşılıqlı atışmadan sonra düşmən geri çəkildi. Düşmənin bir cəsədi və bir yaralısı vardı.

Həyəcan siqnalı ilə çıxdığımızdan özümüzlə su və ərzaqda götürməmişdik. Həm aclıq, həm də şaxta olduğundan bütün günü döyüş növbəsi çəkməyimiz bizi əldən salmışdı. Elə bu zaman dumanın arasında iki nəfər göründü. Səslərini eşitdik: “Uşaqlar yaxşıdırmı? Salamatçılıqdır?”

Komandirimiz bildirdi ki, bəli, hər şey yaxşıdır, düşmən layiqli cəzasını alıb geri çəkildi. Səsindən tanıdım ki, bu, mayor Azər Mikayılovdur. Cəld yanımıza qalxaraq bizimlə görüşdü, hərəmizə iki ədəd sosis verib dedi:

– Acsınız, yeyin, arxadan təminat gəlir.

Nəfəsi kəsilmiş halda özünü bizə yetirmişdi.Bəlkə də bizə verdiyi özünün son azuqəsi idi. Çünki bilirdi ki, yenicə oturduğumuz yüksəklikdə heç bir ərzaq məhsulu, vacib təminat yoxdur.

Daha sonra Azər Mikayılov bizə bildirdi ki, yorğunsunuz, siz dincəlin, postda biz duracağıq. Kürəyimizi Vətən daşına söykəyərək mürgülədik, zabitlər isə əsgərlərinə növbə çəkirdilər. Səsə oyanıb gördük ki, bölmələrimiz üçün ərzaq və yatacaq gətiriblər. Mövcud vəziyyəti nəzərə alaraq komandanlıq tərəfindən hərbi hissənin kəşfiyyat-qərargah rəisi mayor Mikayılov bizim yanımızda qaldı. Onunla hər dəfə həmsöhbət olanda Vətənə olan sevgisi, xalqa bağlılığı, hərbçi cəsarəti adamı heyran qoyurdu. Yuxarı komandanlıqdan gəlmiş mayor Bağırov döyüş postumuzda soruşdu

ki, Mikayılovun yerlisi kimdi?

Dedim, cənab mayor, mənəm!

Dedi:

– Sən fəxr etməlisən ki, belə bir zabitlə birlikdə xidmət edirsən. Bilirsən o kimdir, onun şərəfinə burada “Kəlbəcər” adlı post var. O, bəlkə də yeganə zabitdir ki, azaraq düşmən tərəfə keçən əsgərini əlcəyindən tanıyaraq düşmən əlinə keçməsindən xilas edib...

Mayorun dediyi bu sözlər şəxsiyyət kimi Mikayılovun insanlığına verilən qiymət, dəyər idi. Mayor Bağırov danışdıqca həm qürurlanır, həm də sevinirdim ki, belə bir qəhrəmanla birlikdə xidmət edirəm və şəxsən onu tanıyıram. Baxmayaraq ki, o, yüksək rütbəli zabit, peşəkar kəşfiyyatçı idi, dəfələrlə düşmən mövqelərində tapşırığı icra etmiş, əhəmiyyətli məlumatlar gətirmişdi.

Ən ağır tapşırıqlara da adi baxırdı. Müharibə dəhşətlərinə rəğmən, ona döyüş çətinlikləri adi iş kimi gəlirdi. O, olduqca sadə, təvazökar və səmimi, əsgərləri ilə dost, onlarla dərdləşməyi bacaran zabit təəssüratı yaratmışdı bizdə. Sayımız düşmənə nisbətən az, mövqe baxmından düşmən daha əlverişli yerdə olsa da, Mikayılov yanımızda olanda özümüzü çox güvəndə, rahat hiss edirdik. Onun qorxmazlığı, peşəkarlığı, milli ruhda apardığı söhbətlər bizə daha da güc verirdi. Elə hesab edirdik ki, onun komandanlığı ilə istənilən döyüşə  girib oradan qalib dönə bilərik. O, təkcə zabit deyildi, bizim hər birimizin qardaşı, dostu, sirdaşı idi...

...Bir gün bilmişdi ki, nişanlıyam. Xidmət müddətimin bitməsinə də az qalmışdı. Bir də gördüm o, müşahidə postumuza gəlib. Məndən soruşdu ki:

– Sən nişanlısan?

– Bəli, – dedim. Bir xeyli dərdləşdik və sonda dedi:

– Yolunu gözləyənin var, məhz sağ-salamat evə getməlisən. Çox çalışsa da, arxa bölməyə keçməyə razılıq vermədim.

Təkrar dedi:

– Nə olursa-olsun, sən buradan sağ-salamat dönəcəksən evə.

Yanında olduğum müddətdə eləcə məni qoruyur, sanki öz doğması, qardaşı kimi mühafizə etməyə çalışırdı. Onun yüksək davranışlarına, əsgərlərinə yanaşma tərzinə baxanda hər kəs təəccüblənirdi. İnsan bu qədərmi sadə, bu qədərmi mehriban olar? Hərdən fikirləşirdim ki, bu qədər mərdliyi, cəsarəti, Vətənə və xalqa olan sevgini necə bir ürəyə sığdıra bilir?!

Azər Mikayılov kabinet zabiti deyildi, şaxtadan qaralmış sifəti, çatlamış dodaqları, rəngi solmuş forması, ayağında bomboz çəkməsi, daima yol yoldaşı olan xəritəsi, binokl və çiynindən asılmış avtomatı ilə ömrünü dağlarda, düşmənlə üzbəüz keçirmiş qəhrəman, əsl Vətən övladı idi.

Onunla son görüşümüzdə ilk gördüyümüzdə əyninə geyindiyi həmin forma idi. Yenə məni bağrına basıb öpdü.

Dedi:

– Xidmətdən dolayı xətrinə dəymişəmsə, məni bağışla, hallalıq ver.

Dedim:

– Komandir, nə danışırsız?!Siz mənə halallıq verin. Axı siz mənə komandir yox, qardaş olmusunuz...

Yenə bir xeyli dərdləşdik. Bildirdi:

– 2 il 6 aydan sonra gəlirəm. Geri dönəndə görüşərik.

– İnşallah,– deyib ayrıldım komandirdən.

Azər Mikayılovun bizim qonşuluqda yaşayan qohumları vardı: onlardan tez-tez soruşurdum ki, komandirdən xəbər varmı? Hər dəfə yaxşı olduğunu söyləyirdilər. Sonradan eşitdim ki, komandirim "Günnüt əməliyyatı"nda şücaət göstərib, çox sevindim, həmişəki kimi, fərəhləndim.

27 sentyabrda başlanan Vətən müharibəsində qəhrəman oğullarımız Ali Baş Komandanın əmri ilə düşmənə sarsıdıcı zərbələr vururdu. Komandirimin də döyüşdə olmağından xəbərsiz idim. 12 oktyabr tarixində eşidəndə ki, Azər Mikayılov şəhid olub, həmin an sanki nitqim tutuldu, özümdən asılı olmayaraq

gözlərimdən yaş süzülməyə başladı. Çalışdığım yerdə yoldaşlar bunun səbəbini soruşdular. Özümü toplayıb komandirimin şəhid olduğunu bildirdim. Ölümünə inanmaq istəmirdim, çünki onun çevikliyinə, peşəkarlığına, şücaətinə görə elə bilirdim ki, girdiyi bütün döyüşlərdən, əməliyyatlardan sağ-salamat çıxacaqdı. Amma çox təəssüf olsun ki, bu, bir həqiqət idi...

...Nəşi evə gətiriləndə komandirimin döyüş yoldaşı bildirdi ki, mayor Azər Mikayılov düşmənin 200 nəfərdən çox canlı qüvvəsini və 8 texnikasını məhv edərək qəhrəmancasına şəhid olub. Ürəyimdə dedim ki, mənim komandirimə elə bu yaraşırdı. O, indi ən uca mərtəbəyə – şəhidlik zirvəsinə ucalıb. Mikayılovun mərdliyi, xalqına və dövlətinə olan sonsuz sevgisi, yaratdığı əsl Azərbaycan zabiti obrazı onu tanıyanların qəlbində əbədi yaşayacaq. Onun qəhrəmanlıq məktəbindən bundan sonra da neçə-neçə gəncimiz, hərbçimiz bəhrələnəcək. Onun məzarı hər bir azərbaycanlının and yeri, müqəddəs ziyarətgahı olacaq. Hərbçilərimizin qanı-canı bahasına bütöv Azərbaycanın səmasında dalğalanan üçrəngli bayraq var olduqca onlar da əbədiyaşar olacaq, xatırlanacaqlar. Mən isə onu – əziz komandirimi həmişə şaxtadan qaralmış sifətində olan təbəssümü ilə, çatlaq-çatlaq olan dodaqları, dağınıq saçları və solmuş göy formasında xatırlayacağam. Xatırladıqca, hər zaman olduğu kimi, onunla həmişə qürur duyacağam.

**Adil Həmid** ***(publisist):***

– Azər kiçik yaşlarından qeyri-adi uşaq kimi böyüyürdü. Yaxşı yadımdadır, o, hələ çox kiçik idi. Əsgərlikdən kim gəlirdisə, onun paltarını kəsdirib, qısaltdırıb, əyninə geyinib düşərdi kəndin ortasına, o baş-bu başa gəzərdi. Deyərdi ki, mən əsgərəm.

Daxili mənəvi zənginliyi ilə əməli üst-üstə düşən Əmrah müəllim kəndimizin sevilib-seçilən ziyalılarından olub. Ondandır ki, belə gözəl ailədən də Azər kimi vətəninə layiq qeyrətli oğullar yetişməsi təəccüblü deyil.

**Şahin Mehtiyev** ***(Kəlbəcər ziyalısı):***

– Bəzən deyirlər ki, insanın adının onun taleyi ilə bağlılığı var. İkinci Dünya müharibəsində atasını itirmiş Əmrah müəllim ortancıl oğlunun adını Azər qoyur və o, 40 il sonra Azərbaycanın oğlu olur, torpaqlarımızın xilaskarlarından biri olaraq şəhidlik zirvəsinə ucalır.

Əmrah müəllim əvvəlcədən Azərin bu taleyi yaşayacağını görə bilərdimi? Yəqinki, yox. Bəs onda bu bağlılıq, bu uyğunluq haradan və nədən qaynaqlanır? İnsanın ağlına ancaq bir cavab gəlir: İlahidən!

Gözümüzün qabağında günü-gündən böyüyən Azərin şirin şıltaqlığı, dəcəlliyi, fərqlənən qoçaqlığı böyüdükcə saflıq, təmizlik, dürüstlük, mərdlik, qəhrəman olacaq qədər cəsarət və fədakarlıq xüsusiyyətlərinə çevrilərək onu insanlığın ən yüksək pilləsinə qaldırdı.

Azərlərin və şəhidlik zirvəsinə qalxan bütün azərbaycanlıların ruhu qarşısında baş əyirik. Onlara heç vaxt qaytara bilməyəcəyimiz borcumuzu qismən də olsa Vətənin daşı olmağımızla qaytara bilsək, nə xoş bizim halımıza.

Azər Mikayılovun adının digər adaşlarından daha çox tanınması da onun tale məsələsi imiş. Doğulandan alnına yazılan şərəfli və qısa ömrünü yaşayan Azər Vətənin ağır illərində uşaqlıq dövrünü əməlli-başlı keçirməmişdi. Göz açandan doğma ata-baba yurdunu düşmən tapdağında görmüşdü. Ona görə də o, hərb sənətini seçdi.

Mən bu igidin, qəhrəmanın haqqında söylənilənləri və yazılanları oxuduqca qəhər dolu bir sevinc də yaşayıram: nə yaxşı ki, Azərlərimiz az deyil. Nə yaxşı ki, yurdumuzun işğalına dözməyən oğullar vaxtından tez boy atdılar. Xalqımızı töhmət altından çıxaran belə oğulların ömrünü yaşadıqları beş-on illə hesablamayın, amandı. Onlar minilliklər boyu xalqımızın yaddaşına köçdülər.

Azərin döyüş yolundan söz açan yazılar, dostlarının fikirləri bizdə ancaq qürur doğurur. Yeriniz behişt olsun, şərəflə yaşayanlar...

# KƏLBƏCƏRİN UNUDULMAZ ŞƏHİD ÖVLADI: ARİF ƏLİYEV



**Həyatda elə insanlar var ki, hələ sağlığında şəxsiyyəti və fəaliyyəti ilə özünü ləyaqət simvoluna çevirməyi bacarır. Belə şəxslər həyatda sakit görünə bilərlər, amma düşdükləri şəraitdə fövqəladə əməlləri ilə xalqın yaddaşında qəhrəman kimi uzun müddət yaşayırlar.**

***Elə ibrət götürüləsi şəxslərdən biri də Qarabağ – Kəlbəcər torpağının yetirməsi, dədə-baba torpağında xidməti vəzifəsini yerinə yetirərkən həlak olmuş Arif Ağalar oğlu Əliyevdir. Onu hər kəs tanımalı, gənclər onun nümunəvi əməllərindən ibrət götürməlidirlər.***

Arif Əliyev 1983-cü ildə Kəlbəcər rayonunun Susuzluq kəndində dünyaya göz açıb. 1989-cu ildə Susuzluq kənd orta məktəbində birinci sinfə gedib, 1999-cu ildə orada təhsilini uğurla başa vurub. Elə həmin il də Gəncə Dövlət Aqrar Universitetinə daxil olub. O, ali təhsilini uğurla başa vurduqdan sonra, 2003-cü ildə həqiqi hərbi xidmətə yollanıb. Vətən qarşısında müqəddəs borcunu Naxçıvan Muxtar Respublikasında layiqincə yerinə yetirib. Geri döndükdən sonra, 2005-ci ildə ailə həyatı qurub, 2006-cı ildə ilk dəfə ata adını qazanıb.

2012-ci ildə Kəlbəcər Rayon İcra Hakimiyyətinin Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini vəzifəsində fəaliyyət göstərməyə başlayıb. Arif Əliyev ona tapşırılan məsul işində vəzifəsini ləyaqətlə yerinə yetirib və çox uğurlu ömür yolu keçib.

O, ömrü boyu şərəf və ləyaqətlə yaşayıb. Mənalı, şərəfli və



qısa bir ömür yaşasa da, hər zaman dövlətini, elini, obasını ürəkdən-candan sevən bir insan olub. Həm də ata-baba yurdu Kəlbəcərə daha çox bağlılığı ilə tanınıb. 44 günlük Vətən müharibəsi dövründə səngərdə torpaq keşiyində duran hərbçilərə mənəvi və maddi dəstəyini heç zaman əsirgəməyib.

Arif Əliyev nümunəvi ailə başçısı, əvəzolunmaz ata, dəyərli dost kimi tanınırdı. Lakin bunlara baxmayaraq, 30 illik həsrətimizə son qoyan şanlı ordumuzun möhtəşəm Qələbəsindən bir il ötdükdən sonra o, vəzifə borcunu yerinə yetirmək üçün ata-baba yurdu Kəlbəcər rayonunun Susuzluq kəndinə ezam edilir. Təəssüf ki, ona 30 il həsrət qaldığı doğma diyarını qarış-qarış gəzmək qismət olmur...

Arif Əliyev 4 iyun 2021-ci il tarixində saat 11 radələrində bir neçə media nümayəndəsi ilə birgə işğaldan azad olunmuş doğma Susuzluq kəndinə yola düşür. Onların getdikləri "KamAZ" markalı sərnişin avtomaşını ermənilər tərəfindən basdırılmış tank əleyhinə minaya düşür. Faciə zamanı onunla yanaşı iki media nümayəndəsi də dünyasını dəyişir, daha dörd nəfər isə yaralanır...

**Birinci Qarabağ müharibəsinin könüllü iştirakçısı, II dərəcəli əlil Mübariz Əliyev**in qardaşı ilə bağlı söylədiklərindən:

Qardaşım Arif haqqında çox şey danışmaq olar. Arif bizim evin sonbeşiyi olmağıyla bərabər, yüksək bacarığa, geniş dünyagörüşünə malik ziyalı idi. Biz ailəmizdə hər hansı bir işi görmək üçün əksər vaxtlarda Arifdən məsləhət alardıq. Arif həm evmizdə, həm yaşadığımız kənddə yüksək hörmət qazanmışdı. Kəndin ictimai işlərində fəal iştirak edirdi, sakinlər hər zaman Arifdən məsləhət alardı. Məhz qazandığı bu hörmətə görə Arifin

itkisi bizi sarsıtdığı kimi, kənd əhalisini də dərin hüznə qərq etdi. Arifin yoxluğunu biz necə qəbul edə bilmiriksə, tanıyanları da onun yoxluğuyla barışa bilmirlər. Ölüm hamı üçün haqdır. Amma bir həqiqət bəllidir ki, dünyasını dəyişənlər bir daha geri dönməyəcək deyə onların yoxluğuna dözmək olmur.

Ariflə mənim münasibətim o qədər səmimi və hərarətli idi ki, onu sözlə ifadə etmək mümkün deyil. Arifin dünyaya gəlişinin maraqlı bir tarixçəsi var. Valideynlərim danşırdı ki, o zamanlar mənim beş-altı yaşım olardı. Kəndimizdə körpə uşaq doğulanda mən həsəd aparırmışam. Hətta evdə ağlayırmışam ki, hamının balaca bəbəsi var, mənim isə yoxumdur. Uzun həsrətdən sonra valideynlərim qərara gəliblər ki, mənim arzumu gerçəkləşdirsinlər – dünyaya bir övlad da gətirsinlər. Arifin doğum xəbərini eşidəndə mən yaylaqdaydım. Bizə xəbər verdilər ki, ailənizdə xoşbəxtlik baş verib: oğlan övladı dünyaya gəlib. Yaylaqdan qışlağa, evimizə qədər uzun yolu dayanmadan qaçmışam. Nəhayət, evmizə çatdıqda gördüm ki, çarpayının üstündə üç günlük göyçək bir çağa yatır. Onu kənardan doyunca seyr etdim. Elə yaraşıqlı idi, sanki yataqda mələk yatırdı...

Arif dost dediyi, qardaş bildiyi adamlara çox sədaqətli idi, ona görə də tanıyanlar bu cəhətinə görə onun xətrini istəyirdilər. Hər kəsin köməyinə çatmağa çalışırdı. Kiminsə bir çətinliyi olanda onu ürəyinə salardı. Gözəl yol yoldaşlığı vardı. Heç vaxt deməzdi ki, yorulmuşam. Həyatın bütün çətinliklərinə sinə gərərdi.

Biz onunla 44 günlük Vətən müharibəsi dövründə hərbçilərimizə sovqat daşıyardıq. Günün çox saatlarını bir yerdə olardıq, vətənpərvər insan idi. Vətəninə, torpağına sonsuz bağlı idi. Doğma diyarının harayına getdi, sevimli Kəlbəcərində də şəhidlik zirvəsinə ucaldı. Allahdan Arif qardaşıma və bütün şəhidlərimizə rəhmət diləyirik...

**Həyat yoldaşı Ülviyyə xanım** xatirələrini belə bölüşür:

Biz 2000-ci ildə nişanlandıq, Arif ali məktəbi bitirdikdən sonra,

2003-cü ildə hərbi xidmətə yollandı. Hərbi xidməti Naxçıvanda başa vurub geri döndükdən sonra 2005-ci ildə toyumuz oldu, xoşbəxt ailə həyatına başladıq. 2006-cı ildə isə ilk dəfə valideyn adını qazandıq. Arif həm özünə, həm də bizə çox gözəl günlər yaşatdı. Qısa, mənalı bir ömür yaşasa da, çox mükəmməl ailə başçısı, necə deyərlər, elin sayılan-seçilən tanınmışlarından idi. Cavanlığından özünü əsl ağsaqqal kimi aparırdı. Elinə çox vicdanlı, ləyaqətli oğul kimi xidmət edirdi. Övladlarımızla xoş günlər keçirərdik. Onların gələcəyi ilə bağlı gözəl xəyallar qurardı...

Amma, necə deyərlər, ömür yolumuzu biz seçmirik. Arif alın yazısına yazılmış ən uca məqama – şəhidlik zirvəsinə ucaldı. Mən hər zaman fəxr etmişəm və indi də qürur duyuram ki, onun kimi ləyaqətli bir şəxsin xanımıyam. Belə bir həyat yoldaşım olduğu üçün qürur duymuşam. Bu dünyaya bir də gəlsəm, desələr ki, Arif Əliyev şəhidlik məqamına ucalacaq, yenə də onu şeçərdim...

İlk övladı Ləman atası ilə bağlı ən gözəl xatirələrini dilə gətirir:

Atamın mənə münasibəti bir qədər fərqli idi. Onun ən böyük arzusu məni ali məktəb tələbəsi görmək olub. Şəhid övaldı olaraq çox qürurluyam. Ona görə qürurluyam ki, atam ən uca məqama ucalıb. Fəqət kədərliyəm ki, atam mənim bu həyatda ən böyük dayağım idi. Bir qız övladı üçün ata itkisi, həyatdakı dayağından məhrum olmaq çox ağır duyğudur. Bu acını ifadə etmək çətindir.

Atamı itirdiyimdən bir il ötür, amma mən onun yoxluğuna heç cür inana bilmirəm. Atamın şəhidlik xəbərini aldıqda inanmaq istəmirdim. Həmin an həyat mənim üçün bir zülmət gecəyə çevrildi. Hər gün gözləyirəm ki, atam evə qayıdar, amma günlər keçir, ondan bir xəbər gəlmir. İndi həyatımda, sadəcə, ümidlər var. Başda atam olmaqla, şəhidlərimizin xatirəsi əbədi olaraq qəlbimizdə qalacaq. Doğrudur: Torpaq, uğrunda ölən varsa, Vətəndir...

**Oğlu Rəvan**ında atası haqqında fikirləri maraqlıdır:

Atamın bizə münasibəti həmişə tam fərqli olmuşdur. Uşaq yaşlarımızdan başlayaraq o bizi hər gün gəzməyə aparardı. Ölkəmizin gözəl məkanlarını yaxından tanımağımızı istəyərdi. Həmişə bu haqda bizə məsləhətlər verərdi. Bizə deyərdi ki, ölkəmizin hər guşəsi özünəməxsusluğu ilə seçilsə də, doğma ata-baba yurdumuz Kəlbəcər daha gözəldir. Atamla mənim bu haqda bir neçə dəfə söhbətim olub. O, Kəlbəcər haqqında xatirələrini elə gözəl ifadə edərdi ki, 30 il işğal altında inildəyən doğma torpaqlarımızı görməsəm belə, oralara sevgim günü-gündən artırdı.

Atam bir gün doğma yurdumuza qayıtmaq xəyalı ilə yaşayırdı. Nəhayət, şanlı ordumuzun Qələbəsi nəticəsində işğal altında olan torpaqlarımız, eləcə də doğma Kəlbəcər rayonu da işğaldan azad olundu. Qələbədən bir il ötdükdən sonra evə gəldi və bizə dedi ki, doğma yurduma ezam edilmişəm. Bu xəbəri aldıqdan sonra hazırlıqlara başladı. Nəhayət, o gün çatdı, atam sabah tezdən yola düşdü və onlar doğma kəndimizə daxil olmağa az qalmış erməni daşnaklarının yerləşdirdiyi tank əleyhinə minanın partlaması nəticəsində atam və ikimedia nümayəndəsi həlak oldu...

Yazımızı **Arif müəllimin kiçik oğlu Sərvan Əliyev**in atasının timsalında şəhidlərimizin xatirəsinə söylədiyi şeirlə bitiririk:

Hansı arzu-dilək apardı səni,
Vətəndə yurduna çatdın, qayıtdın.
Ruhunu tapşırdın ulu dağlara,
Qanını torpağa qatdın, qayıtdın.

Doyunca gəzmədin dağları, fəqət,
Belə yazılıbmış, yəqin ki, qismət.
Məqamın Şəhidlik, məkanın cənnət,
Ən uca məqama çatdın, qayıtdın.

Şəhid olub düşdün dildən-dillərə,
Qanınla rəng verdin əlvan güllərə.
Dağlar nə deyəcək sənsiz ellərə,
Gedər-gəlməz bir yol tutdun, qayıtdın.

Əzizlərin gedər bəzər dağları,
“Arif hanı?”deyib gəzər dağları.
Müqəddəs sayarlar məzar dağları,
Dağlarda əbədi yatdın, qayıtdın.

Anan birdə görməyəcək üzünü,
Oğlun Rəvan axtaracaqizini.
Balaların yolda qoydun gözünü,
Sevgilini oda atdın, qayıtdın.

Əli, taleyə bax, qədərə bir bax,
Sağkən bax budur cənnətə çatmaq.
Bacardın bu ətri o ətrə qatmaq,
Dağlarda güllərə batdın, qayıtdın!

# DAŞQIN ŞƏFİYEV:
# KƏLBƏCƏRLƏŞMİŞ ŞƏHİD QƏHRƏMAN




**Günümüzdə İkinci Qarabağ müharibəsində, 44 günlük Vətən savaşında vuruşaraq şəhid olmuş qəhrəmanlarımızın işıqlı obrazlarını yüksək estetik formalara cavab verən əsərlərdə yaratmaq, sənət – mədəniyyət vasitəsilə gənclərə, geniş ictimaiyyətə çatdırmaq ədəbi-mədəni sahənin peşəkarlarının, yaradıcı insanların əsas vəzifələrindən biridir. Qızıl hərflərlə Azərbaycan tarixində yeni səhifələr yazan qəhrəmanlarımız əbədi olaraq qəlblərdə, xalqın yaddaşında iz qoydular...**

Əslində insanlar elə şəxsləri ədəbiyyat əsərlərində, kitablarda, filmlərdə axtarsalar da, son 30 ildə, eləcə də Birinci və İkinci Qarabağ müharibələri zamanı xalqımızın qeyrət simvoluna çevrilmiş çoxsaylı igidlərimiz olub.

Azərbaycan xalqı şəhidləri ilə qürur duyur, onların adı çəkiləndə insanlarımız sevinc göz yaşları içində iftixar hissi keçirir. Şəhid vermək xalqımız üçün nə qədər ağır olsa da, təsəllini elimizin-obamızın, Vətənimizin bütövlüyünün əldə olunmasında tapırıq.

2022-ci il avqustun 15-də Gəncə şəhərində yaşayan Gülnaz xanıma zəng edib dedim ki, 44 günlük Vətən müharibəsində şəhid olan kəlbəcərli 33 hərbçi, 3 mülki şəxslə bağlı çəkiləcək sənədli-bədii filmin yaradıcı heyətinə qoşularaq təmənnasız onlara kömək edirəm. Şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımızın ailə üzvləri




ilə görüşüb film üçün materiallar hazırlayırıq.

Gülnaz xanım o dəqiqə söylədi: “Xoş gəlirsiz, ay qızım, bu gün həm də mənim üçün qeyri-adi tarixdir...”

Sözün düzü, bu günün qeyri-adiliyinin səbəbini ondan soruşmasam da, haqqında material toplamağa yollandığım qəhrəmanımızın – şəhid Daşqının doğum tarixi ilə maraqlandım. İnternetdən dəqiqləşdirdim ki, onun doğum günü 22 avqusta təsadüf edir. Açığı, Gülnaz ananın söylədiyi tarixçəylə əlaqədar çox düşünsəm də, tapa bilmədim.

Onların evlərinə çatanda birdən Gülnaz xanım sanki doğma balasını qarşılayırmış kimi dil açdı: “Ay Daşqın, hər il doğum günümdə çiçək alıb məni sən təbrik edərdin. Artıq iki ildi gəlmirsən, məni təbrik etmirsən! Bax, özün gör, indi məni Cəmilə xanım təbrik etmək üçün gəlib...”

Bu ürəkdağlayan kədərli sözləri eşidərkən çox duyğusallaşsam da, özümü ələ almağa çalışdım, tələsik operatorumuzu kənara çəkdim. Çəkiliş vaxtının uzanacağını nəzərə aldığımdan xahiş

etdim ki, gül mağazası ilə əlaqə saxlasın, bizə tez bir dəstə tər güldən buket bağladıb gətizdirsin. İstədiyimi yerinə yetirən operator həmin anları kameranın yaddaşına yaza bildi. O anda əlimdən başqa bir şey gəlmirdi onsuz da. Təsəlli olaraq əlimdəki buketi Gülnaz xanıma uzadıb kədərlə:

– Anacan, bu gülləri sənin üçün oğlun Daşqın göndərib, – deyərək ona ürək-dirək verməyə çalışdım...

Təsəlli vermək istəyirdim, ancaq ana daha çox təsirlənib kövrəldi, göz yaşını sel kimi axıtdı. Elə mən də ona qoşulub göz yaşlarıma hakim ola bilmədim. İtirdiyim doğmalarımı, yerlilərimi, qarabağlıları və şəhidlərimizi yada salıb doyunca ağladıq...

***Ötən əsrin sonlarında...***

90-cı illərin əvvəllərində Azərbaycana düşmən kəsilmiş Ermənistanın işğalçı siyasəti nəticəsində Qarabağdakı məlum münaqişəli hadisələrlə əlaqədar doğma rayonumuzdan da böyük köç baş vermişdi. Gülnaz xanımın altı nəfərlikailəsi 1993-cü ildə Kəlbəcər rayonundan məcburi köçkün düşərək əvvəl Goranboy rayonundakı "Türk qəsəbəsi"ndə, sonra isə Samux rayonunun Seyidlər kəndində müvəqqəti məskunlaşmışdılar. İlk qız övladı Pərvanə 1986-cı ildə, böyük oğlu Eşqin isə 1987-ci ildə Kəlbəcər rayonunun Güneypəyə kəndində anadan olub. Daşqın üçüncü övladı idi Gülnaz xanımın. O, 22 avqust 1989-cu ildə Rusiya Federasiyasının Krasnodar şəhərində anadan olmuşdu.

Gülnaz xanım çox erkən ailə qurub. Daşqının həlak olması isə onun və həyat yoldaşı Hidayət müəllimin belini vaxtından əvvəl bükdü. Övlad itkisi sanki bu cavan ailənin üzvlərinin əksəriyyətini vaxtından tez yaşlandırıb.

Şəhidin anası Gülnaz xanım söyləyir**:**

...Hər zaman övladlarımla fəxr etmişəm. 4 övladım var idi, dördü də tamam fərqli. Çox istəyirdim, canımın parçası idilər,

həmişə deyirdim ki, övladlarımın ayağına dəyən daş mənim ürəyimə dəysin, amma onlara heç nə olmasın. Daşqın o qədər gözəl qəlbə sahib idi ki, onu sevməmək mümkün deyildi. Daşqın mənimlə o qədər sirlərini bölüşürdü ki, mən ona sadəcə deyirdim: Daşqın, artıq sənin də yaşın keçir, evlən, sənin də xoş gününü görək. O isə mənə həmişə "ana, evlənəcəm"deyirdi. Ailəsinə bağlı bir oğul idi. Onun hər hərəkətini, duruşunu, geyim tərzini, danışığını, söylədiyi şeirləri o qədər sevirdim ki, bunu dillə ifadə edə bilmərəm. Daşqınsız həyat fikirləşmədim, sadəcə, onun toyunu, xoş günlərini fikirləşdim, amma ən böyük acı olan övlad acısını çəkirəm. Allah heç bir anaya bu acını yaşatmasın. Onun yoxluğu qəlbimdə sağalmaz yaradı, qalan övladlarıma çox şükür, ancaq kimsə kimsənin yerini verməz...

Hər qapım açılanda elə bilirəm o gəlib, "ay ana"deyə məni çağırır. Öyrəşə bilmirəm onsuz həyata. Daşqın hər işdə mənə, atasına kömək edirdi. Daşqına çox bağlanmışdım, bəlkə də hiss etmişdim ki, son günlərimizdi. Daşqın 24 oktyabrda səfərbərlik bölməsindən qayıdıb gələndə sevindim ki, bəkə də getməyəcək, amma növbəti gün vidalaşanda son dəfə onun qoxusunu içimə çəkib, bağrıma basaraq o qədər ağladım ki... Ona dedim ki, oğlum, bizi qoyub getmə. Amma o, Vətəni hər şeydən üstün tutdu. Vətənin ağır dərdinə dözməyən oğlum ərizəsini yazaraq 44 günlük İkinci Qarabağ müharibəsinə könüllü yollandı.

Noyabr ayının 3-ü səhər idi. Daşqın mənimlə nəsə çox soyuq danışdı, dedim ki, niyə mənimlə soyuq danışırsan?! Dedi ki, yox, soyuq danışmıram. Soruşdu ki, atam hardadı? Dedim ki, Yevlaxa gedib. Dedi ki, yaxşı, özüm zəng edərəm ona. Dedim ki, nəsə olub, niyə soyuq danışırsan mənimlə?! Dedi ki, yox, narahat olma. Son sözü bu oldu: "Ana, Allahın zamınında olasınız, Allah sizi qorusun, bir-birinizlə mehriban olun və bilin ki, hər şey gözəl olacaq..."

Dedim ki, ay bala, sən müharibədəsən, o nə sözdü deyirsən?

Allah səni qorusun, sən Allahın zamınında olasan. Sən demə, oğlum son sözünü mənə deyib. Səsini eşitdim, amma eləcə ürəyim titrəyirdi ki, Daşqından bir xəbər gələcək.

***Atası axşam gələndə anası deyib ki...***

Sonra atasına zəng edib. Orxanla danışıb, bacısına da zəng edib. Atası axşam gələndə dedim ki, Daşqının bu danışığından nəsə narahat qaldım, sanki mənimlə vidalaşırmış kimi. Yoldaşım da, Orxan da dedilər ki, yox, əksinə, çox yaxşı danışdı bizimlə, sadəcə, müharibə şəraiti olduğuna görə fərqli olaraq bu dəfə qısa danışdı, dedi  ki, tezliklə hər şey yaxşı olacaq. Yenə də sakitləşə bilmirdim. Çünki əslində Daşqın evdən çıxıb gedən gündən sanki Allah-taala onun son gedişini agah etmişdi mənə: evimin işığı azalmışdı, gur yanmırdı. Getdiyi gündən canım xəstə düşdü. Nəvəm gəldi ki, belimə banka qoysun, soruşdu ki, nənə, haran ağrıyır, dedim, nə bülüm haram ağrıyır. Dedi, ay nənə, necə yanı bilmirsən haran ağrıyır?! Elə isə niyə banka qoydurursan? Növbəti gün həyətdə gəzərkən məni kürəyimin arasından sanki ikidəfə vurdular, çökdüm, dedim: “Allahım, sən övladlarımı qoru”... Daşqının zəngini gözləyirdim.

Elə bir vəziyyətə düşmüşdüm ki, sanki Daşqından qara xəbər gözləyirmiş kimi özümdə deyildim, o vaxta kimi ki, 5 noyabr gecəsi oğlumun şəhidlik xəbərini yoldaşıma qaynım verdi. O gündən bəri üzümdəki xoşbəxtliyim itdi...

4 noyabr 2020-ci ildə Laçın rayonu ərazisində gedən döyüşlərdəki ağır hərbi əməliyyatlar zamanı odlu silah və digər atıcı silah növləri ilə açılan atəş nəticəsində aldığı çoxsaylı zədələrdən qəhrəmancasına şəhadətə ucalıb Daşqınım. İndi bala həsrətiylə qocalıram, son nəfəsimə kimi Daşqına şeirlər yazacam, onun yolunu gözləyəcəm...

**Şəfiyev Hidayət (şəhidin atası):**

Daşqın o qədər gözəl övlad idi ki, onunla bağlı nə qədər xoş sözlər desəm də, kifayət etməz. Hər bir ağır işlərimdə, təsərrüfat işində daim mənə kömək edərdi. Atası olsam da, mənə gözəl məsləhətlər verərdi. Hər zaman hər şeyin yaxşı olacağını deyib ümidlə yaşayan bir insan idi. Onunla ata-bala zarafatları da edərdim. O, mənim sadəcə oğlum yox, əsl dost, sirdaşım, qardaşım idi. Sevincli, gözəl günlərimiz olub, yoldaşımın, mənim ad günümüz olanda dörd övladımız da yanımızda olub. Danışdıqca ürəyim parçalanır. Daşqın az maaş almasına rəğmən hər zaman kasıb insanlara, əsgərlərimizə kömək edərdi. Həddən çox olan videoları da onun vətənpərvərliyindən, vətənə sevgisindən irəli gəlirdi. Müharibə başlayan zaman könüllü yazılanda dedim ki, oğlum, bizi qoyub hara gedirsən?! Dedi ki, ata, mən getməyim, o getməsin, bəs Vətənimizi kim qorusun?! Oktyabrın 23-ü idi, Daşqına zəng gəldi, soruşdum ki, kimdi, dedi ki, ata, artıq könüllüləri çağırırlar. Elə bil qəlbimə ox batırdılar. 24-ü günü onu qeydiyyata alınması üçün Gəncədə yerləşən Kəlbəcər Səfərbərlik bölməsinə apardım. Lakin həmin gün pandemiyayla bağlı yoxlanış olduğu üçün evə qayıdası olduq. Sanki içimə bir rahatlıq çökdü. 25 oktyabrda oğlumun üzünü son dəfə gördüm. Onu qucaqlayıb o qədər ağladım ki, bəlkə də hər ikimiz də hiss etmişdik son görüşümüz olduğunu. Məni qucaqlayıb güldü, dedi ki, ata, hər şey yaxşı olacaq, gülümsəsə də, gözündən axan yaş damcılarını gizlədə bilmədi. Onu yola saldıq. Döyüşə gedəndə zəng etdi, səsini eşidəndə çox sevindim. İki gün ondan zəng gəlməyəndə narahat olurdum. Son zəngi noyabrın 3-də oldu. Dedi ki, ata, özünüzdən muğayat olun, bir-birinizə yaxşı baxın. Elə bil hiss etmişdi şəhid olacağını. Həmin gündən sonra Daşqından zəng gəlmədi. Hər dəfə telefona zəng gəldikcə qaçıb telefona baxırdıq. Nəhayət, noyabrın 5-də oğlumun acı xəbərini qardaşıma veriblər. Dünyam başıma yıxıldı. O gündən gedən xoşbəxtliyimizi bir daha

geri qaytara bilmədik.

Qəhrəman şəhidimiz 6 noyabr 2020-ci ildə Samux rayonunun Seyidlər kənd qəbiristanlığında dəfn edilib. 20 may 2021-ci ildə Sa- -mux rayonunda Vətən müharibəsi şəhidi Daşqın Şəfiyevin əziz xatirəsinin əbədiləşdirilməsi üçün tikilmiş ehsan bulağının açılışı olub.

Şəhid atasının qırıq-qırıq səsi hələ də qulaqlarımdadır: "... Bizim ailə Kəlbəcərdən köçkün düşən zaman Daşqın körpə uşaq idi. Doğma elin heç bir dağ-qayası belə onun yadında qalmamışdı. Amma onun ürəyi Vətən sevgisi ilə elə döyünürdü ki, sonda dözmədi, özünü düşmənlə savaş meydanına atdı. Oğlumun taleyinə yazılan şəhidlik onun Kəlbəcərdə toy etmək arzusunu yarımçıq qoydu. Əksinə, o, qəhrəmancasına şəhidlik zirvəsinə ucaldığına görə xalqın əbədi sevgi ünvanına çevrilənlərdən oldu. Minlərlə Vətən övladı kimi, oğlum da qəhrəmanlıq göstərərək Tanrı dərgahına qovuşdu..."

...Ailənin arxiv materialları ilə tanış oluram. Daşqın çəkildiyi videolardan birində deyir: "Əslən Kəlbəcərdənəm. 1995-2006-cı illərdə Samux rayonunun Seyidlər kənd məktəbində orta təhsilimi almışam. Məcburi köçkünlük ağır dərddir, mən və həmyerlilərim 1993-cü ildən bəri bunun ağrısını çox yaşamışıq. Doğma yurd-yuva həsrəti hər zaman düşüncələrimizə hakim kəsilib, ürəyimizi göynədib. Elə bu səbəbdən də düşmən tapdağında olan torpaqlarımızın işğaldan azad edilməsi düşüncəsi həmişə varlığıma hakim kəsilib. Hazırda hərbçi qardaşım Orxan və ata-anamla birlikdə yaşayıram.

27 sentyabrda başlayan İkinci Qarabağ müharibəsində iştirak etmək üçün könüllü olaraq müraciət etmişəm və döyüşə gəlmişəm. İndi buradayam. Taleyimin necə olacağını deyə bilmərəm, çünki meydanda Vətən savaşı var. Varlığım Vətənimin varlığına fəda olsun. Sevdiklərimi sizlərə əmanət edirəm..."

Döyüş yoldaşları isə kədərlə xatırlayırlar: "Sıralarımızda kəlbəcərli Daşqın var idi. Cəsur döyüşçü idi. Ermənilərin postunu

təkbaşına təmizləmişdi. Ayağından vurulub diz üstə düşsə də, dayanmadan ermənin üzərinə gedirdi. Sonda ağır silahla vurdular onu..."

***Ailənin yaralı könlünə məlhəm – medallar və...***

Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli sərəncamına əsasən, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Daşqın Hidayət oğlu Şəfiyev ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", "Laçının azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

**Şəfiyev Eşqin (şəhidin qardaşı):**

Daşqın bizim ailənin gülüş səbəbi idi, üzümüzün gülüşünü özüylə aparıb. Qardaş sözü deyəndə qəlbimdəki qardaş dağını hiss edirəm. Daşqın məndən kiçik idi, amma həmişə ailəmizdə hər şeydə nəsihətlər verər, heç kimin qəlbini qırmazdı. İnsanın öz doğmasını, əzizini itirmək acısını ancaq bizim kimi dərdlilərbilər. Çox çətindir birlikdə böyüdüyün qardaşını torpağa tapşırmaq. Körpəliyimizdən kasıbçılıqdan korluq çəkmişik. Elə günlərimiz olub ki, paltarımız su olanda, xəsdələnməyək deyə, anam onları tərs üzünə geyindirib bizə. Çünki dəyişəyimiz yox idi, əzab-əziyyətlə böyüdük, az maaşla dolanırdıq. Sonra da qardaşımın şəhidliyi... Bəzən düşünürəmki, kaş uşaq olaydıq, yenidən böyüyəndə qardaş dağı görməyəydim. Qardaşımızdan nə qədərçox danışsaq da, yaddaşımızda heç yerə sığmayacaq qədər uzun xatirələr qoyub getdi...

Şəhidimizin qardaşı Orxan isə 2015-ci ildə hərbi xidmətdə olub. Xidmət müddətində həm də 2016-cı ilin Aprel döyüşlərində iştirak edib. 2018-ci ildə Azərbaycan Ordusunun müddətdən

artıq qulluqçusu kimi yenidən ordu sıralarına qoşulub, 2020-ci ilin sentyabrında başlayan 44 günlük İkinci Vətən müharibəsində Toğana istiqamətində döyüş fəaliyyətini yerinə yetirib, 2021-ci ildə müqaviləsi bitdiyi üçün ehtiyata buraxılıb.

***Dərd dillənir, qəm ələnir...***

**Orxan** şəhid qardaşı Daşqın haqqında bunları söyləyir: “Qardaşım hər gün ordu sıralarına qoşulmaq üçün hərbi komissarlığa gedirdi. Nəhayət, arzusuna çatdı, onu da könüllü kimi ordu sıralarına qəbul etdilər. Yola salanda gözüm dolmuşdu. Mənə ərklə “Niyə gözün dolur? Şəhid qardaşı olacaqsan! Mən gedəcəm, arxanda yüzlərlə insan olacaq!” – dedi. Qucaqlaşdıq, görüşdük, getdi...”

Orxan sanki qardaşını yenidən kəşf edir: “Deyirlər, insana arxadı, dayaqdı qardaş... O da Daşqın kimi qardaş... Daşqın mənim sadəcə qardaşım deyildi ki... Mən nə zaman çətinliyə düşəndə birlikdə həll etmişik, hər günümüz bir olub, eyni evdə yaşamışıq, hətta evdə birlikdə yatıb, birlikdə durmuşuq. Geyindiyimiz paltarlar belə eyni idi. Mən hərbidə işləyən zaman Daşqın eləcə mənimlə, Vətəniylə fəxr edirdi. Eləcə deyirdi ki, qaqam, özünü qoru. Məndən yeddi yaş böyük idi. Məni həmişə qorumağa çalışırdı. Mən isə onun kimi qardaşa sahib olduğum üçün özümü şanslı hiss edirdim. İndi özümü onsuz çox pis hiss edirəm, sanki qol-qanadımı qırdılar.

O, çox zarafatcıl idi, heç kimin qəlbini qırmazdı, həmişə onunla ciddi zarafatlaşıb dalaşardıq. Yaşda kiçik olmağıma baxmayaraq, onu yıxardım, sonra isə görürsən, səndən güclüyəm, deyərdim. O isə gülümsəyərdi. İndi gücsüzəm, mənim gücüm Daşqın imiş. Mən qardaşımla fəxr edirəm və indi başa düşürəm ki, o, məndən güclü imiş. Daşqınla xəyallarımız belə eyni idi: Kəlbəcərdə birlikdə toy etmək. İndi isə qardaşımın ancaq şəklini

Kəlbəcərə vurublar.

Qəlbimdəki "qardaş dağı" silinməz dağdı. Gecələri onunla dərdləşərdik, indi onun yanına çox zaman gecələr gedirəm. Ona qardaş həsrətinin necə çətin olduğunu söyləyirəm. Daşqınla son danışığımızda ilk dəfə idi ki, onun səsini eşidib ağlamışdım. Dedi ki, Orxan, ağlayırsan. Dedim ki, özünü qoru. Eyni sözü o mənə dedi və son sözü mənə bu oldu: "Mən şəhid olsam, ağlama, çünki bütün Azərbaycan sənin qardaşın olacaq!"

Bu sözdən daha çox təsirləndim, pis oldum. Çünki öz canım-qanım qardaşımı itirmək istəmirdim. 5 noyabrda qardaşımın şəhid xəbərini dedilər, sanki dünyam qaraldı, inana bilmədim. Səfərbərlik bölməsinə gedib dedim ki, qardaşımı mənə göstərin. Dedilər, gəlir, bir şəhid göstərdilər, baxıb gördüm ki, qardaşım deyil, o an ümid etdim ki, qardaşım yaşayır. Sonra başqa bir şəhid gəldiyini dedilər, üzünü açdılar, baxdım ki, Daşqındır. Həmin an mən öldüm. Qardaşımı evə gətirdilər, bir gecə yanımızda qaldı, tabutunu açmağa icazə vermədim. Hər birimizin xəyalında gülər üzlü Daşqın kimi qalsın istədim... Növbəti gün qardaşımı əbədi olaraq torpağa tapşırdıq. Daşqın bir dəfə öldü, mən isə gündə min dəfə ölürəm..."

### *Nakam sevgi nağılı,*
### *yaxud gürcü qızı Nananın Daşqına saf məhəbbət faciəsi*

...Onlar 44 günlük Vətən müharibəsində tanındılar. Bu qısa müddət ərzində sosial şəbəkələrdə yayılan videolarını hər kəs izlədi, qovuşmaları üçün dualar edildi. Amma Daşqın Şəfiyev 5 noyabrda Laçının işğaldan azad olunması uğrunda gedən döyüş əməliyyatlarında qəhrəmancasına şəhid oldu. "30 ildir həsrətində olduğumuz torpaqlar alındı və məni alan olmadı"deyən gürcü qızı Nana Davidaşvili ilə sayt əməkdaşı söhbətləşib. Nana yeddi yaşındaikən qəza nəticəsində ata-anasını itirir, altı yaşlı bacısı

ilə tək qalırlar. Qısa müddətdən sonra Gürcüstanda yaşayan Azərbaycan əsilli Nazlı Muradova ona və bacısına sahib çıxır. On il onlara ana kimi baxır və böyüdür. On ildən sonra onlar yenidən anasız qalırlar: "...Onun oğlu həbsxanada yatırdı, narkotik istifadəçisi idi. Oğlu azadlığa çıxandan sonra onlar Gürcüstandan Türkiyəyə köçdülər. İki ildir ondan xəbər ala bilmirəm. Sosial şəbəkədə nə qədər axtarsam da, tapa bilmədim. Düşünürəm ki, bizi oğlundan qorumaq üçün bütün əlaqələri kəsdi və yenidən ikinci dəfə anamızı itirdik. Ana tərəfdən kimsəmiz yoxdur, bir əmim var, Almaniyada yaşayır, biz tanımırıq. Valideynlərimizi itirəndə babam əmimə zəng etdi ki, uşaqlara sahib çıx. Onun da uşaqları icazə vermədi. Dedi ki, mənim onlara baxmağa səbrim yoxdur, aparın uşaq evinə verin. Onlar bizi istəmədi, biz də onları həyatımızdan sildik. Babam çox yaşlı idi. Üstəlik, övlad dərdi vardı..."

Nana Davidaşvilinin 19 yaşı var, hazırda Tibb Universitetinin II kursunda kardiologiya üzrə oxuyur. Bacısının 17 yaşı var. Bu yaşa kimi Gürcüstan dövləti onlara maddi dəstək verib. Hazırda Nana həkim köməkçisi kimi çalışır və tələbə təqaüdü ilə maddi ehtiyaclarını ödəyir. Çətin də olsa, məşhur videonun çəkilmə gününü xatırlayır: "Azərbaycanı çox sevirəm. Müharibə başlayanda biz də azərbaycanlı tələbələrdən narahat idik. Sosial mediadan xəbərləri izləməyə çalışdıq. Bir gün dərsdən evə gəldim ki, azərbaycanlı tələbələr sevinirlər. Həmin gün hansısa şəhər işğaldan azad olunmuşdu. Mən də sevindim. Birdən kimsə dedi ki, "30 ildən sonra Qarabağı aldılar, biz yenə evdə qaldıq, alan olmadı".

Bu sözə uyğun video çəkdim və gülmək üçün hekayə bölümündə paylaşdım. Kimsə videonu yüklədi və yaydı. Həmin gündən video Daşqına çatdı və o, cavab videosu çəkdi. Dostlar həmin videonu mənə göndərdilər. Videolarımız bütün Azərbaycana yayıldı. Düzü, bu qədər izləniləcəyini təsəvvür etmirdim. Əvvəli

adi zarafatla başlasa da, sonu göz yaşı ilə bitdi...”

Videodan sonra Daşqını axtarmadığına çox peşmandır Nana. Deyir, axtarmağa, yazmağa utandım: “...Şəhid olandan sonra telefonunu qardaşına verirlər. O videonu görəndən sonra məni axtarıb tapdı. Dedi ki, Daşqın şəhid olub. Həmin gün dünya başıma yıxıldı, uzun müddət özümə gələ bilmədim. Ölümündən sonra tanıdım, çox bağlandım. Daşqına üç mahnı, iki şeir yazdım. İndi Orxanla hər gün danışıram. Anası, atası ilə danışmağa çalışdım, heç birimiz danışa bilmədik, qəhər, göz yaşları imkan vermədi. Orxan yaxın dostumdur və təsadüfə baxın ki, Orxanla ad günümüz də eyni tarixdədir. Ötən il nə o, nə də mən ad günlərimizi qeyd etdik. Çox səmimi və mehriban insanlardır. Daşqının ad günündə və ildönümündə evlərinə çiçək və gül göndərdim. Onun şəhid olduğu yeri ziyarətə gedə bilmədim, buna dözə bilmərəm. Amma ən böyük arzum otağını görmək və məzarını ziyarət etməkdir. Daşqın şəhid olandan iki ay sonra ilk dəfə yuxuda görüşdük. Çən-duman idi. Daşqının üzünü aydın görə bilmirəm, ancaq səsi açıq-aydın gəlirdi – videolardakı səs idi. Məni dağ kimi bir yerə çağırdı: “Nana, gəl...”dedi. Düzənlik, təpəliklər olan bir yer idi. Dedi: “...Kəlbəcərdi...” Soruşdum ki, burda üşümürsən? Yer ikihissəli idi: bir tərəf çiçəklərlə, bir tərəf qarla örtülü. Çiçək olan tərəfi göstərib dedi ki, “ən çox burda oluram”. Sonra balaca bir çiçək dərdi. Əlimi uzatdım ki, götürüm, vermədi. Bir daşın üzərinə qoyub dedi ki, “buzludu, isinsin, götürərsən”. Çiçəyə baxdım, bir də gördüm dumana qarışıb gedir. Sanki taleyimə itirmək yazılıb, bir də üzünü görə bilməyib, sevdiyim birini itirdim. Həyatda qovuşmasaq da, fotolarımızı proqramla birləşdirmək də bir təsəllidir mənə...”

**Şəfiyeva Pərvanə** ***(şəhidin bacısı):*** “3 qardaşın tək bacısı idim. Qardaşlarım mənim arxam-dayağım idilər. Mən yoldaşımdan ayrıldım, iki övladımla birlikdə valideynlərim və iki qardaşımın himayəsində yaşadım. Evin böyük uşağı mən idim, məndən sonrakı

qardaşım Eşqin evli idi. Daşqın isə evimizin ortancılı idi. Mən həmişə özümü onlarla güclü hiss etmişəm, həyata tutunmuşam. İndi isə gücümün yarısını itirmişəm. Daşqın bizə o qədər bağlı idi ki, onun kimi qardaş bir daha gələrmi yer üzünə, bilmirəm. O, sanki Allahın bizə göndərdiyi mələk idi, həyatımızın ən gözəl günlərini birlikdə keçirdik, indi biz necə xoşbəxt ola bilərik?!. Daşqının ucalığından qürur duyuram. Amma yoxluğundan acı çəkirəm.

Daşqın bir il Qazaxıstana işləməyə getmişdi. Məni ata-anama tapşırıb dedi ki, Pərişdən narahatam. İndi o, məni onsuz həyatda yaşamağa məcbur etdi. Yaşamağa məcburuq. Bəzən acılarımı gizlətmək üçün gülümsəməyə çalışıram. Üzüm hərdən gülsə belə, qəlbim onsuz qan ağlayır. Çox zarafatcıl, gözəl gülüşə sahib qardaşım var idi. Ona çox bağlanmışdım, hər axşam işdən gəlmə saatını gözləyirdim. İndi gözlərim qapıda qalır, amma o gəlmir... Eşidəndə ki, Daşqın da döyüşə gedəcək, səhəri işdə idim, gəlib mənimlə görüşəndə onu qucaqlayıb dedim: "Allah səni qorusun, özünü qoru, bizi sənsiz qoyma". Dedi ki, erməni məni gözləmir ki, sağ-salamat qələbəylə gələcəm inşallah. Sağollaşdıq, iki-üç addım atandan sora geriyə dönüb məni təkrar qucaqlayanda ağladım. Dedi ki, səni Allaha tapşırıram.

Daşqın cavab verməsə də, hər gün ona telefonda yazdım, cəmi dörd dəfə onunla danışdım. Hər zəngində bizi Allaha tapşırırdı. Sonda şəhid xəbərini aldım, hayqırtıyla onu səsləyib ona ehtiyacım olduğunu dedim, amma o gəlmədi. Həmin gündən mən qardaşımın həsrətindəyəm..."

### *Ana ilə ata ayrılandan sonra...*

**Mehriban Əliyeva** ***(şəhidin bacısı qızı):*** "Mənim dayımla o qədər gözəl xatirələrim var ki, bunu deyəndə belə qəlbim titrəyir. Dayılarıma çox bağlı idim. İnsan da dayılarına bu qədər bağlı

olarmı, bilmirəm. Anamla atam ayrılandan sonra dayılarımı özümə ata əvəzi seçdim. İstədim hər zaman yanımda olsunlar. Böyük dayım Eşqin evli idi. Amma ortancıl dayım Daşqınla kiçik dayım Orxan subay idilər. Onlara çox bağlanmışdım. Onların xətrini o qədər çox istəyirdim ki, bəzən onları başqa qızlara belə qısqanırdım. Kimsə mənim yanımda onlar haqda pis nəsə deyə bilməzdi, həmin insanla dalaşırdım.

Daşqın dayımın isə qəlbimdə hər zaman yeri xüsusi idi. Onu özümə həm ata, həm də dayı kimi gördüm. Çünki həm buna layiq insan idi, həm də yaşca məndən çox böyük idi. 17 yaş aramızda fərq var idi. İndi mənə çox çətindi. Çünki mən həm atamı, həm də böyük bir insanı itirdim. Eyni evdə qaldığımız insanın oturduğu yeri boş görmək dözülməzdi. Dayım havalar soyuq olanda tez-tez xəstələnirdi, evdə onun dərmanları belə durur, mən necə onu qəlbimdən çıxara bilərəm ki?! Bu, mümkünsüzdü...

Evimizin hər tərəfində xatirələrimiz var. Çox vaxtlar paltarlarını mən ütüləyirdim, yeməyini mən verirdim. İndi isə ürəyim acı çəkir, onun paltarının qoxusunun itdiyini görəndə... Dayım işdən gələrkən bir nəfərlik yemək vardısa, onu dayıma çəkərdim, o isə əlavə yeməyin olmadığını görəndə öz payını mənimlə bölüşərdi. Böyük qəlbə sahib idi, məhz bu üzdən də hər kəs onun xətrini istəyirdi. İndi isə onsuz həyatda özümü kimsəsiz hiss edirəm. Sanki atamı 4 noyabrda itirdim, çox çətindi. Dayımı hər zaman yaşadacam, həm də son nəfəsimə kimi..."

Film çəkilişləri zamanı sanki özüm özümlə danışaraq bunları bir neçə dəfə pıçıldadım: sən, ey əziz Daşqın, Vətən və xalq üçün etdiklərinlə, çəkildiyin videolarda da görünən saf səmimiyyətinlə hər zaman insanlarımızın ürəyində yaşayacaqsan, sayğıyla yad ediləcəksən. Ruhun qarşısında baş əyirik! Ruhun şad olsun, şəhidimiz!

Görüşümüzün sonunda şəhid anasına son sualımı verdim. Hər bir ana istəyir ki, oğul çiynində məzara getsin. Daşqın statuslarının

birində yazırdı ki, geri dönsəm, tək anamın göz yaşlarına görə qayıdacağam, çünki o mənim yoxluğuma dözməz. Oğlunuz geri qayıtsa, nə edərdiniz?

Dərindən ah çəkib kədərlə cavab verdi: “Oğlum sağkən xalqımız, torpaqlarımız üçün şirin canından keçdi, bu üzdən də buna zərrə qədər peşman deyiləm, əksinə, qürur duyuram. Təəssüflənirəm ona görə ki, o hələ gənc, subay idi, bir nişanəsi qalmadı. O, ali təhsil almaq, uğrunda canından keçdiyi dədə-baba yurdunu – doğma Kəlbəcəri ziyarət etmək kimi arzularla yaşayırdı. Əgər geri dönməsi mümkün olsaydı, düşünmədən onu görmək üçün şirin canımı qurban verərdim...

Şəhid anasının əllərindən öpüb qarşısında baş əymək üçün dizlərimi yerə atmaq istəyəndə Gülnaz xanım ikiəlli qolumdan tutdu, dərhal ayağa qaldırdı məni...

Daşqının itkisinə dözməyən ana kədərini, xatirələrini şeirə köçürür, təsəllisini yazdığı lirik əsərlərdən alır. Məqalənin sonunda onun şeirlərindən nümunələri bura əlavə etməyi özümə borc bilirəm. Bir şeirini də mənə həsr edib əziz şəhid anası...

**Daşqın**

Elə xətt çəkmisən üstümdən mənim,
Daha yuxuma da girmirsən, Daşqın.
Şəkillər yoldaşım, sirdaşım olub,
Mənə yaman uzaq olmusan, Daşqın.

Sənsiz qabar-qabar olubdu dilim,
Xəyallar qururam yanına gəlim,
Gəlim cənnətinə qoy səni görüm,
Məndən yaman uzaq olmusan, Daşqın.

Daha dözüm yoxdur sənsiz yaşayım,
Bu dərdi, bu qəmi necə yaşayım?
Yolumu azmışam, deyən naşıyam,
Məndən yaman uzaq olmusan, Daşqın.

Cəhənnəm odunda yanıb-yaxıllam,
Gülnaz acı çəkir, şişə taxıllam!
Bu dünyanın gedişinə baxıram,
Gen dünyamdan uzaq olmusan, Daşqın.

## Dönmüsən

Bir zaman qəlbimin arzu-diləyi,
İndi alışan bir közə dönmüsən.
33 yaşındı, gəlib yaxın, yad,
İndi ah-naləyə, aha dönmüsən.

Yarımçıq qalıbdı arzu-istəyin,
Sənsiz viran qalıb gülün, çiçəyin.
Daha yox olubdu sevinc-gülməyin,
İndi göz yaşı ilə gölə dönmüsən.

Sənsiz ayrılığım qəm-qüssə olub,
Gülnazın baharı qarlı qış olub.
Günəşli gündüzüm qaranlıq olub,
Göydə bulud olub, selə dönmüsən.

## Cəmiləm

Allahın verdiyi mənə payımsan,
Gündüzlər Günəşim, gecə Ayımsan.
Əlçatmaz zirvəmsən, bir mayağımsan,
Yurdum Kəlbəcərin fəxri, gözü Cəmiləm.

Sən də şəhid kimi belə doğuldun,
Vətənin dar günündə canını qoydun,
Hər şəhid ailəsinin yanında oldun,
Kəlbəcərin fəxri, gözü Cəmiləm.

Cənnətdən gəlmisən, cənnət mələyim,
Başın uca olsun belə deyəyim,
Qələmin düşməsin, canım, ürəyim,
Kəlbəcərin fəxri, gözü Cəmiləm.

Qoy Tanrı yolunu açıq eyləsin,
Qoy Zəfər marşları səninlə olsun!
Gülnazın sevincdən gözləri dolsun,
Kəlbəcərin fəxri, gözü Cəmiləm.

# KƏLBƏCƏRİN ŞƏHİDLİK ZİRVƏSİNƏ 18 YAŞINDA UCALMIŞ FƏXRİ



İkinci Qarabağ müharibəsindən bizi qısa müddət ayırsa da, 44 günlük şanlı qələbələrlə bol o hadisələr tariximizə və insanlarımızın ömür yoluna qızıl hərflərlə həkk olunduğundan müzakirələrə, analizlərə, araşdırmalara ehtiyac var.

Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin başçılığı altında çağdaş hərb tarixində unikal əməliyyatlara, qalibiyyətə imza atmış qəhrəman hərbçilərimiz sözlə deyil, əməlləri və qanları-canları ilə Vətənimizin bütövlüyünü, torpaqlarımızın müqəddəsliyini bərpa etdilər.

Günü bugün də bütün dünya ictimaiyyəti, "müharibəşünaslar" Şuşanı əliyalın azad etmiş gənclərdən ibarət peşəkar hərbçilərimizin şücaətindən heyrətləndiklərini bildirir. 2020-ci ilin 44 günü tariximizin 44 qələbəsinə bərabər oldu. Bu müqəddəs mübarizədə dövlət–rəhbər–ordu–xalq birliyi qalib gəldi: dünyaya səpələnmiş 60 milyonluq soydaşımız bir dəmir yumruq kimi birləşdi, qalibiyyət əldə etdi.

Vətənpərvərliyi, xalqsevərliyi Prezident İlham Əliyevdən nümunə götürən gənclərimiz – peşəkar hərbçilər və könüllülərdən ibarət Silahlı Qüvvələrimizin bu tarixi fəaliyyəti heç vaxt unudulan deyil.

O şanlı Vətən müharibəsində gənc ömürlərinə qıyaraq igidlik göstərmiş, qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış millət övladlarının hər birinə ehtiram, sevgi və sayğı

**hisslərimiz sonsuzdur.**

Belə igidlərimizdən biri də **Elnur Nəcəf oğlu Mustafayev**dir. O, 9 fevral 2002-ci ildə Bakı şəhərində anadan olub. Elnur 2008-ci ildə Bakı şəhərindəki 135 saylı tam orta məktəbin1-ci sinfinə daxil olub**,** 2019-cu ildə oranı bitirib. 18 yaşı tamam olandan, 2020-ci il mayın 7-si Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olarkən əvvəlcə Sumqayıt şəhərində, sonra isə Qusar rayonunda yerləşən "N" saylı hərbi hissədə nümunəvi xidmət edib.

27 sentyabr 2020-ci ildə İkinci Qarabağ müharibəsi başlayanda Elnur da Azərbaycanın minlərlə igid gəncinə qoşulur, elə hərbi hissədən müharibəyə yollanır. Xain qonşularımızın növbəti təxribatından sonra şanlı Azərbaycan Ordusu yağı düşmənə qarşı genişmiqyaslı əməliyyatlara başlayır. İlk gündən müharibədə göstərdiyi cəsarət və şücaəti ilə seçilən Elnur əvvəlcə Füzuli rayonu, daha sonra Cəbrayıl, Xocavənd istiqamətindəki döyüşlərdə fəal iştirak edir. Savaşın ilk günlərindən döyüşə atılan atıcı-pulemyotçu kimi Elnur Mustafayev son döyüşdən sonra atası ilə telefonla danışıb sevinclə xəbər verir ki, içərisi düşmənlə dolu olan iki maşın ermənini məhv edib...

...Elnurun atası Kəlbəcərin Ağcakənd kəndindən, ata babası Abbas Mustafayev Kəlbəcər elinin tanınmış söz ustadlarından olan şair, bir neçə kitabı işıq üzü görmüş, vətənpərvər insan, "Dəmirçi" təxəllüsü ilə yazıb-yaradan Dəmirçi Abbasın nəvəsidir. Anası isə Oruclu kəndindəndir. Ana babası Zakir Rüstəmov uzun illər Kəlbəcər rayon 18 saylı tam orta məktəbin direktoru vəzifəsində çalışıb, həmçinin ingilis dili müəllimi kimi fəaliyyət göstərib.

Valideynlərinin, qohumlarının erməni terrorçularının işğalı nəticəsində öz yurdlarından məcburi köçkün düşməsi Elnurun



həyatında dərin iz qoymuşdu. Kiçik yaşlarından valideynlərindən, qohumlarından, xüsusən də Firuzə nənəsinin dilindən düşmən tapdağı altında qalan yurdu barədə xoş xatirələri eşidə-eşidə böyümüşdü. Bu da onun körpəlikdən ailəsinə, vətəninə, dininə və xalqının etnik-mənəvi dəyərlərinə olan bağlarını daha da qüvvətləndirirdi. Onun doğma məmləkətinə, qəhrəmanlarımıza olan sonsuz sevgisinin formalaşmasında xüsusi rol oynayırdı.

Elnur xasiyyətcə çox mehriban, gülərüz və dostcanlı idi. Özünü dərk edəndən daim avtomat, tapança, tank kolleksiyası yığıb, hətta taxtadan da silahlar düzəldərdi. O, sevdiyi anasına bağlı bir uşaq idi. Hər dəfə Qarabağdan söz düşəndə anasına deyərmiş ki, qanıqara dayanma, mən böyüyəndə mütləq erməniləri bu avtomatlarla doğma torpaqlarımızdan təmizləyəcəyəm, Kəlbəcərdəki evimizi düşməndən xilas edəcəyəm, düşmən ayağı dəymiş pilləkənləri yenisi ilə əvəz edəcəyəm.

Elnur uşaqlıqdan Allaha ibadət yolunu seçib. Səkkiz yaşından idmanın sərbəst güləş növü ilə məşğul olmağa başlayıb. "Lokomotiv" Güləş Federasiyasının üzvü olub. Güclü bədən

quruluşu ona bu sahədə tez bir zamanda uğurlar qazanmağa imkan verib. O, yerli, həmçinin xarici ölkələrdəki (Türkiyə, İran, Dağıstan, Rusiya, Gürcüstan) yarışların iştirakçısı olub, müxtəlif vaxtlarda yüksək nailiyyətlər əldə edib. Yeddi ölkədən qızıl medal qazanıb. İran İslam Respublikasında 1-ci yerə layiq görülərkən müəllimindən Məşhəd ziyarətini istəyib və Məşhədi ziyarət edib. 2017-ci ildə Aprel döyüşləri şəhidlərinin xatirəsinə həsr edilmiş turnirdə də 1-ci yerə layiq görülüb. O zaman Elnur evə gələrək böyük sevinc hissi ilə anasına deyib: "Ana, bilirsənmi, mən bu medalı müqəddəs şəhidlərimiz üçün qazandım..."

Elnur o tarixi müharibədə 33 gün döyüşüb: 30 oktyabr 2020-ci ildə döyüş tapşırığını yerinə yetirən zaman Xocavənd rayonunda yerləşən Qırmızı bazar istiqamətindəki iştirakçısı olduğu şiddətli döyüşlər vaxtı şəhid dostunun meydanda qalan nəşini götürüb geri qayıdarkən xain düşmənin snayper atəşi nəticəsində qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib.

...Sanki o, şəhid olacağını çox-çox əvvəlcədən hiss edirmiş kimi hər fürsətdə ailəsini buna hazırlayırdı. Hələ şəhidlik zirvəsinə ucalmamışdan əvvəl, döyüşdə yaralı olarkən anasına zəng edib söyləmişdi: "Ana, şəhid olsam, mənim üçün ağlasan, haqqımı sənə halal etmərəm, başını dik tut, ağlayıb məni utandırmayasan ha..."

Yaralananda dostuna bunları deyib: "Anama söz vermişdim ki, səni görməmiş şəhid olmayacağam. Amma sözümü tuta bilmədim, alınmadı..."

Və ölümün üzünə dik baxaraq gülə-gülə şəhadətə çatıb. Nəşi həmin günlərdə ailəsinə təhvil verilib və 31 oktyabrda Binəqədi rayonunun Sulutəpə qəsəbəsində yerləşən Şəhidlər məzarlığında torpağa tapşırılıb...

Döyüşlərdə igidlik göstərmiş Elnur subay idi, bir bacısı var. O, Kəlbəcərin ən gənc şəhidi sayılır. Atası Nəcəf müəllim deyir: "...Elnur Vətən savaşında kəndimizin şəhidlik zirvəsinə ucaldı, nur üzlü övladım şücaəti ilə Ağcakəndin ən qürurlu, ən nüfuzlu

sakini oldu. Bu gün Elnur cismən aramızda yoxdur, ancaq həmişə qəlbimizdədir. Elnur əyninə hərbi forma geyinərək ximətə yollandı, şəhid qəhrəman kimi bayrağa bükülüb geri qayıtdı..."

Anası Ulduz xanım bildirir ki, bir dəfə bir xeyli dəst hərbi geyim, paltar alıb Füzuliyə yola saldıq. Bir dəsti isə xüsusi parçayla hazırladıb Elnurun ölçüsünə uyğun seçdik. Zəng etdik, parolla, obrazlı danışanda anladıq ki, həmin vaxt Şuşadadı. Dözmədim, dedim, ay Elnur, bəlkə Füzuliyə gedəsən, formanı dəyişəsən?! O dəqiqə onun bərk acığına getdi: "Oradakılara verin, kimdənsə artıq deyiləm!"

Ulduz xanım deyir, atası bildirir ki, Elnur sağdı, o, hər gün sübh tezdən yuxudan oyanan kimi Elnurun otağının qapısını açıb deyir: "Elnur, salam, sabahın xeyir, necəsən, mən evdən çıxıram, özünə yaxşı bax!" Axşam evə gələndə yenə Elnurun otağının qapısını açıb deyir:"...Elnur, gecən xeyrə qalsın, yuxun şirin olsun, bala..."

**"Şəhid atası"** şeirimi Elnurun ziyalı atasına ithaf etdim:

Başını uca tut, şəhid atası,
Sən qürur yerisən elin-obanın.
Cəsur böyütdüyün oğluna görə
Ruhu dinclik tapır ata-babanın.

Başını uca tut, buna haqqın var,
Sən oğul itirdin Vətən yolunda!
Bir oğul deyirəm – çinar duruşlu,
Dağlar gücü vardı onun qolunda!

Başını uca tut, ucadan-uca,
Oğlun qazandırıb bu ucalığı!
Onlar bu Vətənin qan yaddaşıdı,
Şəhidlər millətin məhək daşıdı!

Nəcəf müəllim deyir: “...Elnur bizim alnımızdan xəcalət tərini silib atdı, ikinci oğlum olsaydı, onu da Vətən üçün qurban verərdim...”

Bir dəfə hansısa təşkilat tərəfindən 11 min manat pul göndərilir, Nəcəf müəllimin acığı tutur, vəsaitdən imtina edib deyir ki, o qədər ehtiyac içərisində olan imkansız ailələr var, aparıb onlara yardım edin...”

**Zaur Laçın oğlu Nağızadə** dostu və döyüş yoldaşı Elnur haqqında xatirələrini bizimlə bölüşür: “Elnurla mən mülki həyatdan bir-birimizi tanıyırdıq. Qismət elə gətirdi ki, hərbi xidmətin ilk üç ayını eyni yerdə keçirdik və hər gün bir yerdə olurduq deyə Elnurla münasibətimiz daha da dərinləşdi. O dövrdə əsgərlərə günə bir pay yemək verilirdi, boyum hündür, çəkim çox idi deyə məni iki pay yeməklə təmin edirdilər. Əsgərlərə bir gün toyuq, o birisi gün kotlet verilirdi. Kotleti mən xoşladığım üçün Elnur öz kotlet payını mənə ötürürdü. Növbəti gün toyuq yeməyi veriləndə mən də payımı ona ötürürdüm. Çünki o da toyuğu xoşlayırdı. Üç ay ərzində biz bir yerdə qalırdıq: birlikdə yeyir, bir yerdə yatır, birgə dururduq. Hətta bir yerdə məşq də eləmişik.

Sonra Qusara göndərildik. İkimiz də piyada-motoatıcıydıq, burada da üç aya kimi bir yerdə xidmət elədik. Sonralar taburlara bölündük, ayrı-ayrı binalarda qalırdıq, yenə də yeməyimiz, idmanımız, xidmətimiz bir yerdə idi. Həftə sonu saç qırxdıranda görüşür, söhbət edirdik. Uşaqlıqdan bir yerdə böyüdüyümüzə görə xidmət yoldaşlarımız elə bilirdilər ki, biz həm də sinif yoldaşıyıq.

27 noyabrda Füzuli istiqamətindən döyüşlərə qatıldıq, aramızda haradasa iki kilometr məsafə var idi. Bundan sonra onu görə bilmədim: yalnız müharibənin 33-cü günü rabitədən xəbər tutdum ki, yaralanıb, təxminən iki saat sonra şəhidlik məqamına ucalıb. Elnurun şəhidlik məqamına yüksəlməsi xəbərini mən növbəti gün eşitdim. O, təkcə əsgər yoldaşı kimi yox, mənə

qardaş əvəzi idi. Bu hadisədən iki il keçsə də, özümü onsuz təsəvvür etmirəm. Elnursuz çox darıxıram. Onun bir sözü vardı: “Qardaşım, ən azından hər ailədən bir əsgər olmalıdır!”

Sanki bu gün üçün deyirmiş o sözləri...”

**Şəhidin təhsil aldığı orta məktəbin tərbiyə işləri üzrə direktor müavini Şəhidə Zeynalova danışır:** “Elnurun birinci sinfə qəbulunu bugünkü kimi xatırlayıram. Həm qonşusu, həm də dostu Əli Heydərovla bir sırada dayanmışdı. Mən hamıya Azərbaycan bayrağını payladım. Əlində gül dəstəsi olduğu üçün ona bayraq vermədim. Az keçmədi, gördüm, kimsə məni ətəyimdən dartır. Baxdım ki, balaca bir oğlan şirin ləhcə ilə “Mənim bayrağımı verin”dedi. Əlindəki gülü arxa sırada duran anasına verib, bayrağı məndən götürməyə gəlibmiş...

O zaman balaca Elnur bilmirdi ki, vaxt gələcək, əlində fərəhlə tutduğu o bayrağa bürünərək torpağa tapşırılacaq. O torpağa ki, onun uğrunda canından, qanından keçdi.

Elnur zarafatı çox sevən biri idi. Həmişə bununla bağlı sinif yoldaşları ilə anlaşılmazlıqlar olurdu. Sonralar biz də buna alışdıq. Məsələn, çox zaman məni görəndə “Salam, xala!” deyirdi.

Bir dəfə yanıma çağırıb dedim: “Elnur, bura məktəbdir, burada müraciət forması var. Bunları istifadə etməlisən, belə olmaz”.

**O, mənə hazırcavablıqla söylədi:** “Bəs siz mənə niyə “ay bala” deyirsiniz?

Hər ikimiz gülüşdük. İdmanı çox sevirdi. Deyirdi ki, İdman Akademiyasına qəbul olunacağam. İmtahanlardan sonra küçədə rastlaşdıq. Salamlaşdıq. Soruşdum ki, qəbul olundun? Yenə hazırcavablıqla cavab verdi: “Müəllim, akademiya qaçmır, mənim ayrı planlarım var. Əsgərliyə gedəcəyəm, ermənilərin başına od ələyəcəyəm!”

Burada “Od ələyəcəyəm” cümləsi mənim həmişə oğlanlara əsəbiləşəndə dediyim “Başınıza od ələyəcəm” fikrimə işarə idi. Yenə hər ikimiz güldük, beləcə ayrıldıq...

Xəyalıma gəlməzdi ki, bir neçə aydan sonra Elnurun şəhidlik

xəbərini alacağam. Həm də dostu, qonşusu, sinif yoldaşı Əli ilə birlikdə. Əvvəlcə Əlinin şəhid olması xəbəri gəldi. İki həftə sonra isə Elnurun...

Onun dilində bir şirinlik var idi. Bəzi sözləri özünəməxsus tərzdə tələffüz edirdi. O qədər şirin danışırdı ki, adam istəyirdi onunla saatlarla söhbət etsin. Xoşbəxt bir müəlliməm ki, Elnur kimi şağırdlərin yetişməsində, az da olsa, mənim əməyim olub. Nə yaxşı ki, Elnur mənim şagirdim olub..."

Elnurun göstərdiyi qəhrəmanlıq dövlətimiz tərəfindən də layiqincə qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə şəhadətindən sonra Elnur Mustafayev "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilib. Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli sərəncamına əsasən Elnur Mustafayev ölümündən sonra "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Son vaxtlar şəhidlərimizin əziz və müqəddəs xatirəsi yüksək səviyyədə uca tutulur. Elnuru sevənlərin, doğmalarının, kəlbəcərlilərin bir arzusu var: Binəqədi rayonunun Biləcəri qəsəbəsi, Yəhya Hüseynov küçəsi, fin evi-85 ünvanında, Mustafayevlər ailəsinin yaşadığı evin qarşısındakı adsız küçəyə Elnurun adı verilsin. Şəhidin xatirəsinin əbədiləşdirilməsi ən azından ailəsi üçün böyük təsəlli olardı.

Bəli, igid şəhidimizin ailəsi və doğmaları dövlətdən nəsə ummurlar, sadəcə, qəhrəmanımızın əziz xatirəsini əbədiləşdirməyi diləyirlər. Elnur kimi igidlərin gənc nəslə nümunəsini bu cür nümayiş etdirmək olar. Həqiqətən də gənc nəslin milli-mənəvi ruhda böyüməsi istiqamətində bu cür addımların təsiri çox böyükdür.

# İKİ QARABAĞ MÜHARİBƏSİ:
# ATA ŞAHİD, OĞUL ŞƏHİD

***Yeni nəsil və gələcək üçün onların həyat yolu, igidlikləri, Vətənə fəda etdikləri gənc ömürləri əsl nümunədir...***



**Zəmanəmizdə baş verən Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış Azərbaycan oğullarının qəhrəmanlıqlarla dolu ömür yolları həm də xalqımızın çağdaş tarixi deməkdir. Bu mənada yeni nəsil və gələcək üçün onların həyat yolu, igidlikləri, Vətənə fəda etdikləri gənc ömürləri əsl nümunədir...**

Hər zaman həmyaşıdlarından müsbət mənada seçilərək elinə-obasına faydalar verməyə çalışan **Nicat Habil oğlu Atayev** 1994-cü il martın 5-də Mingəçevir şəhərində dünyaya göz açıb. O, 2000-ci ildə Bakı şəhərinin 200 saylı orta məktəbinə gedib, Gəncə şəhərindəki 55 saylı Kəlbəcər orta məktəbini bitirib.

Orta məktəbi başa vurduqdan sonra 2011-ci ildə həqiqi hərbi xidmətə yolanıb. Hərbi xidmətini Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissədə keçib. 2013-cü ildə hərbi xidməti başa vuraraq geri qayıdıb, ali təhsil almaq üçün ciddi şəkildə universitetə hazırlaşıb. Bir ildən sonra Gəncə Dövlət Universtetinin Fiziki hazırlıq fakültəsinə qəbul olunub. Ali təhsilini başa vurduqdan sonra sənədlərini toplayaraq Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinə müraciət edib. 2019-cu ildə üç aylıq zabitlik kursunu keçdikdən sonra təyinatı Füzuli rayonundakı "N" saylı hərbi hissəyə verilib.

Leytenant Nicat Atayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğal altında saxladığı ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ömrü və döyüş yolu qısa olan Nicat Atayev Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı istiqamətində şəhid olub. O, döyüşlərdə öndə gedənlərdən biri kimi tanınırdı.

2020-ci ilin 27 sentyabr müharibəsinin ilk şəhidlərindən biri də Nicat Habil oğlu Atayev olmuşdur. Bakıda II Fəxri xiyabanda dəfn olunan Nicat Atayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamına əsasən şəhadətindən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

İgid döyüşçünün təltifi yalnız bundan ibarət deyil. O, Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaətinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 20 oktyabr 2020-ci il tarixli sərəncamına əsasən "İgidliyə görə", 25 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə şərəfləndirilib.

**Nicatın atası, polis mayoru və Birinci Qarabağ müharibəsinin qazisi Habil Atayev deyir:**"Mən özüm də 25 il dövlətimizə, Vətənimə layiqincə xidmət etmişəm. Oğlum Nicat da özü könüllü seçdi bu şərəfli ömür yolunu. Mən özüm də, qardaşım da müharibə veteranıyıq. Nəslimizin altı şəhidi var. Ağır döyüşlərdə iştirak etdiyimi evdə danışırdım, canımı Vətənimə, doğma torpaqlarıma qurban etdiyimi həmişə övladlarıma da aşılayırdım. Hər kəsi inandırırdım ki, haqq bizim tərəfimizdə olduğuna görə vaxt gələcək,doğma torpaqlarımız geri alınacaq, yağı düşməndən azad ediləcək.

2020-ci il sentyabrın 27-si günü gəldi, qisas anı yetişdi. Vətən uğrunda döyüşlərdə vuruşaraq şəhidlik məqamına ucalmaq mənim

özümə yox, o müqəddəslik sevimli övladıma qismət oldu. Döyüş ərəfəsində birinci sahəni bunların dəstəsi keçib, ikinci sahədə də hamıdan öndə Nicat gedib. Döyüş zamanı yaralananların ikisini çıxarıb. Minadan təmizləmə üçün zirehli maşını idarə edən sürücünü düşmən tərəfi snayperlə vurub. Həmin yaralını Nicat gedib çıxarıb, kənara gətirib təhvil verməк istəyəndə yolda özü də minaya düşüb, həlak olub. Oğlum Nicat Vətən yolunda şəhid olub. Vətən sağ olsun...”

**Nicatın anası Rəsmiyyə Əhmədova** isə şəhid oğlunun döyüş yollarını sanki birnəfəsə gedir. Ona elə gəlir ki, oğlunun köməyinə çatacaq. Lakin ana eləcə yana-yana və bir az da qürurla danışır:“... Bu gün oğlumun döyüşçü yoldaşları onun qəhrəmanlığından danışırlar. Onlar söyləyirlər ki, Atayev hər zaman öndə gedirdi, həm də qorxmurdu. Ayın 26-sı gecə saat 10-da mənə zəng vurub dedi: “Ana, nə var-nə yox, neyniyirsiz?” Sonra atasını, qardaşlarını soruşdu. Səsi çox gur gəlirdi. Danışandan sonra elə bil ürəyimdə kədərli bir hiss oyandı. Sanki Allah mənə dedi ki, bu, sənin övladınla sonuncu danışığındır. Doğrudan da, bir qədər keçmiş oğlum qəhrəmancasına şəhid olub. Bəlkə də bizi Allah ona görə yaradıb ki, qəhrəmanların anası olaraq torpaqlarımızın azad edilməsinə, Vətənimizin bütövləşməsinə xeyrimiz dəysin. Hər bir anaya da belə bir igid övlad böyütmək nəsib olmur. Tez-tez həmdərdlilərimə səslənirəm: şəhid anaları, ağlamayın, biz qəhrəmanlar anasıyıq. Mən o zaman ağlayardım ki, övladım Vətən uğrunda müharibənin döyüşlərindən qaçıb gizlənsin. Oğlum Nicat əsl qəhrəmandır, mən onunla fəxr edirəm...

**Nicatın qardaşı Ülvi Atayev** deyir ki, Nicatdöyüşlər başlamamışdan on gün əvvəl bir həftəlik məzuniyyətə gəlmişdi: “...Özünə saat almışdı. Bakıdan qayıtdı. Sabahısı gün Füzuliyə gedəndə saatı mənim qoluma taxıb dedi ki, bu saatı verirəm sənə, məndən yadigar saxla. Əgər müharibə başlasa, döyüşlərdən sağ-salamat çıxsam, saatı geri götürəcəm. Torpaq uğrunda şəhid olsam, bunu məndən yadigar olaraq özündə saxlayarsan. Şəhid olmamışdan əvvəl mənə dedi ki, hər şey ola bilər, hər şeyə hazır



ol. Məndən sonra evdə sənsən. Çalış yoxluğumu hiss etdirmə. Nicat sanki şəhid olacağını əvvəlcədən bilirdi, amma onu bizə hiss etdirmirdi. Şəhid qardaşı kimi onunla fəxr edirəm…"

Şəhid Nicat Atayev əsgərlərinə deyirmiş: "Siz geri çəkilin, mənim evdə iki qardaşım var. Şəhid olsam, ailədə məni əvəzləyəcək oğullar var..."

Belə işıqlı fikirlərlə şəhadətə yüksəlmişdi. Deyirlər ki, Nicat maşın həvəskarı idi. Bu səbəbdən də bankdan kredit götürmüşdü. Həmin pulla Bakıya gəlmişdi ki, özünə maşın alsın. Birdən fikrindən dönüb pulu xalasına verib deyib ki, "şəhid olsam, bu pulu evdəkilərə verərsiniz, qoy onunla məclisimi yola salsınlar – ehsanımı versinlər"...

Şəhidlik uca bir zirvədir, hər kəsə nəsib olmur... Vətən qarşısında, el üçün bu müqəddəs borcu ödəməkdən ötrü igidlərimizi Allah seçib, əbədiyyət cənnəti üçün ayırıb onları. Adi ölüm olsaydı, bu, onların ata və anaları üçün çox çətin və əzablı olardı. Valideynlər minbir əziyyətlə böyütdükləri övladlarına inanır, sonsuz arzularla, işıqlı xoşbəxt gələcəyini gözləyirlər. Şəhid olmağı özünə şərəf bilən hər kəsin daxilində yüksək vətənpərvərlik, cəsurluq, müsbət əxlaq, saf əqidə olur. Elə buna

görə də onlar şüurlu şəkildə ölümü gözə alırlar.

Şəhidlər ölməz, heç vaxt unudulmaz! İllər keçəcək, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcək. Şəhidlərin davamçısı varsa, xatirələri hər yerdə anılırsa, deməli, onlar ölməyib, ürəklərdə əbədi yaşayırlar. Hər birimizin vətəndaşlıq borcudur ki, şəhadəti ilə bizə böyük Qələbə sevinci yaşadan bu oğullarımızı daim qəlbimizdə yaşadaq.

Ömür dediyin
çox vəfasızdı.
Göz qırpımında
tez ötüb keçir.
Ölüm dediyin
çox amansızdı.
Nə yaşlıya baxır,
nə cavan seçir.
Bir il bundan öncə
hələ sağ idi.
Arzusunu,
mənimlə bölərdi Nicat.
Bu fani dünyada
Deyib-gülərdi,
Kədər qismətindən
xəbərsiz Nicat.

Ürəyim, nə olub,
intizardasan.
Nicat, Nicat deyə
soraqlardasan.
Füzuli uğrunda
gedən döyüşdə
Dedilər, Nicatım,
sən vurulmusan.

Əziz qardaşların
Nihadla Ülvi
Sənsiz necə yaşar
bu fani ömrü?!
Dağ çəkib sinəmə
verdilər zülmü.
Ömrünü bizə
pay verən Nicat.

Əbədi dünyaya
hay verən Nicat.
Əbədi dünyaya
hay verən Nicat.

## “MUROV, SƏNƏ QURBAN OLUM, OĞLUM SƏNDƏ CAN VERİBDİ...”

***Şəhid Həsənin atası Aydın Abdullayev Murovdağa üz tutarkən dilindən bu misralar qopub.***



**Qədimlərdən bu yana bəşəriyyət tarixində müharibələr öz məramına görə fərqlənib. Tarixin istənilən mərhələsində işğalçı savaşları lənətlənib. Hərbi təcavüzə, işğalçılara qarşı aparılan vətən müharibələri isə hər bir dövrdə dövlət və xalqın şərəf məsələsi sayılıb, ilahi ədalətin bərpa olunmasına yönəlib. İstər Birinci Qarabağ müharibəsi, istərsə də Aprel döyüşləri və 44 günlük Vətən müharibəsində Azərbaycan haqlı tərəf olub. Xalqımız öz doğma, ata-baba torpaqlarını müdafiə edib. Müzəffər ordumuzun qəhrəman hərbçiləri, könüllülər ölkəmizin ərazi bütövlüyünün bərpası naminə döyüşdülər, ədalətsizliyə son qoymağı məqsəd kimi həyata keçirib, hərb meydanında işğalçı Ermənistanı məğlubiyyətə uğradaraq, 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur etdilər. Bu gün qalib dövlət və xalq adını daşıdığımıza görə şəhidlərimizə, habelə qazilərimizə minnətdarıq. Onların qəhrəmanlıq və fədakarlığı daim ehtiramla xatırlanacaq, iftixarla vurğulanacaq.**

Belə şərəfli ömür sahiblərindən biri də **Həsən Aydın oğlu Abdullayev** oldu. 15 oktyabr 1990-cı ildə Kəlbəcər rayonunun Zivel kəndində doğulan Həsən Aydın kişi ilə Əfruz xalanın üç övladından yaşca böyüyü idi. Bacısı Gülnar və qardaşı İsmayıl uşaqlıqdan onunla




fəxr edirdilər. Bunun da ayrıca səbəbləri var idi.

...O dəhşətli hadisələr baş verən vaxtlar Həsənin hələ üç yaşı tamam olmamışdı. 1993-cü il aprelin 2-də təcavüzkar Ermənistan silahlı qüvvələri tərəfindən Kəlbəcər rayonunun işğalından sonra Abdullayevlər ailəsi doğma diyarından köçkün düşdü. Onlar İsmayıllı rayonunun Quşencə kəndində müvəqqəti məskunlaşmağa məcbur oldular. Sonrakı dövrdə ailə İsmayıllı rayonunda məcburi köçkünlər üçün salınmış Qarabağ qəsəbəsinə köçdü.

Həsən 1997-ci ilin sentyabrında Quşencə kəndindəki şəhid Əhmədağa Babayev adına tam orta məktəbdə birinci sinfə gedir. 2008-ci ildə həmin məktəbi bitirir. Attestatında "Çağırışaqədərki hazırlıq" fənnindən yaxşı qiymət aldığı qeyd edilib.

Həsən hələ məktəbli olduğu illərdə hərbi xidmətə hazırlaşıb. Fiziki tərbiyədən isə həmişə əla qiymətlər alıb. Bir müddət idmanın karate döyüş növü ilə məşğul olub. Ailədə və məktəbdə etdiyi söhbətlər zamanı hərbçi peşəsinə rəğbət bəslədiyini bildirib. Müəllimlər də onun vətənpərvərlik tərbiyəsinə öz layiqli töhfələrini veriblər.

Yaşı çatanda Respublika Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2009-cu ilin aprelində həqiqi hərbi xidmətə yollanıb. Vətən qarşısında borcunu Müdafiə Nazirliyinin Bakı ətrafındakı “N” saylı hərbi hissəsində xidmət etməklə layiqincə ödəyib. Zirehli tanklar bölüyündə, PDM-2 (piyada döyüş maşını) üzrə sürücü-mexanik vəzifəsi ona həvalə olunub. 2010-cu il oktyabr ayında həqiqi hərbi xidmətdən tərxis edilib.

Həsən Abdullayev hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra dam örtükləri hazırlanan sexdə usta işləyərək ailənin dolanışığına kömək edib. O, daxilən rahatlıq tapmırdı: yuxularına girən Qarabağ, Kəlbəcər ona rahatlıq vermirdi. Ürəyi Vətən eşqi ilə döyünürdü. Ata-baba yurdunun nisgiliylə yaşayan Həsən 2013-cü ildə həyatını hərbi xidmətə bağlamaq barədə qəti qərarını verir.

Milli dövlətçiliyimizin təhlükəsizlik sütunlarından biri və peşəkar döyüş təcrübəli hərbi qurum kimi nüfuz qazanmış DİN-in Daxili Qoşunlarının Xüsusi təyinatlı dəstəsində atıcı-sanitar vəzifəsində xidmət etməyi özünə şərəf bilən Həsənin müraciəti komandanlıq tərəfindən müsbət cavablandırılır.

2013-cü il iyun ayının 4-də Həsən Daxili Qoşunlarda müddətdən artıq hərbi xidmətə başlayır. “N” saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsinin bölməsində atıcı xüsusi təyinatlı dəstənin avtomobil yarımqrupunda sürücü, daha sonra xüsusi həmlə qrupunda qumbaraatan köməkçisi və atıcı-sanitar vəzifələrində layiqincə xidmət edərək komandanlığın ehtimadını doğruldur. Peşəkar hərbçi kimi formalaşmaqdan ötrü ona etimad göstərilən bölmələrin xüsusiyyətlərindən irəli gələn bilikləri dərindən mənimsəyir, təyin olunduğu vəzifələrdə praktiki bacarıqlarını artırmağa səy göstərir.

Həsən hər vaxt döyüş və mənəvi-psixoloji hazırlığında əzmkarlıq göstərir. Təhkim olunan silah və xüsusi vəsaitlərdən, hərbi avtomobildən məharətlə istifadə edir. Təlimlər və məşğələlər zamanı yüksək nəticələrə nail olur. Gənc hərbçi kollektivdə ciddi davranışı ilə silahdaşlarının hörmətini qazana bilir. Nümunəvi xidmətlərinə görə komandirləri tərəfindən dəfələrlə mükafatlandırılır. Hərbi

xidməti dövründə əsl döyüşçüyə xas peşəkar keyfiyyətlərə yiyələnir. Xidməti tapşırıqların icrasına cəlb olunarkən qoşunların nüfuzuna heç vaxt xələl gətirmir. Ona tapşırılan bütün vəzifələri vicdanla yerinə yetirir.

Kəlbəcər sevdası ilə sinəsi göynəyən ailə üzvləri onun hərbi xidməti ilə həmişə qürur duyub. Doğmalarının mənəvi dəstəyi Həsəni daha da ruhlandırır. Qardaşı İsmayılı da Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə həvəsləndirir. İsmayıl 2016-cı ilin noyabrından 2021-ci ilin yanvarınadək "N" saylı hərbi hissənin xüsusi vəsaitlərin tətbiqi dəstəsində xidmət keçir.

Həsən əlahiddə hissə güclü olduğu üçün "Pələng" ləqəbini daşıyıb. Həmin dəstədə döyüşən hərbçilərə bu ləqəb verilmişdi. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunların çavuşu olan Həsən Abdullayev 2020-ci il sentyabrın 27-də ordumuzun düşmən üzərinə əks-hücumu ilə başlayan Vətən müharibəsində ön cəbhəyə ilk göndərilən hərbi qulluqçuların arasında olub, doğma yurdu Kəlbəcər–Murovdağ istiqamətində vuruşub. Bu, Həsənin həyatının ən başlıca missiyasının gerçəkləşdiyi vacib məqam idi.

Xüsusi təyinatlı kimi Murovdağın aşırımları və zirvələrində qısa, lakin şərəfli döyüş yolu keçib. Həsən uşaqlıqdan doğmalarının didərgin salındığı Kəlbəcərin Zivel kəndinə döyüşçü olaraq qədəm basmağı, orada bayrağımızı ucaltmağı, işğal altındakı torpaqlarımızı azad görməyi arzulayırdı.

Qarabağ müharibəsi iştirakçısı, "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri polkovnik-leytenant Zaur Rəhimov bundan əvvəl xidmət etdiyi hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri olduğu müddətdə Həsən onun tabeliyində xidmət edib. Komandirinin sözlərinə görə, peşəkar hərbçiyə aid bütün müsbət xüsusiyyətlər Həsəndə cəmlənmişdi. İntizamlı, yüksək döyüş qabiliyyətli və cəsur idi.

Xidmət zamanı ictimai təhlükəsizliyin qorunması üzrə müxtəlif xüsusi əməliyyatlara cəlb olunub. Daxili Qoşunların xüsusi təyinatlı dəstələri arasında yarışlarda iştirak edərək qalib yerlərə sahiblənib. Döyüş sınaqlarında Həsən hər zaman qabiliyyət və peşəkarlıq

nümayiş etdirib. Mürəkkəb relyefə malik Murovdağ silsiləsinin ərazisində mövqelənmiş təcavüzkar düşmənin postlarına hücum edərkən qorxmaz döyüşçü silahdaşlarını ruhlandırıb, avtomat silahı ilə onlarla işğalçının həyatına son qoyub.

Vətən müharibəsi qazisi, ehtiyatda olan Elnur Cəfərov dostunun xeyirxah, sözü və əməli bütöv, qayğıkeş insan, etibarlı silahdaş olduğunu vurğuladı. Onun sözlərinə görə, Həsən hərbi qulluqçu olaraq həmişə özünə tələbkar yanaşıb. Söhbətlərinə ailəsinin məcburi köçkünlük həyatının çətinliklərindən, Kəlbəcərsiz yaşamağın iztirabından, müharibə başlayarsa, birincilər sırasında döyüşə könüllü gedəcəyindən danışırmış.

Qazi Elnur Cəfərov onu da vurğuladı ki, Vətən müharibəsində o, Həsənlə eyni deyil, ayrı-ayrı qrupların tərkibində döyüşüblər. Dostunun şəhadətə ucalması barədə beş gün sonra xəbər tutan Elnur çox sarsılıb. Özü oktyabrın 6-da ağır yaralandığından döyüş yolunu davam etdirə bilməyib. Elnur deyir: “...Həsənin itkisinə heç cür öyrəşə bilmirdim, çox sarsılmışdım, onsuz yaman darıxırdım.Ancaq bu sarsıntılardan məni azad edən tək səbəb atası Aydın əminin qürurla başını dik tutması, oğul itkisinə bir dəfə də olsun göz yaşı axıtmaması oldu. Mən onun məğrurluğuna baxıb sarsılmağımdan utandım və özümdə güc, səbir toplayıb iradəli olmağı öyrəndim...”

“N” saylı hərbi hissədə Xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunda istehkamçı-radiotelefonçu, Vətən müharibəsi iştirakçısı, çavuş Elçin Əhmədağalı Həsənin döyüş yolunun bütün məqamları barədə məlumatlı olan hərbi qulluqçulardandır. O söylədi ki, 2013-cü ilin iyun ayından eyni hərbihissədə,bir bölmədə xidmətə başlayıblar. Sonra xüsusi təyinatlılar kursunu bitirərək eyni dəstəyə keçiriliblər. Həsən vətənpərvər, məsləyinə sadiq, dözümlü, iradəli, mətin hərbi qulluqçu olub. Hər zaman silahdaşlarına “Milli Qəhrəman, şəhid Mübariz İbrahimovun yolunu davam etdirmək şərəfdir!” deyib. Bakıya yolu düşəndə Milli Qəhrəmanın məzarını ziyarət edib.

Hərbi qulluqçu onu da vurğulayıb ki, Vətən müharibəsində Həsənin ilk döyüşü Murovdağ ərazisində “Canavar sağ” adlanan

yüksəklikdəki mövqeyin alınmasında olub. Qarşıya qoyulan tapşırığı o, silahdaşları ilə mərdliklə yerinə yetirib. Baxdığım videolardan birində dağların başından duman çəkilərkən Kəlbəcər rayonuna açılan gözəl mənzərə görünür. Murovdan həmin mənzərəni görən Həsən qeyri-adi sevinc hissləri yaşayıb.

Sentyabrın 30-da günortadan sonra “Canavar sağ”dan Çiçəkdağ yüksəkliyinə doğru irəliləyərkən Həsənin yanına düşmənin minaatan mərmisi düşərək partlayıb. Nəticədə o, bir neçə nahiyədən qəlpə yarası alaraq şəhid olub. Həmin anda şəhidin yanında Elçin, bir də Sabir adlı döyüşçü olub. Oktyabrın 1-də qəhrəman şəhidin nəşi təxliyyə olunub.

3 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə çavuş Həsən Abdullayevin 2020-ci il sentyabrın 28-də Göygöl rayonunun Toğanalı kəndində, hərbi əməliyyat nəticəsində başın açıq yara səbəbindən şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Təlim və məşğələlərdə fəal iştirak edib təcrübə toplayan Həsən İkinci Qarabağ, Vətən müharibəsindən bir müddət əvvəl Xüsusi təyinatlı qüvvələrə ezam olunur. Orada bir müddət təlim keçdikdən sonra sentyabrın 27-dən başlayan döyüşlərdə iştirak edir. 01.10.2020-ci ildə Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. 2 oktyabrda İsmayıllı rayonunun Quşencə kəndində yerləşən qəbiristanlıqda torpağa tapşırılır.

Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən, iştirakçısı olduğu döyüşlərdə göstərdiyi igidliyə görə15 dekabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə çavuş Həsən Abdullayev ölümündən sonra “Vətən uğrunda” və“Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib. 44 günlük Vətən müharibəsində o nəslin qəhrəman şəhidi Həsəndir. Abdullayevlər ailəsinin yaşadığı evdə şəhidin xatirə guşəsi yaradılıb.

“İsmayıllı şəhidləri”, “Memorial Vətən müharibəsi şəhidləri. 957 qəhrəmanın bioqrafiyası, I cild” kitablarında, həmçinin

“Azərbaycan”, “Polis” və “İsmayıllı xəbərləri” qəzetlərində Həsənin döyüş yolu işıqlandırılıb. İgid döyüşçü haqqında videoçarxlar hazırlanıb. Quşencə kənd tam orta məktəbində şəhidin adına sinif var. Kənddə onun şəkli əks olunan plakat da quraşdırılıb.

Şəhid qəhrəmanın atası Aydın müəllim çox uzaqgörən adam kimi tanınır. Məktəbdə çalışırdı. Həmin gün işdən qayıdanbaş evə çatıb, həyat yoldaşına deyib ki, müharibədi, gedək bazardan lazımi ərzaq məhsulları, qənd-çay alaq. Mağazadan ərzağı alıb avtomobilə qoyanda bir az əvvəl məktəbdə qoyub gəldiyi qardaşı oğlu ona zəng edib ki, icra hakimiyyətinin yerləşdiyi binanın qabağına gəlsin. Məktəblə də evin arasındadörd kilometr məsafə var. Həmin dəqiqə bilib ki, ortada nəsə var. Soruşub ki, Həsən şəhid olub?! Zəng edən adam “dilini sürüyərək” bildirib ki, “xeyr, yaralanıb”. Atası soruşub ki, “əgər yaralanıbsa, icra hakimiyyətinin qarşısında nə gəzirsiniz?! Çünki icra hakimiyyətinin qarşısından ancaq Gəncəyə gedirlər. Gedib ora, artıq dana bilməyiblər. Bütün rayon, böyük bir insan axını Göyçaya kimi qarşılamağa gediblər. Xalq şəhidini gətirib dəfn edib. Aydın müəllim ata kimi yox, yüksək səviyyədə iştirakçı kimi çıxış edib. Dəfndən sonra bütün kənardan gələn hərbçilərə və rayon rəhbərliyinə deyib: “Hamı iş başına!”

Ürəyi sızıldayan atanın oğluna yazdığı şeirlərdən birində belə bir bənd var:

Murov, sənə qurban olum,
Oğlum səndə can veribdi.
Torpağını sulamağa
Damarından qan veribdi…

30 il bundan əvvəl başlayan münaqişə nəticəsində doğma yurddan ayrıldığı uzun illər ərzində bu ailədə həmişə Kəlbəcər haqqında söhbət açılıb, elin geri qayıdacağı gün üçün dualar səsləndirilib, eləcə də qurban kəsiləcəyi niyyəti də söylənilib. Kəlbəcərin dağları, meşələri, şəlalələri, buz kimi bulaqları, sazlı-sözlü obaları haqqında valideynlərinin danışdıqlarına Həsən kiçik yaşlarından maraq və həsrətlə qulaq asıb...

***

Həsən Murovdağ uğrunda gedən döyüşlərdə cibinə dörd ədəd daş qoyur və döyüş yoldaşlarına deyir ki, şəhid olsam, valideynlərimə deyin ki, bu daşları mənim məzarıma qoysunlar. Mərhumun üzərindəki bayraq və həmin daşlar ölümündən sonra ailəsinə təhvil verilib.

Həsən subay idi, sevdiyi qız vardı. Ailə qurub xoşbəxt olmaq arzusunda olsa da, bu xoşbəxtlik sanki onun alın yazısında yox idi. Atası Aydın müəllim hər gün məzarını ziyarət edib deyir:

Oğul, məzarını ziyarətdəyəm,
Başdaşınla öpüşməyə gəlmişəm.
Qalx ayağa, anan səni gözləyir,
Yerimizi dəyişməyə gəlmişəm.

Taleyinə yazılıbmış, sən demə,
Bəylik libasını geyməmiş getdin.
Deyirlər övladda nəvə şirindi,
Atana bir nəvə verməyib getdin.

Yaradan ömrünü qısa eylədi,
Həyat yollarını kəsə eylədi,
Atana-anana zülüm eylədin,
Bivəfa dünyadan doymamış getdin.

İllər necə keçdi, bilə bilmədin,
Bir körpə övlada balam demədin,
Qurbanım, otuzca il ömür eylədin,
Həyatdan kamını almamış getdin.

Aydın müəllim şəhid ailələri arasında, rayon ictimaiyyətinin bütün tədbirlərində qürurla, təmkinlə çıxışlar edərək elin, ictimaiyyətin dərin hörmətini qazanıb. Oğlunun məzarı önündə məğrur dayanaraq bu sözləri deyib: “Kaş gülümsəyən üzünü həyatda bir də görəydim.

Yaman darıxmışam sənin üçün. Məmləkətin torpağına tökülən qanın Vətənə halal olsun, oğlum!..”

Yenə övladının məzarını ziyarət edərkən bu şeiri pıçıldayıb:

Məzarınla görüşməyə,
Mən əlləri boş gəlmişəm.
Yanağımla axan damcı,
Gözlərimdə yaş gəlmişəm.

Başdaşından öpürəmsə,
Sağa, sola çönürəmsə,
Geriyə tez dönürəmsə,
Demək, qəlbidaş gəlmişəm.

Aydınam, unutmaram səni,
Sənsizlik saraltmış məni,
Ruhun bağışlasın məni,
Duyğulu, çaş-baş gəlmişəm.

Aydın müəllimə sual veriblər ki, oğlun Həsənin ölüm xəbərini eşidəndə heyifsiləndinmi?! Cavabında söyləyib: “İlk dəfə xəbəri eşidəndə heyifsiləndim ki, müharibənin nəticəsinin necə olacağını bilmədi, döyüş yolu çox qısa oldu. Amma buna sevinib fəxr elədim ki, nə yaxşı Vətən, Qarabağ, Kəlbəcər uğrunda gedən haqq savaşımızda şəhid oldu. Çünki Həsən Vətən deyirdi, ruh deyirdi. Bu yaxınlarda gedib Kəlbəcəri görüb qayıtdım. Ürəyimdə deyirəm ki, kaş oğlum da görəydi azadlığına qovuşmuş Qarabağın, Kəlbəcərin bu sevincli günlərini. Alnına şəhidlik yazılmışdı, amma onun tez getməyi məni yaman narahat etdi. Bilirəm, ruhu gedib oraları gəzib, görüb, amma özü gedib görüb gəlsəydi, ürəyim rahat olardı. Ancaq şəhidliyi üçün yalnız fəxr edirəm, qürur duyuram. Həm də onun öz ata-baba yurdunda şəhidlik məqamına çatması mənim üçün daha bir qürurvericidir...

Taleyimdən qaralıyam,
Əlim çatmır, aralıyam,
Düz bir ildir yaralıyam,
Sinəmə sancılan oxdu.
Allah, dərdim yaman çoxdu.

Dəryadayam, batmayıram,
Mən arzuya çatmayıram,
Gecələri yatmayıram,
Qəm sarıdan könlüm toxdu,
Allah, dərdim yaman çoxdu.

Mən Aydınam, sızlayıram,
Yollarını cızlayıram,
Oğul zəngi gözləyirəm,
Həsən adlı gur səs yoxdu.
Allah, dərdim yaman çoxdu.

Aydın müəllim onu da söyləyir ki, mənə kimsə "Allah səbir versin" sözlərini deyəndə içimdə həmin adamlara bərk acığım tutur: "Axı Allah mənə əvvəlcədən o qədər səbir, dözüm verib. Allah mənə elə bir səbir verib ki…

Oğul, dözə bilmirəm,
Allah, mənə səbir ver!
Əgər səbir verməsən,
Əvəzində qəbir ver.

Əzizinəm, noğuldu,
Kəlbəcərdə doğuldu.
Məni yandırıb-yaxan
Həsən adlı oğuldu.

**Həsənin anası Əfruz xanım**ın oğlu haqqında söylədiyi xatirələri də həyəcansız nə dinləmək olur, nə də yazmaq: "Həsənim yaşadığı Quşencə kəndini çox sevirdi, bura o qədər alışmışdı ki, hətta qısa müddətə ayrılmaq belə istəmirdi. Oğlumun uşaqlıq illəri çox maraqlı keçmişdi. O, təbiət vurğunu idi, dağları piyada gəzib onların ucalığını seyr edərdi, çevik idi. Ardıcıl olaraq idmanla məşğul olardı. Karate, boks kimi idman növlərinin məşqlərinə gedərdi. Güclü idi. İstirahət günlərində Göy gölə, Maralgölə səyahətə gedərdi.

...Dörd ay idi ki, onunla yalnız telefonla əlaqə saxlayırdıq. Sonra özü Ramazan bayramına görə bir günlük gəlib rayonda olan şəhidləri ziyarət etdi. Qəbirlərin üstünü əlləri ilə təmizləyib, sonra qonşulara dəyib, sonda bizi görməyə gəlmişdi.

O zamanlar Həsən Gəncə Hərbi hospitalında Aprel döyüşlərində yaralanan əsgər və zabitlərə tez-tez baş çəkir, öz hesabına ərzaq, pay-püş alıb onlara aparırdı. Özünü dərk edəndən hər kəsin hörmətini qazanmışdı. Özündən böyüklərə hörmət və qayğı göstərirdi. Məhlədə hamı onu çox sevirdi, bu üzdən yoxluğunu qəbul edə bilmirlər. Oğlum əsl vətənpərvər gənc idi...

Həsənin xidmət və döyüş yoldaşı **Kamran İmran oğlu Puçaxov** xatirələrini belə bölüşür: "Həsənlə 2016-cı ildə eyni bölmədə xidmət etmişəm. O, mükəmməl hərbi bilik və bacarığı olan bir döyüşçü, bacarıqlı, əsl döyüşçülərə xas olan xüsusiyyətləri ilə seçilən bir qəhrəman idi. İkinci Qarabağ müharibəsi başlayanda Həsənin simasında qəribə bir sevinc hissləri əks olunduğunu görürdüm.

Doğma yurdu Kəlbəcər istiqamətində hücuma keçdikdə isə sevincinin həddi-hüdudu yox idi. Çünki o, erməni işğalında olan öz ata-baba məskəni Kəlbəcərin uğrunda döyüşə qatılırdı. Kəlbəcər uğrunda döyüşlər Murovdağdan başladı, çox çətin idi, sıldırım qayalı, keçilməsi heç də asan olmayan yerlərdə vuruşmalı olurduq. Bizim taburun hücumu zamanı "Canavar sağ"postu adlanan ərazini düşməndən azad edərkən Həsən orada çox böyük igidlik və şücaət göstərdi.

Həsənin olduğu qrup bizim solumuzdakı təpələrdə mövqelənmişdi. Düşmən dəstələri bir neçə dəfə hücum etsə də,

onların həmlələrinin qarşısı məharətlə alınmışdı. Artıq düşmən piyada qrupları ilə hücum etmir, iriçaplı silahlardan dayandığımız mövqelərə atəş açırdı. Düşmən tərəfi iriçaplı silahlardan vurduğu zaman döyüşçü yoldaşımız Həsən Abdullayev ağır yaralandı, əbədi olaraq şəhidlik zirvəsinə ucaldı...

O zaman bizə rabitə ilə bildirdilər ki, şəhidimiz var, təxliyyə etmək lazımdır. Şəhidin kim olduğunu bilmirdim. Bir neçə nəfər şəhidi təxliyyə etməyə getdik. Yoldaşlar şəhidin yanına çatmamış mənə dedilər ki, sən şəhidimizi çıxarmaq üçün əlverişli yol axtar. “Bu, Həsən Abdullayevdir!” deyə biri səsləndi və mən o andaca şəhidimizin yanına getdim. Həsən baş nahiyəsindən yaralanmışdı. Onun üzündə döyüş maskası vardı. Yoldaşlarımız maskanı tam şəkildə qapamışdılar...

Heç kim inanmaq istəmirdi Həsənin ölümünə. Döyüşçü dostlarıma dedim ki, maskanı tamam üzündən açın. Dedilər ki, biz də Həsəni tanıyırdıq, dəqiq odur, maskanı bir də təkrar açmayaq. Həmin anlarda mən özümü necə hiss etdiyimi sözlə ifadə edə bilmərəm. Artıq Həsəni təxliyyə edirdik ki, birdən biləyindən qəlpə yarası aldığına görə əlinin qoparaq yerə düşdüyünü gördüm. Əlini götürüb sinəsinə qoyduq. Həsənin şəhid olması, o dəhşətli anlar məni çox sarsıtdı. Onu müəyyən yerə kimi təxliyyə etdik. Oradan isə başqa yoldaşlarımız Həsəni aparmaq üçün gəldilər...”

Eyni məhəllədə yaşayan dostu Xəyyamın xatirələrindən: “Həsən mənim uşaqlq dostum, qonşumuz idi, ailəvi yaxın olmuşuq. Məndən səkkiz yaş kiçik olsa da, ona “ağsaqqal” deyə müraciət edirdik. Mən İsmayıllıdan, o, Kəlbəcərdən olsaq da, bir-birimizə başqa-başqa rayondan olduğumuzu hiss etdirmirdik.

Vətənə sevgi onun sonradan deyil, kiçik yaşlarından canında, qanında vardı. Hərbiyə marağı güclü idi, Milli Qəhrəman Mübariz İbrahimov kimi tarixə düşmək istəyirdi. Çölçülüyü gözəl idi, yaxşı yol yoldaşı idi. Bakıda kirayə mənzil tutub bir yerdə qalırdıq. Müxtəlif mülki işlərdə çalışmışıq. Bir neçə yoldaşla birlikdə Şəhidlər xiyabanına ziyarətə getməyi planlaşdırmışdıq. Çox çalışdıq, amma onu maşına mindirib apara bilmədik. Dedi ki, mən şəhidlərimizi

ziyarət etmək üçün piyada gedəcəyəm. Belə də oldu. Dərnəgüldən Şəhidlər xiyabanına piyada gedərək xiyabanı ziyarət etdi. Həsən "Vətən!" deyərək yaşayırdı.

Dostum məzuniyyətə gəldiyi ilk gün bizim ailəni ziyarət edərdi. Onun bizim kənddə yaşayan bibisi oğlu Nadir Heydərov Birinci Qarabağ müharibəsində şəhid olmuşdu. Hər dəfə onun məzarını ziyarət edəndə Həsən deyirdi: "Çox az qalıb, sənin qisasını alacağıq!" Dediyi kimi də oldu...

Onlar hərbi təlimdə olan zaman atalarımız gedib Bakıda Həsənə dəymişdilər. Amma mən cərrahiyyə əməliyyatı keçirmişdim deyə gedə bilməmişdim. Həsənlə son yazışmamız 25 sentyabr 2020-ci ildə oldu. Dedi ki, bizi Bakıya aparırlar, ayın 27-də mühüm əməliyyat gözlənilir. Bu, son ünsiyyətimiz oldu. Atası deyirdi ki, müharibə başlasa, bilirəm, oğlum Həsən şəhid olacaq. 2 oktyabr 2020-ci ildə səhər saat 9 radələrində mobil telefonuma zəng gəldi. Aydın əmi atamın adını çəkib soruşdu ki, Çingiz haradadı? Cavab verdim ki, evdədir. Aydın əmi çox kədərli səslə Həsənin şəhid olması xəbərini çatdırdı. Bir anlığa elə bildim bel sütunum qırıldı. Atamla anam o dəqiqə yollandılar rayon mərkəzinə..."

**Çavuş Ümman Məzahid oğlu Baxşəliyev** Həsənin xidmət yoldaşı olub, onunla bağlı sevincli, kədərli xatirələri çoxdur:"Belə ki, mən əvvəllər də o hərbi hissədə xidmət etmişəm. 2013-cü ildə Həsən könüllü olaraq burada xidmət etmək üçün rəhbərliyə müraciət ünvanladı: xüsusi komandanın əmri ilə xidmətə başladı. Həsənlə "Pələng" dəstəsində xidmət keçirdik, istirahət, asudə vaxtlarımızı bir yerdə keçirmişik. O, subay, mən isə ailəli idim. Şənbə və bazar günləri biz birlikdə, ailəvi gedirdik Daşkəsənə, Gədəbəyə, Hacıkəndə. Müharibə başlayanda bizi cəlb elədilər xüsusi təyinatlıların təlimlərinə. Elə oldu ki, burada bölmələrimiz ayrı düşdü. Yenə də əlaqə saxlayırdıq. Döyüşlər başlayan gün bizi əks-hücum əməliyyatlarına cəlb etdilər, hərəmiz bir istiqamətdən döyüşə başladıq. Həsəngil "Canavar sağ"ın sağ və sol postlarını almağa yollandılar. Biz isə Kəlbəcərin Susuzluq dağ silsiləsini götürəsi olduq. Bu qaydada Murovdağ silsiləsində üç-dörd gün döyüşlərimiz

oldu, sonra geri qayıtdıq. Elə oldu ki, mən Cəbrayıl istiqamətində döyüşlərə göndərildim. Cəbrayılda toplanma nöqtəsi deyilən bir ərazi var, orada yığışdıq bir yerə. Orada Elnur Cəfərov, Elçin Əhmədağalı və mən eşitdik ki, Həsən "Canavar sağ" yüksəkliyini alarkən minaatan atəşi nəticəsində şəhid olub.

Sözsüz, elə bir dostu itirmək bizim üçün çox çətin idi. Amma yenə də döyüşü davam etdirməliydik. Biz dostumuz Həsənin qisasını almaq üçün qarşımıza məqsəd qoymuşduq: çoxlu sayda düşməni məhv etməliydik...

Həsən Xüsusi təyinatlı dəstədə eyni qrupda, mənimlə bir yarımqrupdaydı, snayper idik. Yəni döyüşəqədərki təlim tapşırıq fəaliyyətlərimiz eyni idi. Uzaq məsafəli qaçışlarımız olurdu. Həsən o qaçışlarda hər zaman öndə gedərdi. Hər zaman yorulan hərbçi yoldaşına kömək edərdi. Qaçış zamanı yoldaşlarına deyirdi ki, kim yorulub, silahını versin mənə, kömək edim ona. Hətta ağır silahı ilə o, on-on beş kilometr qaçış icra edirdi. O, həm avtomat silahını daşıyırdı, həm də öz yoldaşlarının pulemyot silahını götürürdü.

Qaçışlarda hər vaxt öz yoldaşlarına kömək olurdu. Yoldaşlar arasında belə bir zarafatımız da olurdu. Həsən biraz arıqlamışdı. Cüssəli yoldaşlara deyirdi ki, verin silahınızı mən qaçım. Onlar da zarafatla ona sataşıb deyirdilər ki, bu canınla silahı necə daşıyarsan!? Buna baxmayaraq, o, sona kimi istəmirdi ki, yoldaşları yarı yolda qalsın, hamıya kömək edirdi. Mən döyüş qardaşım Həsəni bu cür tanımışam..."

## MÜNDƏRİCAT:


1. Bilal Alarlı.Zəfər tariximizin şanlı səhifələri. Şəhidlərə qoyulan söz abidəsi........................................3
2. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham ƏLİYEV.................5
3. Mehriban Əliyeva. Müzəffər sərkərdənin sadiq silahdaşı..........................................................................7
4. Cəmilə İsbəndiyarova. Qarabağ Zəfərinin intibah mərhələsi.......................................................................11
5. Məhəmməd Nərimanoğlu. Vətən müharibəsinin Zəfər salnamsi.........................................................................15
6. Əziz Ələkbərli. Folklordan keçən Zəfər yolu..................19
7. Cəmilə ÇİÇƏK. Vətən daşı olan vətəndaş. Yaxud susan poeziyanın "danışan dili"...............................................29
8. Elin igidlik simvollarından biri......................................45
9. Kəlbəcərin unudulmaz şəhid övladı: Arif Əliyev............61
10. Daşqın Şəfiyev: Kəlbəcərləşmiş şəhid qəhrəman............67
11. Kəlbəcərin şəhidlik zirvəsinə 18 yaşında ucalmış fəxri.............................................................................84
12. İki Qarabağ müharibəsi: ata şahid, oğul şəhid.................92
13. "Murov, sənə qurban olum"............................................97

**Cəmilə Köçəri qızı İsbəndiyarova.**
**Qarabağ: Qələbəmizin kreativ tarixi**
**Bakı, “Hədəfim Təhsil”, 2022**

**Korrektor:** Kəmalə Cəfərli
**Texniki redaktor:** Əlimirzə İsbəndiyarov
**Dizayner:** Cəfər Kərimov
**Operator:** Nigar Nadirova

Yığılmağa verilmiş: 28.09.2022
Çapa imzalanmış: 26.10.2022
Kağız formatı: 60/84
Həcmi: 112 səh.
Sayı: 305

Kitab “Hədəfim Təhsil” MMC-nin
sifarişi ilə hazır depozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur